# XƏZƏR XƏBƏR

KHAZAR REVİEW
№ 449 Aprel 2025



25 DÜNYA MƏKTƏBİ

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org




# "DÜNYA" MƏKTƏBİNİN YUBİLEYİ TƏNTƏNƏ İLƏ QEYD OLUNDU

# THE ANNIVERSARY OF "DUNYA" SCHOOL CELEBRATED WITH GRANDEUR

Fəaliyyətə başladığı 1998-ci ildən 22000 şagirdin təhsil aldığı, 1600-ə yaxın məzunu olan və hal- hazırda 2000-dən artıq şagirdin təhsillə təmin edilməsində müstəsna xidmətləri olan "Dünya" məktəbi əsrin dörddə birini təntənə ilə qeyd etdi. "Dünya" məktəbi 1998-ci ildə Prof. Hamlet İsaxanlı və onun ömür-gün yoldaşı Nailəxanım İsayeva tərəfindən təsis olunub. Məktəbin nəşri oan "Dünya" dərgisinin də 10 yaşı tamam olub.

Aprelin 25-də Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında baş tutan yubiley tədbirində ölkənin ziyalı ictimaiyyəti, elm və sənət adamları, dövlət rəsmiləri, media mənsubları, müxtəlif məktəb direktorları, diplomatik korpusun nümayəndələri, xarici qonaqlar və qardaş Türkiyə universitetlərindən nümayəndələr iştirak edirdilər.

Tədbirin aparıcıları – "Dünya" məktəbinin müəllimləri Arzu Ömərova və Elşad Rzayev məktəbin keçdiyi inkişaf yolu, fəaliyyəti, şagirdləri, eyni za-

Since its establishment in 1998, "Dunya" School has played an exceptional role in the education of more than 22,000 students and the graduation of nearly 1,600 alumni. Currently providing quality education to over 2,000 students, the school proudly marked a quarter of a century of its journey. Founded by Professor Hamlet Isakhanli and his wife Nailekhanim Isayeva, the school also celebrated the 10th anniversary of its publication, "Dunya" magazine.

The jubilee event, held on April 25, at the Samad Vurgun State Russian Drama Theatre, brought together intellectuals, artists, scholars, public figures, state officials, media representatives, school directors, members of the diplomatic corps, international guests, and representatives from Turkish universities.

The event was hosted by "Dunya" School teachers Arzu Omarova and Elshad Rzayev, who elaborated on the school's path of development, its student body,



manda, bu gün ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda təhsil alan, çalışan məzunları haqqında geniş söz açdılar. Xüsusilə vurğuladılar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 avqust 2013-cü il tarixli Sərəncamı ilə Xəzər Universitetinin "Dünya" məktəbi 2012/2013-cü dərs ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur.

Tədbirdə qeyd olundu ki, "Dünya" məktəbi Azərbaycan-rus, "Dünya" IB məktəbi və "Dünya" ana məktəbindən ibarətdir. Məktəbin Sumqayıt və Gəncə şəhərlərində yerləşən filiallarının da uğurlu fəaliyyəti barədə bəhs edildi.

2002-ci ildə yaradılmış "Dünya" ana məktəbində təhsil alan azyaşlılar sonradan "Dünya" məktəbinin ibtidai bölmələrində oxuyurlar. Məktəb indiyədək 2250 nəfər şagird hazırlayaraq, 1-ci sinfə yola salıb və hazırda151 şagirdi mövcuddur.



*Direktorlar: Çiçək Qaracayeva (Sumqayıt "Dünya" məktəbi), Rəna Həsənova ( IB məktəbi), Mərufə Mədətli ("Dünya" məktəbi, Azərbaycan və rus bölmələri)*

(*Ardı səh.6-da*)



and alumni, many of whom are now studying and working both in Azerbaijan and abroad. They highlighted that by Presidential Order dated August 6, 2013, Khazar University's "Dunya" School was declared the winner of the 2012/2013 "Best General Education School" contest.

It was noted that "Dunya" School consists of the Azerbaijani-Russian section, the "Dunya" IB School, and the "Dunya" Preschool. The event also spotlighted the successful operations of its branches in Sumgait and Ganja.

Established in 2002, the "Dunya" Preschool has since prepared 2,250 children for first grade and currently educates 151 students. Celebrating its 15th anniversary, the "Dunya" IB School has produced 286 graduates, with 953 students currently enrolled. In 2025, its graduates are set to continue their studies not only at local universities but also at prestigious institutions such as Stanford, Boston, Oxford, and London universities.

(*To be continued page 6*)

# İÇİNDƏKİLƏR

"Dünya" məktəbinin yubileyi təntənə ilə qeyd olundu ....2
*İsmixan Yusubov*. Xəzər Universitetinin sehirli güzgüsü və ya rəngli poliqlot televizoru ....8
"Xəzər"in məzunu təsis etdi: *Ulusum.az* informasiya agentliyi....11
Prof.Akad. Hamlet İsaxanlı Sumqayıt "Dünya" məktəbinin təşkil etdiyi "Dünyanın Gəncləri – Gənclərin Dünyası" adlı tədbirdə....12
Sumqayıt "Dünya" məktəbindən Prof.Akad. Hamlet İsaxanlıya təşəkkür məktubu....15
"Xəzər"in məzunu Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə təyin edilmişdir...16
"Xəzər"in tələbələri Adobe World Championship müsabiqəsinin yarımfinalında ....17
"Xəzər"in komandası 3-cü yerə layiq görülüb ....18
Prof.Akad. Hamlet İsaxanlı akademik Fərəməz Maqsudovun 95 illiyinə həsr olunmuş tədbirdə ...19
ADA Universitetinin tələbələri Xəzər Universitetinin Tarix və arxeologiya departamentində ....20
Təhsil Elmləri üzrə Araşdırma Mərkəzinin əməkdaşlar üçün eksklüziv təlimi ....21
Tələbələr arasında sosioloji sorğu ....22
Milli Aerokosmik Agentliyin əməkdaşları ilə görüş ....24
İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri "Xəzər"də....26
Memarlıq və dizayn departamentinin təşkil etdiyi "Dəstək dizaynı" İnklüziv Mebel Konsepti....28
Bakı Regional Məşğulluq Filialının nümayəndələri ilə görüş ....29
"Gələcəyini Qur!" layihəsinin iştirakçıları "Xəzər"də ....30
Prof.Akad. Hamlet İsaxanlı Nəriman Nərimanovun 155 illiyinə həsr olunmuş tədbirdə ....32
TÜBİTAK tədqiqatçıları Zəngəzur dəhlizi ilə bağlı departament müdiri ilə müzakirələr aparıb...33
"Elm və Sənət Məclisi"nin 83-cü məşğələsi ....34
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....38
*Hamlet İsaxanlı.* Araşdırma Universiteti və Ətraf Dünya....40
"Xəzər"in xarici nəşrləri....57
*Təvəkkül Əliyev*. Görkəmli tədqiqatçı ....60
"KPMG Azerbaijan" şirkətinin "Audİt - Karyera günü" ....64
"Şuşa İslam dünyasının mədəniyyət paytaxtı – 2024" ilinin bağlanış mərasimi və I İslam Dünyası Mədəniyyət Forumu....65
"Maarifçi" təcrübə proqramı haqqında məlumat sessiyası ....66
"Xəzər"in beynəlxalq əlaqələri....68
Dillər və ədəbiyyatlar depatamentinin müdiri Türkmənistanda keçirilən beynəlxalq konfransda ....71
DataCite təşkilatının Yaxın Şərq və Asiya üzrə regional əlaqə mütəxəssisi ilə görüş....72
Şəhid övladları üçün 1-ci İntellektual marafonda iştirak edən "Xəzər"in tələbələri birinci və ikinci yerə layiq görülüblər ....74
"Dəstək Dizaynı" layihəsi çərçivəsində tədris ekskursiyası....75
"Türk Dövlətləri və Mədəniyyətləri Tarixi" kitabının təqdimatı ....76

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor**:
Hamlet İsaxanlı

**Baş redaktor müavini**:
Əlirza Balayev

**Foto**:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

The Anniversary of "Dunya" School Celebrated with Grandeur....2
Ismikhan Yusubov. Khazar University's Magic Mirror or Colorful Polyglot Television ....8
"Khazar" Graduate Establishes Ulusum.az News Agency ....11
Prof. Acad. Hamlet Isakhanli at Event "Youth of World – The World of Youth" Organised by Sumgayit "Dunya" School....12
Letter of Thanks from Sumgayit "Dunya" School to Prof. Acad.Hamlet Isakhanli ....15
Khazar University Alumnus Appointed Deputy Head of Baku City Executive Power ....16
Khazar University Students in Semifinals of Adobe World Championship....17
Khazar University Team Wins Third Place ....18
Prof. Acad. Hamlet Isakhanli at Event Dedicated to the 95th Anniversary of Academic Faramez Magsudov ....19
ADA University Students at Department of History and Archaeology of Khazar University....20
Exclusive Training For University Staff By Center for Educational Research ....21
Sociological Survey Among Students ....22
Meeting with Representatives of the Ministry of Defense Industry....24
Ambassador of the Swiss Confederation Visits Khazar University ....26
"Supportive Design" Inclusive Furniture Concept by Department of Architecture and Design ....28
Meeting with Representatives of Baku Regional Employment Branch....29
Participants of "Build Your Future!" Project Visit Khazar University....30
Prof. Acad. Hamlet Isakhanli Attended Event Dedicated to the 155th Anniversary of Nariman Narimanov ....32
TÜBİTAK Researchers Hold Discussions on Zangezur Corridor with Department Head ....33
83rd Session of "Science and Art Assembly"....34
News of Institute of ANAS Named after Nizami (*in Azerbaijani*)....38
*Hamlet Isakhanli.* Research University and the Environment....40
*Tavakkul Aliyev.* Prominent researcher....60
"Audit – Career Day" by KPMG Azerbaijan....64
Closing Ceremony of "Shusha – Cultural Capital of Islamic World 2024" and First Islamic World Cultural Forum....65
Information Session on "Maarifchi"Internship Program ....66
"Khazar"s International Relations....68
Head of the Department of Languages and Literatures Speaks at International Conference in Turkmenistan....71
Meeting with Regional Engagement Specialist for Middle East and Asia of DataCite....72
Khazar University Students Take First and Second Place in the First Intellectual Marathon for Children of Martyrs ....74
Educational Excursion within the Framework of "Support Design" Project....75
Presentation of Book "History of Turkic States and Cultures"....76

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

## "DÜNYA" MƏKTƏBİNİN YUBİLEYİ TƏNTƏNƏ İLƏ QEYD OLUNDU

## THE ANNIVERSARY OF "DUNYA" SCHOOL CELEBRATED WITH GRANDEUR





*Hamlet İsaxanlı*

Yaranmasının 15 illiyini qeyd edən "Dünya" IB məktəbinin 286 nəfər məzunu olub. Hazırda IB bölməsində 953 nəfər şagird təhsil alır. 2025-ci ildə IB məzunları ölkəmizdəki universitetlərlə bərabər Standford, Boston, Oksford, London universitetlərində də təhsil alacaqlar.

2016-cı ildən fəaliyyətə baılayan Sumqayıt "Dünya" məktəbində hazırda 416 şagird təhsil alır. Məzunları EGE Universiteti, Hong Kong Universiteti, Xəzər Universiteti, Eskişehir Osmanqazi Universiteti, Karlsuhe Texnologiya Universiteti kimi ali təhsi ocaqlarında təhsillərini davam etdirirlər.

2021-ci ildə "Dünya" məktəbi özünün Gəncə şəhərində filialını təsis edib. Hazırda məktəbin 170 şagirdi var.

Tədbirdə Xəzər Universiteti və "Dünya" məktəbinin təsisçisi Prof.Akad. Hamlet İsaxanlı, AMEA-nın prezidenti, Akad. İsa Həbibbəyli, Millət vəkili Azay Quliyev, "Dünya" məktəbinin 2010-cu il məzunu, Azərbaycan Elm və Təhsil Nazirliyinin rəsmisi, II Qarabağ Müharibəsinin qazisi Niftalı Qasımlı, Dünya Məktəbinin 2009-cu il məzunu, Vyana Universiteti Bisnes analiz departamentinin doktorantı və müəllimi Ülkər Qaracalı, məktəbin IB bölməsinin 11-ci sinif şagirdi - "Sabahın alimləri" adlı Respublika Layihə müsabiqəsinin qalibi olarar qızıl medala laiq görülmüş İbrahim Allahverdiyev "Dünya" məktəbinin cəmiyyətdəki rolundan, təhsil sahəsindəki uğurlarından danışdılar. Qeyd olundu ki, "Dünya" məktəbi elə Xəzər Universitetinin özü kimi rəqabətə davamlı bir təhsil müəssisəsi olaraq özünü cəmiyyətdə isbat edib. Təhsil sahəsində məktəbin rey-

The Sumgait branch, which opened in 2016, currently serves 416 students. Its alumni have gone on to study at institutions such as Ege University, the University of Hong Kong, Khazar University, Eskisehir Osmangazi University, and the Karlsruhe Institute of Technology.

The Ganja branch was launched in 2021 and now educates 170 students.

Among the speakers at the event were Prof. Akad. Hamlet Isakhanli, founder of Khazar University and "Dunya" School; President of the Azerbaijan National Academy of Sciences, Akad. Isa Habibbeyli; Member of Parliament Azay Guliyev; 2010 graduate and representative of the Ministry of Science and Education, Second Karabakh War veteran Niftali Gasimli; 2009 graduate and doctoral student/lecturer at the University of Vienna's Business Analytics Department Ulkar Garachali; and Ibrahim Allahverdiyev, an 11th-grade IB student and gold medalist of the national "Young Scientists" project competition.

The speakers emphasized the school's role in society and its continued excellence in education. It was noted that "Dunya" School, much like Khazar University itself, has proven to be a competitive and reputable institution. Despite the growing number of private schools, "Dunya" has maintained its leading position in the sector.

Long-time staff members were recognized with certificates of appreciation and gifts. At the end of the event, Aygun Isayeva-Gardiner, Director of "Dunya" School LLC, delivered heartfelt words of thanks to

tinqi həmişə yüksək olub. Bu, aydın şəkildə görünür. Ona görə də, özəl sektorda orta məktəblər xeyli dərəcədə genişlənsə də, "Dünya" məktəbi öz zirvəsində dayanır.

Tədbirdə "Dünya" məktəbində uzun illər fəaliyyət göstərən əməkdaşlar təşəkkürnamələr və hədiyyələrlə təltif olundular. Sonda çıxış edən "Dünya" Məktəbi MMC-nin direktoru Aygün İsayeva-Gardiner bütünlükdə pedaqoji heyətə və həmkarlara ürək sözlərini dedi, bütün əməkdaşları təbrik etdi.

Yubiley tədbiri geniş konsert proqramı ilə müşayiət olundu. "Dünya" məktəbinin bütün filiallarında təhsil alan şagirdlər və "Dünya" ana məktəbinin balacalardan ibarət rəqs qrupu, "Gaga Band" musiqi qrupu, Xəzər Universitetinin Kamera orkestri müxtəlif musiqi nömrələri ilə çıxış etdilər.



*İsa Həbibbəyli*



*Azay Quliyev*



*Ülkər Qaracalı*



*Niftalı Qasımlı*

the entire teaching staff and congratulated all team members.

The anniversary concluded with an expansive concert program. Students from all "Dunya" branches and young performers from the preschool's dance troupe, along with the Gaga Band and the Khazar University Chamber Orchestra, delighted the audience with a series of musical performances.



*İbrahim Allahverdiyev*



*Aygün İsayeva-Gardiner*



**İsmixan Yusubov**
*Riyaziyyatçı alim, yazıçı - publisist*

## XƏZƏR UNİVERSİTETİNİN SEHİRLİ GÜZGÜSÜ VƏ YA RƏNGLİ POLİQLOT TELEVİZORU

*"Xəzər Xəbər" yurnalının 30 illiyinə*

Mən "Xəzər Xəbər" ("XX") jurnalını "Xəzər Universteti"ndən qabaq tanımışam, hərçənd o yaşca da, həcmcə də daha kiçik idi. Mən "Xəzər Universiteti"ni yalnız 5-10 il qabaq, Hamlet müəllimin "Xəzərin sorağında" kitabını oxuduqdan sonra tanımışam. Amma jurnal ilə 20 il əvvəl artıq tanış idim. Mənim arxivimdə 2004-cü ilə aid bir sıra "XX" öz layiqli yerlərini almışlar. Elə jurnalın ilk saylarında gələcəkdə nəzərdə tutulan çox işlərin anonsu artıq verilirdi.

Misal üçün, Hamlet müəllimin "XX"in 15.09.2004 tarixli sayında, vaxtsız vəfat edən bibisi oğlu və dostu Alı Musayev haqqında yazmış olduğu "Tez sönən şölə" adlı çox təsirli məqaləsi bu istiqamətdə gələcəkdə yazılacaq çoxsaylı poetik yazıların anonsunu vermişdi.

O zaman jurnalın həcmi 40 səhifə olmaqla ayda iki dəfə - ayın başında və ortasında ağ-qara formatda ("Eşşəyə min ata  çatanacan")  nəşr olunurdu və baş redaktorun müavini Knyaz Aslan idi. Sonra isə (və indi də) rəngli və 80 səhifə olmaqla ayda bir dəfə yayımlanmağa başladı.

Məncə "XX"in ən ümdə funksiyası onu doğuranı (Xəzər Universitetini) layiqincə təmsil və təbliğ etməkdir. Universitet məziyyətlərinin təşviqi üçün bundan gözəl bir şey ağıla gəlmir. Və burada vacib olanlar içərisində 1 nömrəli iş bu təbliğ və təşviqin aralıqsız, davamlı olmasıdır. Əlbəttə bu 1 nömrəli işin yanında 2, 3, 4 və s. nömrəli işlər də olmalıdır, bir qarnir, bir sous olaraq. Və burada jurnal redaksiyası üzərinə kifayət qədər ağır bir yük düşür.

Məncə, burada əsas ağırlığı Hamlet müəllim və Əlirza müəllimlə yanaşı, İsaxan müəllim və Əlövsət müəllim də daim daşımış və daşıyırlar. Məlumdur ki, ağırlığı qaldırmaq üçün qüvvə ilə yanaşı müəyyən texniki metodlar da tələb olunur. Məncə bu metodlar bu yoldaşların dördündə də kifayət qədər yüksək səviyyədədir.

Həmçinin, o da məlumdur ki, bu cür uzun sürəcək və gələcəyə hesablanmış işlər sadəcə qaba qüvvət və ya texniki priyomlarla görülməz. Bunun üçün işgörmə qabiliyyətini xarakterizə edən güc lazım gəlir. Burada isə davamlılıq məsələsi ön plana çıxır. Bu işlərdə "kiçik qardaşlarımız" olan qarışqa və arının, təməlində "ağıl, zəhmət, qənaət və cəsarət" olan çalışmalarından nümunə götürməli olduğumuz çox şey vardır və götürülür.

Mənim "Xəzər Xəbər" jurnalı ilə əməkdaşlığım əsasən beynəlxalq müstəvidə cərəyan etmişdir və bu əməkdaşlığın əsasında mənim Almaniya, Latviya, Litva, Ukrayna, Avstriya, Slo-

veniya və Özbəkstandan olan dostlarla yazışmalarım dururdu. Bunlarla yanaşı, bu əməkdaşlığın davam etməsində və mənim jurnal redaksiya heyətinə salınmağımda redaksiya ilə yazışmalarımın da  məxsusi yeri olmuşdur.
**"XX"** ("Xəzər Xəbər") XX əsrə artıq öz damğasını basmışdır. XXI əsrə də damğasını basacaq inşallah "XXI" ("Xəzər Xəbər İnternasional") olaraq.




"Bakı Kitab Klubu"nun təsisçisi olan rəhmətlik Elxan Rzayev deyirdi ki, reklam yaxşı olsa mağazada satılmayan kitab qalmazdı. Amma burada diqqətli olmaq lazımdır. Yoxsa qızını ərə verən zaman, inək satışında başarılı olan dəllalın dediklərini düşünmədən təkrarlayıb, "qaş düzəltdiyi yerdə göz çıxardan" Molla Nəsrəddinin gününə düşərik.
Rəhmətlik Elxanın bir proyekti də vardı ki, türk yazıçılarının kitabları burada türkcə, bizim kitablar da Türkiyədə azərbaycanca yayımlansın. Sadəcə hər iki halda səhifələr xırda lüğətlərlə təmin olunsun.
Hamlet müəllimin "Təzadlar" əsərində bu məsələ öz həllini orijinal bir üsulla tapıb. Bunun

üçün kitabın əvvəlində "ə", "q", "x", "k" hərflərinin türkiyə türkcəsində necə səslənməsi müəyyən açar sözlərlə izah olunmuşdur. "ə"- əcəl, erkən – "e"- ecel, erken. "q"- qərib, qafil, qəzəl – garip, gafil, gazel; qədər, qələm, qəlb – kader, kalem, kalp və bu kimi.
Əslində, məncə "XX" jurnalı həm də bir ingilis dili vəsaiti olaraq istifadə oluna bilər çox rahatlıqla. Bilindiyi üzrə bəzi nəşrlərdən ancaq günəbaxan tumu satmaq üçün, və ya masa ayağını bərabərləşdirib onu dayanıqlı etmək üçün, ya da pəncərənin açıq qalmasını təmin etmək üçün istifadə olunur.
Jurnalın beşiyi başında Hamlet müəllimlə yanaşı rəhmətlik Camal Mustafayev, Knyaz Aslan, İsaxan İsaxanlı, Əlövsət Əmirbəyli və nəhayət əvəzolunmaz Əlirza Balayev daima ayıq-sayıq durmuşlar. Məncə, hazırda "Jurnal işində" əsas ağırlıq Əlirza Balayev və Əlövsət Əmirbəylinin üzərinə düşür, uyğun olaraq istehsal və istehlak sahəsində. Jurnalın ünvanlara zamanında çatdırılması məsələsi daim Əlövsət müəllimin diqqət mərkəzində olmuşdur. Bunu mən şəxsi təcrübəmdən bilirəm və əlavə edim ki, jurnal mənə ünvanıma görə deyil, "Hamlet müəllimin qonşusu" olaraq çatdırılır.
Jurnal əsasən Universitet həyatını işıqlandırsa da, zaman-zaman yeri gələndə Hamlet müəllimin şəxsən işə qarışması ilə günün nəbzini tutacaq səviyyədə silsilə məqalələrə də yer verirdi. Misal üçün, Hamlet müəllim jurnalın 01.11.2004 sayında dərc olunmuş "Siyasi liderlər və ictimai-siyasi ideallar" adlı məqaləsində Rəsulzadə, Ağayev, Topçubaşov, Hüseynzadə və Nərimanov kimi liderləri olan ADR dövrünə kifayət qədər aydınladıcı ayna tuta bilmişdir.
Hər gözəlin bir eybi olar demişlər. Məşədiyə görə onun eybi eyibsizliyi idi. Amma bizim jurnalın sahib olmamasını istədiyim, amma hələlik sahib olduğu bir özəllik var ki, bu da Universitet xəbərlərində qızların oğlanlar üzərində əzici çoxluğa malik olmalarıdır. Məncə, çox olmalarına olsunlar, amma əzici deyil və bu barədə düşünməyə dəyər.
Jurnal öz əsas işini, xəbərlərin isti-isti, "birbaşa tavadan" çatdırmaq işini həmişə layiqincə yerinə yetirib və yetirməyə davam edir. Bu açıdan baxanda ona "aylıq televizor", "pəncərə" və ya "sehrli" güzgü adı verə bilərik. Ümumiləşdirsək, "XX"-ə Universitetin "Sehrli poliqlot televizoru" deyə bilərik. Bəlkə də jurnalda qızların üstünlük təşkil etməsinin bir səbəbi də elə budur. Axı, Puşkindən (və dədə-babadan) üzü bu yana güzgü ilə qızlar daha çox maraqlanırlar.
Güman edirəm ki, əgər biz desək ki, yaranışından bu yana "XX", onu yaradan Hamlet İsayevin Ruporu, "İrşad"ı, "Füyuzat"ı, "İskra"sı, "Herald tribun"u, "Humanite"si olmuş və olmağa davam edir, çox da yanılmarıq.
Buraya onu da əlavə etmək lazımdır ki, Hamlet müəllimin kifayət qədər maraqlı və informasiya ilə dolu olan silsilə yazıları həmişə jurnalın 40-cı səhifəsindən başlanır. Məlumdur ki, bizim gözəl xalq nağıllarımızda zaman-zaman 40-cı qapı məsələsi ortaya atılır və qəhrəmana tövsiyə olunur ki, 40-cı qapını açmasın. Amma mən "XX"i əlimə alanda əvvəl 40-cı səhifəni açıram və əgər aradığımı tapsam, oxumağa oradan başlayıram (tövsiyə etmək istəmirəm, zövqlər barəsində mübahisə etməzlər).
Mən "Xəzərin sorağında" kitabını oxuduqdan sonra qələmə aldığım və "XX"də getmiş məqaləmdə yazmışdım ki, universitetin yaranması zamanı, bıçaq sümüyə dayananda, yəni ortaya "olum ya ölüm" məsələsi çıxanda, "Hamlet institutdan evə qayıtmadı, dəniz sahilinə gedib qarışıq fikir-xəyalını özü dediyi kimi "ipə-sapa düzdü" və Xəzərdən üsyana başlamaq üçün xeyir-dua istədi". Yeri getməmişkən, mən özüm də 1983-cü ilin 28 sentyabrında tezdən sahilə gedib dissertasiya müdafiəm üçün Xəzərdən xeyir-dua almışam. Yəni "Xəzər"lə təmaslar "XX"dən xeyli əvvəl artıq vardı və bu təmaslar uğurlu oldu. Biz də bu uğurların, oxucuların sevimlisi "Xəzər Xəbər" jurnalı üçün davamlı olmasını arzu edirik.



## “XƏZƏR”İN MƏZUNU TƏSİS ETDİ: *ULUSUM.AZ* İNFORMASİYA AGENTLİYİ

Xəzər Universitetinin məzunu Rəxşəndə İkram qızı Daşdəmirova tərəfindən təsis edilən *Ulusum.az* internet xəbər portalı fəaliyyətə başlayıb. *Ulusum.az* İnformasiya Agentliyi müstəqil informasiya siyasəti həyata keçirən media qurumudur. Quruma 12.03.2025-ci ildə Azərbaycan Respublikası Media Reystri şəhadətnaməsi verilmişdir. *Ulusum.az* Azərbaycanda, regionda və dünyada baş verən hadisələr barədə oxucularına operativ məlumatlar verir, reportaj, araşdırma, müsahibə və digər publisistik materiallar təqdim edir.

Yeni yaradılmış platforma milli kimlik, ədəbiyyat, mədəniyyət və ictimai düşüncə sahəsində aktual mövzuları işıqlandırmağı, eyni zamanda gənc yazar və oxucular üçün maarifləndirici məkan yaratmağı qarşısına məqsəd qoyur. Saytın təsisçisi Rəxşəndə Daşdəmirova bildirib ki, *Ulusum.az* ideyası uzunmüddətli müşahidələrin və ictimai ehtiyacların nəticəsi kimi yaranıb: *“Ulusum.az* yalnız bir xəbər portalı deyil, milli dəyərləri qoruyan və inkişaf etdirən bir düşüncə platforması olmağa iddialıdır.”

Müasir dizayn və məzmun yanaşması ilə fərqlənən sayt artıq sosial mediada da aktiv şəkildə fəaliyyət göstərir. Layihənin gələcək hədəfləri arasında müxtəlif müzakirə forumları, yazı müsabiqələri və gənclər üçün interaktiv layihələr yer almaqdadır.

*R. Daşdəmirova 1994-1998-ci illərdə Xəzər Universitetində “İngilis dili və ədəbiyyatı” ixtisası üzrə bakalavr, 1998-2001-ci illərdə “İngilis dili və ədəbiyyatı” ixtisaslaşması üzrə magistr təhsili almışdır.*

*O, peşə həyatına A.Məhərrəmov adına 7 saylı orta məktəbdə ibtidai siniflərdə ingilis dili müəllimi olaraq başlamış, sonralar isə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi və İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunda davam etdirmişdir. Həmçinin, o, "Fortuna" MMC şirkətində direktor müavini vəzifəsində çalışmışdır. R. Daşdəmirova 2024-cü ilin avqust ayından etibarən Global Management Consulting MMC-nin direktoru olaraq əmək fəaliyyətini davam etdirir.*

## "KHAZAR" GRADUATE ESTABLISHES *ULUSUM.AZ* NEWS AGENCY

A graduate of Khazar University, Rakhshanda Ikram gizi Dashdamirova, has launched the internet news portal *Ulusum.az. Ulusum.az* Information Agency is a media organization implementing an independent information policy. The entity received its Azerbaijan Republic Media Registry certificate on March 12, 2025.

*Ulusum.az* provides its readers with operative information about events occurring in Azerbaijan, the region, and the world, presenting reportage, investigations, interviews, and other journalistic materials. The newly created platform aims to illuminate topical issues in national identity, literature, culture, and public thought, while simultaneously creating an enlightening space for young writers and readers. The founder of the site, Rakhshanda Dashdamirova, stated that the *Ulusum.az* concept emerged as a result of long-term observations and public needs: "*Ulusum.az* aspires to be not merely a news portal, but a thought platform that preserves and develops national values."

Distinguished by its modern design and content approach, the website is already actively operating on social media. Future objectives of the project include various discussion forums, writing competitions, and interactive projects for youth.

*Dashdamirova received her bachelor's degree in "English Language and Literature" from Khazar University during 1994-1998, and her master's degree in "English Language and Literature" specialization during 1998-2001. She began her professional life as an elementary school English teacher at A. Maharramov Secondary School No. 7, later continuing at Azerbaijan Academy of Labor and Social Relations, State Radio Frequencies Department of the Ministry of Communications and High Technologies, and the State Fund for Development of Information Technologies. Additionally, she served as deputy director at "Fortuna" LLC. Since August 2024, R. Dashdamirova has been continuing her professional activity as the director of Global Management Consulting LLC.*

## PROF.AKAD. HAMLET İSAXANLI SUMQAYIT "DÜNYA" MƏKTƏBİNİN TƏŞKİL ETDİYİ "DÜNYANIN GƏNCLƏRİ – GƏNCLƏRİN DÜNYASI" ADLI TƏDBİRDƏ



*Hamlet İsaxanlı*



*Aygün İsayeva-Gardiner, Çiçək Qaracayeva*

## PROF. ACAD. HAMLET ISAKHANLI AT THE EVENT "YOUTH OF THE WORLD – THE WORLD OF YOUTH" ORGANISED BY SUMGAYIT "DUNYA" SCHOOL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı aprelin 5-də Xəzər Universiteti Sumqayıt "Dünya" məktəbinin Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində təşkil etdiyi "Dünyanın Gəncləri – Gənclərin Dünyası" adlı tədbirin "Süni İntellekt və gənclər: sonsuz imkanlar" mövzulu paneldə məruzəçi kimi çıxış etmişdir.

Prof. Academic Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke on April 5, as a presenter at the panel "Artificial Intelligence and Youth: Endless Possibilities" during the event "World Youth - Youth World" organized by Khazar University's Sumgayit "Dünya" School at the Sumgayit City Heydar Aliyev Center.



*Vüqar Cavadov*



*Günay Kazımzadə*



*Misir Mərdanov*

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi Ali təhsil müəssisələri ilə iş sektorunun müdiri, SABAH qrupları İcra Komitəsinin rəhbəri Dos. Elza Səmədovanın moderatorluğu ilə keçən paneldə Çankaya Universiteti (Türkiyə) rektorunun müşaviri, Prof. Buket Akkoyunlu, AMEA-nın müxbir üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, Prof. Misir Mərdanov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Dr. Ceyhun Məmmədov, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov,



*Teymur Səmədov*

"Dünya" məktəbinin və Boston Universitetinin məzunu, "Neurotime" şirkətinin rəhbəri, "Novix Capital" və "BH Media" şirkətlərində Müşahidə Şurasının

*(Ardı səh.14-də)*



*Ceyhun Məmmədov*

The panel, moderated by Associate Professor Elza Samadova, Head of the Higher Education Institutions Sector at the State Agency for Science and Higher Education and Head of the SABAH Groups Executive Committee, featured several distinguished speakers including Prof. Buket Akkoyunlu, Advisor to the Rector of Çankaya University (Türkiye); Prof. Misir Mardanov, Corresponding Member of ANAS,



*Elza Səmədova*

Director of the Institute of Mathematics and Mechanics of ANAS, Doctor of Physical and Mathematical Sciences; Dr. Jeyhun Mammadov, Teymur Samadov, Deputy Head of Sumgayit City Executive Power, Deputy of the National Assembly of the Republic

*(To be continued page 14)*




*Buket Akkoyunlu*

of Azerbaijan; Vugar Javadov, graduate of "Dünya" School and Boston University, Head of "Neurotime", Chairman of the Supervisory Board at "Novix Capital" and "BH Media"; Gunay Kazimzade, "Young Researcher of the Year" in artificial intelligence in Germany, Chief AI Consultant at "Mercedes-Benz Consulting", and the first Azerbaijani winner of Google's grant for women.

Following the presentations, participants answered questions and toured an exhibition organized by students.

Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management at Khazar University, and other university staff also attended the event.

The event was attended by Aygun Isayeva-Gardiner, director of "Dunya" schools LLC, Chichek Karacayeva, director of Sumgayit "Dunya" school, and staff.

sədri Vüqar Cavadov, Almaniyada süni zəka üzrə "İlin gənc tədqiqatçısı", "Mersedes-Benz Consulting" şirkətinin süni intellekt üzrə baş məsləhətçisi, "Google" şirkətinin xanımlar üçün təsis etdiyi qrantın ilk azərbaycanlı qalibi Günay Kazımzadə çıxış ediblər.

Çıxışlardan sonra suallar cavablandırılıb, panel iştirakçıları şagirdlərin təşkil etdiyi sərgi ilə tanış olublar.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva və universitetin digər əməkdaşları da tədbirdə iştirak ediblər.

Tədbirdə "Dünya" məktəbləri MMC-nin direktoru Aygün İsayeva-Gardiner, Sumqayıt "Dünya" məktəbinin direktoru Çiçək Qaracayeva və əməkdaşları iştirak ediblər.






## SUMQAYIT “DÜNYA” MƏKTƏBİNDƏN PROF. AKAD. HAMLET İSAXANLIYA TƏŞƏKKÜR MƏKTUBU

**Hörmətli Hamlet müəllim!**

“Gənclərin Dünyası – Dünyanın Gəncləri” adlı tədbirimizi çox maraqlı və fəlsəfi çıxışınızla yekunlaşdıraraq iştirakçılara həm ilham verdiniz, həm də dəyərli fikirlərinizlə gənclərin gələcəyinə dair daha geniş perspektivlər təqdim etdiniz. Sizin dərin təcrübəniz və strateji yanaşmanız həm iştirakçılara, həm də tədbirə qatılan hər kəsə mühüm təcrübə və yeni düşüncə əlavə etdi.

Tədbirimizdə iştirakınız bizim üçün böyük şərəfdir. Dəyərli çıxışınızla tədbirin yekununa xüsusi bir zənginlik qatdığınız üçün Sizə bir daha təşəkkür edirik.

**Dərin təşəkkürlərimizlə,**
*Xəzər Universiteti Sumqayıt “Dünya” Məktəbi*

## LETTER OF THANKS FROM SUMGAYIT "DUNYA" SCHOOL TO PROF. ACAD. HAMLET ISAKHANLI

**Dear Hamlet Isakhanli!**

By concluding our "Youth World - World Youth" event with your fascinating and philosophical speech, you both inspired the participants and presented broader perspectives on the future of young people through your valuable insights. Your profound experience and strategic approach added significant expertise and fresh thinking for all participants and attendees.

Your participation in our event is a great honor for us. We thank you once again for adding special richness to the conclusion of the event with your valuable speech.

**With deepest gratitude,**
*Khazar University Sumgayit "Dunya" School*



*Ayaz Hüseynov*

# "XƏZƏR"İN MƏZUNU BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ BAŞÇISININ MÜAVİNİ VƏZİFƏSİNƏ TƏYİN EDİLMİŞDİR

# KHAZAR UNIVERSITY ALUMNUS APPOINTED DEPUTY HEAD OF BAKU CITY EXECUTIVE POWER

2000-2005-ci illərdə Xəzər Universitetində "Neft mühəndisliyi" ixtisası üzrə bakalavriat pilləsini bitirmiş Hüseynov Ayaz Məhəmməd oğlu Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə təyin edilmişdir. O, 2007-2010-cu illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "İstehsalın və əməliyyatların menecmenti" ixtisası üzrə magistr təhsili almışdır.

Əmək fəaliyyətinə 2004-cü ildə "Dəmir-beton məmulatları" zavodunda usta kimi başlamışdır. Sonra mühəndis və texniki plan istehsalat şöbəsinin rəis müavini vəzifələrində çalışmışdır.

2005-2006-cı illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra 2006-2007-ci illərdə "Xəzərdənizneftqaztikinti" trestinin istehsalat planı şöbəsinin, ardınca texniki istehsalat şöbəsinin rəis müavini vəzifələrində əmək fəaliyyətini davam etdirmişdir. 2007-2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Sərmayələr İdarəsində əvvəlcə mütəxəssis, daha sonra mühəndis vəzifələrində çalışmışdır. 2010-cu ildən 2018-ci ilədək ARDNŞ-nin baş ofisində müxtəlif vəzifələrdə işləmişdir. 2018-ci ildən Bakı Şəhər İcra Hakimiyyəti aparatında Şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Bəzi saytlar bu barədə xəbər yayımlamışlar.

Ayaz Mahammad oglu Huseynov, a graduate of Khazar University with a bachelor's degree in Petroleum Engineering (2000–2005), has been appointed Deputy Head of Baku City Executive Power. He pursued his master's studies in "Production and Operations Management" at the Azerbaijan State University of Oil and Industry from 2007 to 2010. Mr. Huseynov began his professional career in 2004 as a foreman at the Reinforced Concrete Products Plant. He later served as an engineer and deputy head of the technical planning and production department.

From 2005 to 2006, he fulfilled his mandatory military service. After completing his service, he continued his career in 2006–2007 as deputy head of the production planning and later the technical production departments at the "Xəzərdənizneftqaztikinti" Trust. In 2007–2008, he worked at the Investment Department of the State Oil Company of the Republic of Azerbaijan (SOCAR), first as a specialist and then as an engineer. From 2010 to 2018, he held various positions at SOCAR's head office. Since 2018, he has served as the head of the Department of Municipal Economy at the Baku City Executive Power.

Several news outlets have reported on this recent appointment.

*https://baku-ih.gov.az/az/ih-bascisinin-muavinleri.html*

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ADOBE WORLD CHAMPIONSHIP MÜSABİQƏSİNİN YARIMFİNALINDA

## KHAZAR UNIVERSITY STUDENTS IN THE SEMIFINALS OF THE ADOBE WORLD CHAMPIONSHIP




*Heydər Xudaverdiyev*

Dünyaca məşhur Adobe World Championship müsabiqəsi ilk dəfə olaraq 2025-ci il aprelin 12-də Azərbaycanda keçirilmişdir. Qalibləri ABŞ-da keçiriləcək beynəlxalq final mərhələsində iştirak imkanı gözləyir. Bu möhtəşəm təşəbbüs Adobe və Certiport-un Azərbaycandakı yeganə rəsmi təmsilçisi olan Bakı Dizayn Akademiyası (BDA) tərəfindən həyata keçirilmişdir. Layihə Mədəniyyət Nazirliyi və Yaradıcı Sənayelər Mərkəzinin dəstəyi ilə gerçəkləşmişdir.

450 nəfərin iştirak etdiyi müsabiqənin birinci turundan 50 iştirakçı seçilmiş, ikinci turda isə Hackathon mərhələsinə vəsiqə qazanan 25 yarımfinalçı müəyyən edilmişdir. Bu yarımfinalçılar arasında Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin Dizayn ixtisası üzrə təhsil alan III kurs tələbələri Aydan Səfərova və Heydər Xudaverdiyev də yer almışdır.

Yarışma gənclərin yaradıcılıq qabiliyyətini və peşəkar bacarıqlarını inkişaf etdirmək, eyni zamanda ölkənin yaradıcı sənayelər sahəsindəki potensialını tanıtmaq məqsədi ilə təşkil olunmuşdur.

The globally renowned Adobe World Championship was held in Azerbaijan for the first time on April 12, 2025. The winners of the competition will earn the opportunity to participate in the international final round to be held in the United States. This remarkable initiative was implemented by Baku Design Academy (BDA), the sole official representative of Adobe and Certiport in Azerbaijan, with the support of the Ministry of Culture and the Creative Industries Center.

Out of 450 participants in the first round, 50 were selected, and in the second round, 25 semifinalists earned the right to advance to the Hackathon stage. Among these semifinalists are third-year students of the Design program at the Department of Architecture and Design of Khazar University — Aydan Safarova and Heydar Khudaverdiyev.

The competition was organized to foster young people's creative talents and professional skills, as well as to showcase the country's potential in the field of creative industries.




*Rəna Əsgərova*

## "XƏZƏR"İN KOMANDASI 3-CÜ YERƏ LAYİQ GÖRÜLÜB

Aprelin 17-də Azərbaycan Texnologiya Universitetində (Gəncə) Azərbaycan Respublikasının Gənclər Fondu və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə "GreenTech II" Startap və Yaşıl Texnologiyalar Müsabiqəsinin final mərhələsi keçirilib.

Müsabiqədə respublikanın 30 ali təhsil müəssisəsindən ümumilikdə 80 komanda iştirak edib. Komandalar "Rəqəmsal ekologiya", "Robototexnika", "Yaşıl nəqliyyat texnologiyaları" və "Davamlı inkişaf üçün sosial innovasiyalar" olmaqla 4 əsas kateqoriya üzrə I, II, III və həvəsləndirici yerlər uğrunda mübarizə aparıblar. Xəzər Universitetinin Kimya mühəndisliyi ixtisasında təhsil alan 3-cü kurs tələbələri Cavidan Şükürov, Nihat Məmmədli və Rəna Əsgərova müsabiqədə uğurla iştirak edərək, "Rəqəmsal ekologiya" kateqoriyası üzrə 3-cü yerə layiq görülüblər.

Tələbələrin təqdim etdiyi layihə rəqəmsal texnologiyaların ekoloji tarazlığa uyğun istifadəsi və ətraf mühitin qorunması baxımından innovativ yanaşması ilə fərqlənmişdir. Müsabiqə zamanı komanda öz ideyasını sərgi formatında iştirakçılara və münsiflər heyətinə təqdim etmişdir.

Qalib komandalar sertifikat və hədiyyələrlə təltif olunublar.

## KHAZAR UNIVERSITY TEAM WINS THIRD PLACE

On April 17, the final stage of the "GreenTech II" Startup and Green Technologies Competition was held at Azerbaijan Technological University in Ganja, supported by the Youth Foundation of the Republic of Azerbaijan and the Innovation and Digital Development Agency.

The competition brought together 80 teams from 30 higher education institutions across the country. Teams competed in four key categories: Digital Ecology, Robotics, Green Transport Technologies, and Social Innovations for Sustainable Development, striving for first, second, third, and encouragement awards.

Khazar University's third-year Chemical Engineering students — Javidan Shukurov, Nihat Mammadli, and Rana Asgarova — distinguished themselves by winning third place in the Digital Ecology category.

Their project stood out for its innovative approach to utilizing digital technologies in harmony with ecological balance and environmental protection. During the competition, the team showcased their concept in an exhibition format, presenting it to participants and the panel of judges.

Winning teams were awarded certificates and prizes in recognition of their achievements.

# PROF.AKAD. HAMLET İSAXANLI AKADEMİK FƏRƏMƏZ MAQSUDOVUN 95 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

# PROF. ACAD. HAMLET ISAKHANLI AT THE EVENT DEDICATED TO THE 95TH ANNIVERSARY OF ACADEMIC FARAMEZ MAGSUDOV



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı 2025-ci il aprelin 30-da Əməkdar Elm Xadimi, akademik Fərəməz Qəzənfər oğlu Maqsudovun 95 illiyinə həsr olunmuş tədbirdə çıxış etmiş, akademiklə bağlı xatirələrini bölüşmüşdür.

On April 30, Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, delivered a speech at the event dedicated to the 95th anniversary of the Honored Scientist, academician Faramez Gazanfar oglu Magsudov. In his address, he shared his memories of the academician.



*Hamlet İsaxanlı*



*İsa Həbibbəyli*



*Misir Mərdanov*

Tədbirdə AMEA-nın prezidenti Akad. İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, Prof. Misir Mərdanov və başqaları çıxış etmişlər.

The event also featured speeches by the President of ANAS, Acad. Isa Habibbayli, Corresponding Member of ANAS Prof. Misir Mardanov, and others.

## ADA UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ XƏZƏR UNİVERSİTETİNİN TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ

## ADA UNIVERSITY STUDENTS AT THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY OF KHAZAR UNIVERSITY

Aprelin 2-də ADA Universitetinin bir qrup tələbəsi Xəzər Universitetinin Tarix və arxeologiya departamentində departament müdiri Dos. Telman Nüsrətoğlu ilə görüşərək, öz layihə işlərini təqdim ediblər.

On April 2, a group of students from ADA University visited the Department of History and Archaeology at Khazar University, where they presented their project work to the Head of the Department, Assoc. Prof. Telman Nusratoghlu.



*Telman Nüsrətoğlu*

Tələbələrin layihələri "XIX-XX əsrin əvvəllərində Rusiya imperiyası tərkibində Azərbaycan cəmiyyətinin təkamülü və Azərbaycan milli ideyasının yüksəlişi" mövzusu ətrafında olub. Dos. Telman Nüsrətoğlu tələbələri maraqlandıran sualları ətraflı şəkildə cavablandıraraq, mövzuya dair seminar keçib. Seminar zamanı tələbələrə mövzu haqqında daha geniş məlumatlar verilərək, müxtəlif aspektləri müzakirə edilib.

Tədbir tələbələrin akademik inkişafına töhfə verərək, onların mövzu haqqında biliklərini genişləndirmək üçün əhəmiyyətli imkan yaradıb.

The students' projects focused on the topic "The Evolution of Azerbaijani Society within the Russian Empire in the 19th and Early 20th Centuries and the Rise of the Azerbaijani National Idea." Assoc. Prof. Telman Nusratoghlu addressed the students' questions in detail and delivered a seminar on the subject. During the seminar, the students were provided with in-depth information and engaged in discussions exploring various aspects of the topic.

The event contributed to the students' academic development and created a valuable opportunity for them to deepen their understanding of the subject matter.

## *TƏHSİL ELMLƏRİ ÜZRƏ ARAŞDIRMA MƏRKƏZİNİN ƏMƏKDAŞLAR ÜÇÜN EKSKLÜZİV TƏLİMİ*





*Buket Akkoyunlu*

## *EXCLUSIVE TRAINING FOR UNIVERSITY STAFF BY CENTER FOR EDUCATIONAL RESEARCH*

Aprelin 2-də Xəzər Universitetinin Təhsil Elmləri üzrə Araşdırma Mərkəzi universitet əməkdaşları üçün eksklüziv təlim keçirib. Təlimə Mərkəzin direktoru, Çankaya Universiteti (Türkiyə) rektorunun müşaviri Prof. Buket Akkoyunlu rəhbərlik edib.

Prof. Akkoyunlu çıxışında Mərkəzin universitetdə təhsil sahəsində dəyişikliyi təşviq etmək, innovasiyaları dəstəkləmək və araşdırma təşəbbüslərini inkişaf etdirməkdə oynadığı mühüm rolu vurğulayıb.

Tədbir iştirakçılara Mərkəzin missiyası və vizyonu haqqında dəyərli məlumatlar təqdim edib və universitet əməkdaşlarını təhsil sahəsindəki davamlı inkişaf səylərinə qoşulmağa çağırıb. İştirakçılar fəal şəkildə müzakirələrə qatılıb və universitetin məqsədlərinə necə töhfə verə biləcəkləri barədə dialoqu genişləndiriblər.

Təlim iştirakçılar tərəfindən maraqla qarşılanıb və Xəzər Universitetində təhsil innovasiyalarının təşviqində əməkdaşlığın vacibliyini bir daha önə çıxarıb.

On April 2, the Center for Educational Research at Khazar University conducted an exclusive training session for university staff. The session was led by Prof. Buket Akkoyunlu, Director of the Center and Advisor to the Rector of Çankaya University (Türkiye).

In her address, Prof. Akkoyunlu emphasized the Center's significant role in promoting change within the university's education system, supporting innovation, and advancing research initiatives.

The event provided participants with valuable insights into the mission and vision of the Center and called on university staff to take an active part in ongoing efforts for development in the field of education. Attendees actively engaged in discussions, broadening the dialogue on how they could contribute to the university's strategic goals.

The training was met with great interest and once again underscored the importance of collaboration in fostering educational innovation at Khazar University.



İlahə Həsənova

# TƏLƏBƏLƏR ARASINDA SOSİOLOJİ SORĞU

# SOCIOLOGICAL SURVEY AMONG STUDENTS

Aprelin 7-8-də Elm və Təhsil Nazirliyinin sifarişi ilə Sosioloji Tədqiqatlar Mərkəzi tərəfindən Xəzər Universitetində bakalavr və magistratura tələbələri arasında sosioloji sorğu keçirilib. Sorğunun əsas məqsədi ali təhsil alan gənclərin mövcud vəziyyətini təhlil etmək, onların təhsil keyfiyyəti, sosial şəraiti, karyera gözləntiləri və psixoloji durumu haqqında məlumat toplamaq olub.



Pərvanə Əhmədova

Sorğu mütəxəssis İlahə Həsənova, müsahibəçilər Ülviyyə Emralıyeva və Bahar Fətəliyeva tərəfindən aparılıb. Ümumilikdə 96 bakalavr və 8 magistr tələbə olmaqla, cəmi 104 tələbə sorğuda iştirak edib.

Qeyd edək ki, bu sorğu genişmiqyaslı EUROSTUDENT layihəsi çərçivəsində həyata keçirilən fəaliyyətlərdən biridir və Azərbaycanın ali təhsil sistemində tələbələrin vəziyyətinə dair mühüm göstəricilərin toplanmasına xidmət edir. Toplanan nəticələr gələcəkdə həm milli təhsil siyasətinə töhfə verəcək, həm də Avropa ölkələri ilə müqayisəli təhlil imkanı yaradacaq.

On April 7–8, a sociological survey was conducted at Khazar University among undergraduate and graduate students by the Center for Sociological Research, commissioned by the Ministry of Science and Education. The primary goal of the survey was to analyze the current situation of young people in higher education and to collect data on the quality of their education, social conditions, career expectations, and psychological well-being.

The survey was carried out by expert Ilaha Hasanova, with interviewers Ulviyya Emraliyeva and Bahar Fataliyeva. In total, 104 students took part in the survey, including 96 undergraduate and 8 graduate students. It is worth noting that this survey is part of the large-scale EUROSTUDENT project and serves as a key effort in collecting significant indicators on the status of students within Azerbaijan's higher education system. The data gathered will not only contribute to shaping national education policy but will also provide a basis for comparative analysis with European countries.



Bahar Fətəliyeva

## XARİCDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Aprelin 8-də Xəzər Universitetində Həyat elmləri departamentinin təşkilatçılığı ilə "Xroniki xəstəliklərdə və əməliyyatdan sonrakı dövrdə xəstələrin skelet əzələ hüceyrələrində iltihab reaksiyasının təşviq edilməsi və əzələ itkisinin baş vermə mexanizmi" mövzusunda seminar keçirilmişdir.

Seminarda "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Imperial College London-da molekulyar tibb ixtisası üzrə tədqiqat aparan Nərmin Axundova çıxış edərək, bu sahədə apardığı araşdırmaların nəticələrini iştirakçılarla bölüşmüşdür.

Seminarda Xəzər Universitetinin Həyat elmləri departamentinin professor-müəllim heyəti və tələbələri iştirak etmişdir. İştirakçılar əzələ itkisində mikroRNA-ların rolu, əzələ itkisi ilə bağlı yaranan klinik problemlər və bu istiqamətdə aparılan yeni elmi araşdırmalar barədə suallar verərək, mövzu ətrafında maraqlı və elmi müzakirələr aparıblar.

## SEMINAR BY DOCTORAL STUDENT STUDYING ABROAD

On April 8, a seminar titled "Promotion of Inflammatory Reaction in Skeletal Muscle Cells and Mechanism of Muscle Loss in Chronic Diseases and Post-Operative Period" was held at Khazar University, organized by the Department of Life Sciences.

At the seminar, Narmin Akhundova, who is conducting research in molecular medicine at Imperial College London under a tripartite agreement between the Ministry of Science and Education of the Republic of Azerbaijan, Khazar University, and within the framework of the "Doctoral Education Abroad Program for Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023," presented and shared the results of her research in this field with the participants.

The seminar was attended by the faculty and students of the Department of Life Sciences at Khazar University. Participants posed questions regarding the role of microRNAs in muscle loss, clinical problems associated with muscle loss, and new scientific research in this direction, conducting interesting and scholarly discussions on the topic.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM OLUNUB

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2 fevral 2025-ci il tarixli qərarı ilə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Səyyarə Ələkbər qızı Quliyevanın 5708.01-German dilləri ixtisası üzrə "İngilis dili mətnlərinin strukturunun situativ-kommunativ aspektləri" mövzusunda müdafiə etdiyi dissertasiya işi filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb və ona fəlsəfə doktoru diplomu təqdim edilib.

## PHD DIPLOMA PRESENTED TO LECTURER OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

By the decision of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan dated February 2, 2025, Sayyara Alakbar qizi Guliyeva, a lecturer of the Department of English Language and Literature at Khazar University, was awarded the academic degree of Doctor of Philosophy in Philology for her dissertation titled "Situational-Communicative Aspects of the Structure of English Texts" in the specialty of 5708.01 – Germanic Languages. She has been presented with the PhD diploma.



*Səyyarə Quliyeva*

# MİLLİ AEROKOSMİK AGENTLİYİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ



*Elsevər İbadov*

Aprelin 9-da Xəzər Universitetində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin maliyyə hesabatlığı və mühasibat şöbəsinin rəisi Dos. Elsevər İbadov və nazirliyin Elmi Tədqiqat İnstitunun müşaviri, texnika elmləri üzrə fəlsəfə doktoru Qamət Kərimovla görüş keçirildi.

Universitetin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə keçən görüşün əsas məqsədi müdafiə texnologiyaları sahəsində innovativ təşəbbüslərin universitet mühiti ilə inteqrasiyasına çalışmaq və bu işə tələbələri cəlb etmək idi.

Qeyd olundu ki, müdafiə sənayesində innovasiyaların təşviqi və texnologiya yönümlü layihələrin inkişafı məqsədilə nazirliyin dəstəyi və Azərsilah Holdinqin təşəbbüsü ilə "Def-Age" platforması yaradılır. Bu təşəbbüs müdafiə texnologiyaları sahəsində güclü ekosistemin formalaşdırılması, innovativ ideyaların dəstəklənməsi və gələcək nəsil mütəxəssislərin hazırlanmasına yönəlib.

Qamət Kərimov "Def-Age" platformasının təqdimatı zamanı ilk fəaliyyət mərhələsi olaraq planlaşdırılan və 4 ay davam edəcək "Boot Camp" proqramı haqqında ətraflı məlumat verdi. Bu proqram çərçivəsində iştirakçılara müdafiə sahəsindəki innovativ texnologiyalar, layihə rəhbərliyi, tətbiqi mühəndislik və startap yanaşmaları üzrə intensiv təlimlər keçiriləcək.

Bununla yanaşı, universitet tələbələri üçün daha bir infosessiya təşkil olunması razılaşdırıldı. Bu

# MEETING WITH NATIONAL AEROSPACE AGENCY EMPLOYEES

On April 9, a meeting was held at Khazar University with Associate Professor Elsevər Ibadov, Head of the Financial Reporting and Accounting Department of the National Aerospace Agency of the Ministry of Defense Industry of the Republic of Azerbaijan, and Dr. Qamet Karimov, Advisor of the Scientific Research Institute of the Ministry and PhD in Technical Sciences.

The main goal of the meeting, which was attended by the university's management and staff, was to work towards integrating innovative initiatives in the field of defense technologies into the university environment and to involve students in this process.

It was noted that with the support of the Ministry and the initiative of Azersilah Holding, the "Def-Age" platform is being created to promote innovation in the defense industry and develop technology-oriented projects. This initiative is aimed at forming a strong ecosystem in the field of defense technologies, supporting innovative ideas, and preparing future specialists.



*Qamət Kərimov*

During the presentation of the "Def-Age" platform, Qamet Karimov provided detailed information about the "Boot Camp" program, planned as the first activity stage, which will last for 4 months. Within the framework of this program, participants will receive intensive training in innovative technologies in the defense field, project management, applied engineering, and startup approaches.

sessiya vasitəsilə tələbələr "Boot Camp" haqqında ətraflı məlumat əldə edəcək və iştirak imkanları ilə tanış olacaqlar.

Görüşdə səsləndirilən digər önəmli təşəbbüslərdən biri də "Müdafiə Texnologiyaları Klubu"nun yaradılması ideyası olub. "Boot Camp" proqramında fərqlənən iştirakçıların əldə etdikləri bilik və bacarıqları layihələrində tətbiq etmələri, həmçinin bu təcrübəni digər tələbələrlə bölüşmələri məqsədilə universitetlərdə aktiv fəaliyyət göstərən klubların qurulması nəzərdə tutulur.

"Def-Age" platforması çərçivəsində təşkil olunacaq seminarlar, təlimlər, yarışlar, inkubasiya və akselerasiya proqramları, bootcamplar və demoday tədbirləri ilə Azərbaycanda müdafiə texnologiyaları sahəsində innovasiyaların sürətlənməsinə mühüm töhfə verilməsi gözlənilir.

In addition, it was agreed to organize one more info session for university students. Through this session, students will receive detailed information about the "Boot Camp" and get acquainted with participation opportunities.

One of the other important initiatives mentioned during the meeting was the idea of establishing a "Defense Technologies Club." The goal is to create active university clubs where participants who stand out in the "Boot Camp" program can apply the knowledge and skills they have gained to their projects and share this experience with other students.

It is expected that the seminars, trainings, competitions, incubation and acceleration programs, boot camps, and demo day events organized within the framework of the "Def-Age" platform will make a significant contribution to accelerating innovation in the field of defense technologies in Azerbaijan.

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNİN DOKTORANTININ DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ

Aprelin 10-da Xəzər Universitetinin Fizika və elektronika departamentinin doktorantı Babək Emdadi`nin "Kvant nöqtəli nanohissəciklərin sintezi, xarakteristikası və onların fotonik cihazlarda tətbiqi" mövzusunda "Nanotexnologiya və nanomateriallar" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin ilkin müzakirəsi keçirildi.

Müzakirədə doktorantın elmi rəhbəri Əhməd Asimov, dissertasiya işinin ilkin müzakirəsi üçün ixtisasa uyğun rəyçilər, Elm və Təhsil nazirliyinin Fizika İnstitutunun əməkdaşları, departamentin professor-müəllim heyəti, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova iştirak edirdilər.

İclasın sədri, Fizika və elektronika departamentinin müdiri Dos. Fəridə Tatardar iclası açandan sonra iclasın katibi Sevinc Quluzadə iddiaçı haqqında ümumi məlumat verdi. Ardınca doktorant Babək Emdadi dissertasiya işinin qısa məzmununu müzakirə iştirakçılarının diqqətinə çatdırdı.

Müzakirə sual-cavab sessiyası və çıxışlarla davam etdi. Sonda Babək Emdadi`nin dissertasiya işinin növbəti mərhələyə buraxılması barədə qərar qəbul olundu.

## PRELIMINARY DISCUSSION OF DISSERTATION BY DOCTORAL STUDENT OF DEPARTMENT OF PHYSICS AND ELECTRONICS

On April 10, a preliminary discussion was held at Khazar University regarding the PhD dissertation submitted by Babak Emdadi, a doctoral student of the Department of Physics and Electronics, on the topic "Synthesis and Characterization of Quantum Dot Nanoparticles and Their Application in Photonic Devices" for the academic degree of Doctor of Philosophy in the specialty of "Nanotechnology and Nanomaterials."

The discussion was attended by the doctoral student's academic supervisor Ahmad Asimov, revieewers specializing in the relevant field, staff members from the Institute of Physics of the Ministry of Science and Education, faculty members of the department, Dean of the School of Natural Sciences, Arts and Technology Gunel Bahaeddinova, and Dean of the School of Science and Engineering Fakhranda Alimardanova. The meeting was opened by the chair of the session, Associate Professor Farida Tatardar, Head of the Department of Physics and Electronics. Afterwards, the secretary of the session, Sevinc Guluzade, provided general information about the candidate. Then, doctoral student Babak Emdadi presented a brief summary of his dissertation to the participants. The discussion continued with a Q&A session and individual speeches. At the end, a decision was made to advance Babak Emdadi's dissertation to the next stage.

## İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRİ "XƏZƏR"DƏ

## AMBASSADOR OF THE SWISS CONFEDERATION VISITS KHAZAR UNIVERSITY

Aprelin 10-da İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Thomas Stähli və Konfederasiyanın Milli proqram üzrə məsul şəxsi Zahir Əhmədov Xəzər Universitetində oldular.

Görüş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor Prof. İsaxan İsaxanlı, departament müdirləri və Beynəlxalq əlaqələr şöbəsi əməkdaşlarının iştirakı ilə keçib.

Görüşdə tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi müzakirə olunmuş, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılmışdır. Bundan əlavə, Xəzər Universitetinin İsveçrə universitetləri ilə akademik mübadilə, birgə araşdırma və qarşılıqlı maraq doğuran mövzularda seminarlar sahəsindəki əməkdaşlıq imkanları da nəzərdən keçirilmişdir.

Görüşün sonunda hədiyyələr təqdim edilib və xatirə şəkilləri çəkilib.

On April 10, the Ambassador of the Swiss Confederation to Azerbaijan, Thomas Stähli, and the National Program Officer of the Confederation, Zahir Ahmadov, visited Khazar University.

The meeting was attended by the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, Acting Rector Prof. Mahammad Nuriyev, Vice-Rector for Administration and Student Affairs Prof. Isakhan Isakhanli, department heads, and representatives of the International Affairs Office.

During the meeting, the parties discussed strengthening partnerships and cooperation, exchanging views on future steps. Additionally, collaboration opportunities between Khazar University and Swiss universities in the fields of academic exchange, joint research, and seminars on topics of mutual interest were reviewed. At the end of the meeting, gifts were presented, and commemorative photos were taken.

## İSVEÇRƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ TƏLƏBƏLƏRLƏ SEMİNAR KEÇİRDİ

Aprelin 10-da İsveçrənin Azərbaycandakı səfiri Thomas Stähli Xəzər Universitetində keçirdiyi seminarda tələbələrə İsveçrənin uğur faktorları haqqında danışdı, İsveçrənin siyasəti, iqtisadiyyatı və tarixi ilə bağlı müzakirələr apardı. Səfir İsveçrənin inkişafına təsir edən əsas amilləri, ölkəsinin beynəlxalq əla-

## SWISS AMBASSADOR HOLDS SEMINAR WITH STUDENTS AT KHAZAR UNIVERSITY

On April 10, the Ambassador of Switzerland to Azerbaijan, Thomas Stähli, held a seminar at Khazar University, where he spoke to students about the success factors of Switzerland and engaged in discussions on the country's politics, economy, and history. The ambassador explained the key factors contributing



Thomas Stähli



qələrdəki rolunu və strateji yönlərini izah edərək, tələbələrin suallarını cavablandırdı.

Seminar tələbələrin İsveçrənin müxtəlif sahələrdəki təcrübələrini daha yaxından öyrənməsi üçün əhəmiyyətli oldu, müxtəlif mövzulara dair aparılan müzakirələr onların dünyagörüşünü genişləndirdi.

to Switzerland's development, its role in international relations, and its strategic directions, while answering questions from the students.

The seminar was significant in helping students gain deeper insights into Switzerland's experiences across various fields, and the discussions on different topics broadened their worldview.



Zahir Əhmədov



Hamlet İsaxanlı



## MEMARLIQ VƏ DİZAYN DEPARTAMENTİNİN TƏŞKİL ETDİYİ "DƏSTƏK DİZAYNI" İNKLÜZİV MEBEL KONSEPTİ

Məhsul dizaynı dərsi çərçivəsində tələbələrə verilən tapşırıq fiziki məhdudiyyətləri olan şəxslər üçün mebel dizaynının yaradılması idi. Bu tapşırıq əsasında hazırlanmış layihənin "Dəstək Dizaynı" adı ilə ilk təqdimatı aprelin10-da keçirildi.

Memarlıq və dizayn departamentinin müəllimləri Şəhla Abbasova, Leyla Hüseynova və Günay Məmmədova tədbirdə iştirak ediblər. Eyni zamanda, təqdimatın daha müfəssəl və səmərəli olması məqsədilə əməkdaşlıq edilən şirkətlərin rəhbərləri - Marketinq və İctimaiyyətlə Əlaqələr (PR) Departamentinin rəhbəri Tural Məmmədzadə (AZMOB-un rəhbəri), Türkeş Dekor şirkətinin rəhbəri Xəqani Hümbətov, Greenwood şirkətinin rəhbəri Fuad Nəcəfov və Azefurniture şirkətinin rəhbəri Şəhriyar Məmmədli də iştirak etdilər.

Bu layihə fiziki məhdudiyyətləri olan şəxslər üçün həm estetik, həm də funksional mebellərin yaradılmasını hədəfləyir və eyni zamanda, iştirak edən şirkət rəhbərlərinin təcrübə və fikir mübadiləsi aparmalarına imkan yaradır. Layihənin qalib dizaynı əsasında son mərhələdə həmin mebel istehsal edilərək, fiziki məhdudiyyətli bir şəxsə hədiyyə veriləcək. Bu, layihənin sosial məsuliyyətini və məqsədini gücləndirən vacib bir addımdır. Layihənin maliyyə tərəfdaşları isə Türkeş Dekor, Greenwood və Azefurniture şirkətləri olmuşdur. Onların dəstəyi ilə bu təşəbbüs daha da genişlənərək, fiziki məhdudiyyətli şəxslərin həyatına müsbət təsir göstərəcək.

## "SUPPORTIVE DESIGN" INCLUSIVE FURNITURE CONCEPT BY THE DEPARTMENT OF ARCHITECTURE AND DESIGN



*Tural Məmmədzadə, Leyla Hüseynova, Günay Məmmədova*

As part of the Product Design course, students were tasked with creating furniture designs for individuals with physical disabilities. Based on this assignment, the first presentation of the project, titled "Supportive Design," was held on April 10.

Faculty members of the Department of Architecture and Design-Shahla Abbasova, Leyla Huseynova, and Gunay Mammadova-participated in the event. To ensure a more comprehensive and effective presentation, the event also welcomed heads of collaborating companies: Tural Mammadzada, Head of the Marketing and Public Relations (PR) Department (Head of AZMOB), Khagani Humbatov, Head of Turkes Decor, Fuad Najafov, Head of Greenwood, and Shahriyar Mammadli, Head of Azefurniture.

The project aims to design furniture that is both aesthetic and functional for individuals with physical limitations. It also creates an opportunity for company representatives to share their expertise and insights. The final phase of the project will see the winning design produced and gifted to a person with physical disabilities-an important step that underscores the social responsibility and purpose behind the initiative. The project's financial partners-Turkes Decor, Greenwood, and Azefurniture-have played a crucial role in supporting the initiative. With their backing, the project is set to expand and positively impact the lives of individuals with physical disabilities.

## BAKI REGİONAL MƏŞĞULLUQ FİLİALININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 11-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Bakı Regional Məşğulluq Filialının nümayəndələri ilə görüş keçirildi. Görüşdə filialın müdir müavini Vüqar Xəlilov və Təhlil və tərəfdaşlarla iş şöbəsinin müdiri Ədalət Səmidov iştirak edirdilər.

Görüşün əsas məqsədi tələbə və məzunların əmək bazarına inteqrasiyasını dəstəkləmək, onların məşğulluq imkanlarını genişləndirmək və tərəfdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi istiqamətində müzakirələr aparmaq idi.

Görüş zamanı bir sıra vacib mövzular – o cümlədən əmək yarmarkalarının təşkili, tələbə və məzunların işlə təmin olunması, ixtisaslara uyğun peşə hazırlıq kurslarının təşkili, real iş təcrübəsi imkanlarının yaradılması və dövlətin məşğulluq tədbirlərinə gənclərin cəlb olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.



*Vüqar Xəlilov*

Filialın nümayəndələri qurumun həyata keçirdiyi müxtəlif proqramlar, elektron platformalar və peşə hazırlığı layihələri barədə ətraflı məlumat verdilər. Onlar bildirdilər ki, tələbə və məzunların əmək bazarının tələblərinə uyğun peşə və bacarıqlarla təchiz olunması istiqamətində universitetlərlə əməkdaşlıq vacibdir və bu sahədə Xəzər Universiteti ilə birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını qeyd etdilər. Eyni zamanda, əməkdaşlıq imkanları müzakirə olundu. Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva mərkəzin geniş imkanlarından, tələbə və məzunlara yönəlik xidmətlərdən, görülən işlərdən, keçirilən tədbirlərdən və karyera dəstəyi təşəbbüslərindən danışaraq, bu əməkdaşlığın mövcud imkanları daha da genişləndirəcəyinə əmin olduğunu bildirdi.

Sonda gələcək əməkdaşlıq istiqamətləri müəyyən olundu və konkret tədbirlərin planlaşdırılması barədə razılıq əldə edildi.

## MEETING WITH REPRESENTATIVES OF BAKU REGIONAL EMPLOYMENT BRANCH

On April 11, a meeting was held at the Career and Alumni Center of Khazar University with representatives of the Baku Regional Employment Branch of the State Employment Agency. The meeting was attended by Vugar Khalilov, Deputy Head of the Branch, and Adalat Samidov, Head of the Analysis and Partnership Department.

The main purpose of the meeting was to support the integration of students and graduates into the labor market, expand their employment opportunities, and discuss the implementation of joint projects within the framework of partnership. During the meeting, several important topics were discussed – including the organization of job fairs, employment of students and graduates, the organization of vocational training courses in line with specialties, the creation of real work experience opportunities, and the involvement of youth in state employment programs.

The branch representatives provided detailed information about the various programs, electronic platforms, and vocational training projects implemented by the agency. They noted that cooperation with universities is essential for equipping students and graduates with professions and skills that meet labor market demands and expressed their interest in implementing joint projects with Khazar University in this field.

At the same time, cooperation opportunities were discussed. Zarifa Aliyeva, Director of the Career and Alumni Center, spoke about the center's extensive resources, services for students and graduates, the work carried out, events held, and career support initiatives, expressing confidence that this cooperation would further expand the existing opportunities. At the end, future cooperation directions were identified, and an agreement was reached on planning specific actions.

# “GƏLƏCƏYİNİ QUR!” LAYİHƏSİNİN İŞTİRAKÇILARI “XƏZƏR”DƏ



*Fariz Həsənli*

Aprelin 13-də “Gələcəyini Qur!” layihəsinin iştirakçıları olan 10 və 11-ci sinif şagirdləri ilə universitetin Mərmər salonunda görüş keçirildi.

Tədbir “Gələcəyini Qur!” Layihəsinin həmtəsisçisi Bəhruz Hidayətzadə və Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayevanın çıxışları ilə başladı. Dillər və Ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy universitet haqqında təqdimatla çıxış etdi və abituriyentlərin suallarını cavablandırdı. Layihənin ötən illərinin məzunları - hazırda Xəzər Universitetində müxtəlif ixtisaslarda təhsil alan gənclər çıxış edərək, tələbə həyatları haqqında təəssüratlarını bölüşdülər.

Təbdirin ikinci hissəsi Xəzər Universitetinin məzu-



# PARTICIPANTS OF “BUILD YOUR FUTURE!” PROJECT VISIT KHAZAR UNIVERSITY



On April 13, a meeting was held in the Marble Hall of Khazar University with 10th and 11th grade students participating in the “Build Your Future!” project.

The event began with speeches by Bahruz Hidayatzade, co-founder of the “Build Your Future!” project, and Raziya Isayeva, Dean of the School of Economics and Management at Khazar University. Ulvi Babasoy, a lecturer from the Department of Languages and Literatures, delivered a presentation about the university and answered the applicants’ questions. Graduates of the project from previous years – currently studying in various programs at Khazar University – also spoke and shared their impressions of student life.

The second part of the event began with a speech by Khazar University graduate and Member of Parliament Jeyhun Mammadov. In his speech titled “How Should Youth Build Their Future?”, he shared his advice with the students on topics such as a healthy lifestyle, healthy thinking, and personal development. Raziya Isayeva spoke about the development of artificial intelligence and its impact on leadership. In this interactive session, the students took part in a Q&A session discussing the division of labor and relationships between humans and machines.

Fariz Hasanli, coordinator of the Khazar Innovation Center and a lecturer at the Department of Computer Science, provided information about new trends and professions in the field of information technologies.

The applicants also visited the Library and Information Center and the Nanotechnology Laboratory, and a concert was organized for them.

nu, millət vəkili Ceyhun Məmmədovun çıxışı ilə başladı. “Gənclər gələcəklərini necə qurmalıdırlar?” adlı çıxışda natiq sağlam həyat tərzi, sağlam düşüncə, şəxsi inkişaf və digər mövzulara dair gənclərə tövsiyələrini verdi. Raziyə İsayeva süni intellektin inkişafı və onun liderliyə təsirindən danışdı. İnteraktiv keçən bu çıxışda gənclər insanlar və maşınlar arasında iş bölgüsü və münasibətlər haqqında sual-cavabda iştirak etdilər. Xəzər İnnovasiyalar Mərkəzinin koordinatoru, Kömpüter elmləri departamentinin müəllimi Fariz Həsənli informasiya texnologiyaları sahəsində yeni trend və peşələr haqqında məlumat verdi.

Abituriyentlər, həmçinin, Kitabxana İnformasiya Mərkəzində və Nanotexnologiyalar laboratoriyasında oldular, onlar üçün konsert təşkil edildi.



*Ceyhun Məmmədov*



*Ülvi Babasoy*



*Bəhruz Hidayətzadə*



# PROF.AKAD. HAMLET İSAXANLI NƏRİMAN NƏRİMANOVUN 155 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı aprelin 14-də Nəriman Nərimanovun xatirə müzeyində Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, dramaturq Nəriman Nərimanovun 155 illiyinə həsr olunmuş tədbirdə çıxış etmişdir.

Dövlət İdarəçilik Akademiyası Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədovanın moderatorluğu ilə keçən tədbirdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının Azərbaycandan olan üzvü Həsən Həsənov, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı Solmaz Rüstəmova - Tohidi, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Fuad Məmmədov və başqaları da çıxış etmişlər.



*Həsən Həsənov, Hamlet İsaxanlı, Solmaz  Tohidi, Fuad Məmmədov*

# PROF. ACAD. HAMLET ISAKHANLI ATTENDED EVENT DEDICATED TO THE 155TH ANNIVERSARY OF NARIMAN NARIMANOV

On April 14, Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and the Chairman of the Board of Directors and Trustees, delivered a speech at the event held at the Nariman Narimanov Memorial Museum dedicated to the 155th anniversary of Nariman Narimanov – a prominent Azerbaijani public-political figure, statesman, and playwright.

The event was moderated by Firdovsiya Ahmadova, Head of the Department of History at the Academy of Public Administration. Other speakers included Hasan Hasanov, the member of the Council of Elders of the Organization of Turkic States from Azerbaijan; Solmaz Rustamova-Tohidi, a researcher at the Ziya Bunyadov Institute of Oriental Studies of ANAS; Fuad Mammadov, member of the Public Council under the Ministry of Science and Education and others.

## TÜBİTAK TƏDQİQATÇILARI ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI DEPARTAMENT MÜDİRİ İLƏ MÜZAKİRƏLƏR APARIB

Aprelin 14-də Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) "Elmi və Texnoloji Araşdırma Layihələrinə Dəstək Programı" ilə həyata keçirilən "Türkiyənin logistika dəhlizi dizaynının təhlükəsizlik ilə əlaqələndirilməsi və optimallaşdırılması" adlı layihəsi çərçivəsində Mustafa Öztop, Dr. İsmet Söylemez və Dos. Dr. Ahmet Hüsrev Xəzər Universiteti Tarix və arxeologiya departamentində olmuşlar. Departamentin müdiri Dos.Telman Nüsrətoğlu və qonaqlar Azərbaycanın Misak-ı Millisi olan Zəngəzur dəhlizi və bütövlükdə Zəngəzurun tarixi, strateji önəmi ətrafında çox faydalı müzakirələr aparılmışlar.

Müzakirələrdə, həmçinin Aksaray Universitetinin müəllimi Hüsamettin Hayri Şener (Türkiyə) və Tarix və arxeologiya departamentinin müəllimi Söhrab Mustafayev iştirak etmişdir.

## TÜBİTAK RESEARCHERS HOLD DISCUSSIONS ON ZANGEZUR CORRIDOR WITH HEAD OF DEPARTMENT

On April 14, within the framework of the project titled "Linking and Optimizing Türkiye's Logistics Corridor Design with Security" carried out under the "Scientific and Technological Research Projects Support Program" of the Scientific and Technological Research Council of Türkiye (TÜBİTAK), Mustafa Öztop, Dr. İsmet Söylemez, and Assoc. Prof. Dr. Ahmet Hüsrev visited the Department of History and Archaeology at Khazar University. During the meeting, the Head of the Department, Assoc. Prof. Telman Nusratoghlu, and the guests engaged in highly beneficial discussions on the Zangezur Corridor-considered Azerbaijan's Misak-ı Milli-as well as the historical and strategic significance of the Zangezur region as a whole.

The discussions were also attended by Hüsamettin Hayri Şener (Türkiye), a lecturer at Aksaray University, and Sohrab Mustafayev, a lecturer at the Department of History and Archaeology.




*Hüsamettin Hayri Şener, Mustafa Öztop, Telman Nüsrətoğlu, Ahmet Hüsrev, İsmet Söylemez, Söhrab Mustafayev*

## "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 83-CÜ MƏŞĞƏLƏSİ

## 83RD SESSION OF "SCIENCE AND ART ASSEMBLY"




*Ədalət Tahirzadə, Asif Rüstəmli, Hamlet İsaxanlı*

Aprelin 15-də Xəzər Universitəsinin ənənəvi "Elm və Sənət Məclisi"nin 83-cü məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı açaraq, "Himnimiz necə yarandı: faktlar və həqiqətlər" mövzusu və bununla əlaqədar 3 il ərzində aparılmış elmi araşdırma haqqında geniş məlumat verdi, məruzəçi Prof. Asif Rüstəmlini iştirakçılara təqdim etdi.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni iştirakçıların ifasında səsələndirildi.

A. Rüstəmli dövlət himninin sözləri ilə bağlı uzun müddət apardığı elmi araşdırma haqqında məlumat

On April 15, the 83rd session of Khazar University's traditional "Science and Art Assembly" was held. The session was opened by the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, who introduced the topic "How Our Anthem Was Created: Facts and Truths" and provided detailed information on the scientific research conducted over three years. He then introduced the speaker, Prof. Asif Rustamli, to the audience.

Following this, the National Anthem of the Republic of Azerbaijan was performed by the participants.





*Sərdar Fərəcov*

verdi və dövlət himninin müəllifinin Əhmət Cavad deyil, Cəmo bəy Cəbrayılbəyli olduğunu qeyd etdi. O, bu araşdırmaların nəticəsi olaraq rəsmi sənədlər əsasında hazırlanmış və 2024-cü ildə çap edilmiş 204 səhifəlik "Cəmo bəy Cəbrayılbəyli: həyatı və yaradıcılığı" adlı kitabından arxiv sənədlərini nümayiş etdirdi.



*Bədirxan Əhmədov*

Məruzədən sonra müzakirələr başlandı. Uzun sürən müzakirələrdə Tahir Aydınoğlu ("Xalq qəzeti"), Hamlet İsaxanlı (Xəzər Universiteti), Kamil Şahverdiyev, Yavuz Akpınar (İzmir), bəstəkar Sərdar Fərəcov, Orxan Nəcəfov (AMEA-nın Şərqşünaslıq İnstitutu), bəstəkar Aydın Əzimov, Dilqəm Əhməd (İstanbul), Əli Şamil ( AMEA-nın Folklor İnstitutu), Azad Şükürov (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti), Bədirxan Əhmədov (Xəzər

(*Ardı səh.36-da*)

A. Rustamli shared insights from his long-term research on the lyrics of the National Anthem, stating that the true author of the anthem was not Ahmad Javad but Jamo bey Jabrailbeyli. He supported this claim by presenting archival documents from his 204-page book titled "Jamo bey Jabrailbeyli: Life and



*Firdovsiyyə Əhmədova*

Literary Legacy," published in 2024, which was based on official records.

After the lecture, an engaging discussion ensued. Among the speakers who shared their views and suggestions were Tahir Aydinoglu ("Xalq" newspaper), Hamlet Isakhanli (Khazar University), Kamil Shahverdiyev, Yavuz Akpinar (Izmir), composer Sardar



*Solmaz Tohidi*

Farajov, Orkhan Najafov (Institute of Oriental Studies, ANAS), composer Aydin Azimov, Dilgam Ahmad (Istanbul), Ali Shamil (Institute of Folklore, ANAS), Azad Shukurov (Azerbaijan State University of Culture and Arts), Badrikhan Ahmadov (Khazar University), Namig Ahmadov ("Xalq" newspaper), Adalat Tahirzade (Baku Eurasian University), Firdovsiyya Ahmadova (Academy of Public Administration under

(*To be continued page 36*)

Universiteti), Namiq Əhmədov ("Xalq qəzeti"), Ədalət Tahirzadə( Bakı Avrasiya Universiteti), Firdovsiyyə Əhmədova ( Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası), Solmaz Tohidi (AMEA-nın Şərqşünaslıq İnstitutu) və digərləri çıxış etdilər və təkliflərini verdilər.

Tədbirə Azərbaycanın çoxsaylı elm adamları, həmçinin ZOOM vasitəsilə dünyanın müxtəlif ölkələrindən mütəxəssislər qatılmışdılar. Sonda Hamlet İsaxanlı seminara yekun vuraraq, iştirakçılara təşəkkürünü bildirdi.



*Tahir Aydınoğlu*



*Namiq Əhmədov*

the President of the Republic of Azerbaijan), Solmaz Tohidi (Institute of Oriental Studies, ANAS), and many others.

The event was attended by numerous Azerbaijani scholars, as well as international experts who joined via ZOOM from various countries. At the end of the session, Hamlet Isakhanli delivered closing remarks and extended his gratitude to all participants.



*Aydın Əzimov*



## "TÜRK DÜNYASINDA ŞİMALİ KİPR" MÖVZUSUNDA TARİX DƏRSİ

Aprelin 15-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlunun tədris etdiyi Türk Dövlətləri və Mədəniyyətləri Tarixi fənni çərçivəsində xüsusi dərs təşkil olunub. Dərs Türkiyədən dəvət olunmuş Dr. Hayri Şenerin iştirakı ilə keçirilib.

Dərsdə Türk dünyasının Aralıq dənizi hövzəsindəki strateji nöqtəsi olan Şimali Kipr Türk Cümhuriyyətinin tarixi və siyasi əhəmiyyəti geniş şəkildə araşdırılıb.. Dr. Hayri Şener və Dos.Telman Nüsrətoğlu tarixdən günümüzə qədər olan dövrü əhatə edən "Kıbrıs dosyası"nı tələbələrlə birlikdə açaraq, adanın türk dünyası üçün daşıdığı strateji və mədəni əhəmiyyəti vurğulayıblar.

Dərs interaktiv şəkildə davam edib. Tələbələr öz suallarını verərək, Kipr məsələsinin tarixi kökləri, beynəlxalq hüquqi aspektləri və gələcək perspektivləri haqqında ətraflı məlumat alıblar.

## A HISTORY LESSON ON "NORTHERN CYPRUS IN THE TURKIC WORLD"

On April 15, a special lecture was held at Khazar University within the framework of the course "History of Turkic States and Cultures" taught by the Head of the Department of History and Archaeology, Assoc. Prof. Telman Nusratoghlu. The session featured the participation of guest lecturer Dr. Hayri Şener from Türkiye.

The class focused on the historical and political significance of the Turkish Republic of Northern Cyprus, a strategic point of the Turkic world in the Mediterranean basin. Dr. Hayri Şener and Assoc. Prof. Telman Nusratoghlu jointly explored the "Cyprus dossier" with the students, underlining the island's strategic and cultural importance for the Turkic world from past to present.

The lecture continued in an interactive format, allowing students to pose questions and gain detailed insights into the historical roots, international legal dimensions, and future perspectives of the Cyprus issue.

## WEB OF SCIENCE PLATFORMASI ÜZRƏ TƏLİM
## TRAINING ON WEB OF SCIENCE PLATFORM





*İltifat İbrahimov*

Aprelin 16-da Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin təşkilatçılığı ilə Clarivate şirkətinin Azərbaycan üzrə nümayəndəsi İltifat İbrahimov tərəfindən müəllim və tədqiqatçılar üçün Web of Science platforması üzrə təlim keçirildi.

Təlimdə Research Assistant Süni İntellekt aləti, Journal Citation Reports, Master Journal List platforması, Təşkilat və Tədqiqatçı profilinin yaradılması, EndNote haqqında geniş məlumat verildi. Təlimin sonunda iştirakçıların sualları cavablandırıldı və müzakirələr aparıldı.

On April 16, a training session on the Web of Science platform was conducted for faculty members and researchers at Khazar University. The event was organized by the University's Library and Information Center and delivered by Iltafad Ibrahimov, Clarivate's representative for Azerbaijan.

During the session, participants received detailed information on the Research Assistant AI tool, Journal Citation Reports, Master Journal List platform, the creation of Organization and Researcher profiles, and the use of EndNote. At the end of the training, participants' questions were addressed, followed by a fruitful discussion.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# ORXAN İSAYEVİN "KƏRKÜKLÜ NÖVRƏS QƏDİM" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Ədəbiyyat İnstitutunun əməkdaşı Orxan İsayevin "Kərküklü Növrəs Qədim (Həyatı və yaradıcılığı, "Tarixçeyi-Növrəs" əsəri, qəzəlləri)" adlı kitabı işıq üzü görüb. Kitabda müəllifin XVIII əsr İraq-türkman ədəbiyyatının görkəmli nümayəndəsi Əbdürrəzar Növrəs Qədimin həyat və yaradıcılığı, eləcə də qədim Azərbaycan şəhəri olan İrəvan haqqında yazdığı "Tarixçeyi-Növrəs" əsəri ilə bağlı araşdırmaları yer alıb.

Orxan İsayev XVIII əsrdə Osmanlı və Səfəvi qoşunlarının İrəvan uğrunda mübarizəsindən bəhs edən "Tarixçeyi-Növrəs" əsərini əski osmanlıcadan Azərbaycan dilinə çevirərək kitabın ikinci hissəsində oxuculara təqdim edir. Bundan əlavə, kitabda görkəmli şairin türkdilli "Divan"ından seçilmiş qəzəllər də öz əksini tapıb. Orxan İsayevin "Kərküklü Növrəs Qədim (Həyatı və yaradıcılığı, "Tarixçeyi-Növrəs" əsəri, qəzəlləri)" kitabı klassik İraq-türkman ədəbiyyatı ilə bağlı yazılmış ilk kitabdır.

Kitabın elmi redaktoru və məsləhətçisi Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Ön sözün müəllifi "Kərkük Kültür Dərnəyi"nin rəhbəri Dr.Şəmsəddin Kuzəçi, rəyçiləri filologiya üzrə fəlsəfə doktorları İsmixan Osmanlı, Kübra Quliyeva və Elnur Mustafayevdir.

# "MİFO-POETİK VƏ FİLOLOJİ DÜŞÜNCƏDƏ MİF KONSEPSİYALARI" KİTABI ANKARADA NƏŞR OLUNUB




Ədəbiyyat İnstitutunun baş elmi işçisi filologiya elmləri doktoru, dosent Pərvanə Bəkirqızının vəfatından sonra Ankarada Qazı Yayınevi tərəfindən "MİFO-POETİK VƏ FİLOLOJİ DÜŞÜNCƏDƏ MİF KONSEPSİYALARI" adlı kitabı nəşr olunub. Bu əsər, ədəbiyyat və mifologiyanın dərin əlaqələrini araşdıran zəngin bir tədqiqatdır. Türk və Azərbaycan ədəbiyyatındakı mifo-poetik izləri izləyən əsər, mifin ədəbi düşüncə üzərindəki təsirini dərinləşdirir və bu sahədə müasir nəzəriyyələrə işıq tutur.

Kitab "Mito-Poetik: Teorik Yaklaşımlar ve Araştırmalar", "Mitin Yeniden Doğuşu: Edebi ve Kültürel Yansımalar", "Edebiyat ve Mit: Arketiplerden Neo-Mitolojiye", "Edebiyatta Mitolojinin İzleri: XX. Yüzyıldan Günümüze", "Edebi Metinlerde Mitoloji ve Arketiplerin Gücü: Nihai Bir Değerlendirme" bölümlərindən ibarətdir.

Birinci bölümdə mifin ədəbi və poetik təhlilinə dair nəzəri yanaşmalar və müasir araşdırmalar işıqlandırılır. İkinci bölümdə mifin ədəbiyyatda yeni bir formaya çevrilməsi və mədəniyyətə necə təsir etdiyi müzakirə edilir. Üçüncü bölümdə arxetiplərin və neo-mifologiyanın ədəbiyyatdakı yeri və təsiri təhlil olunur. Dördüncü bölümdə XX əsrdən günümüzə qədər ədəbiyyatda mifologiyanın izləri izlənilir. Beşinci bölümdə mifologiya və arxetiplərin ədəbiyyatda yaratdığı güc və təsir qiymətləndirilir.

Nəticə hissəsində mifologiyanın müasir ədəbiyyata verdiyi töhfələr və gələcəkdəki əhəmiyyəti haqqında ümumi nəticələr təqdim olunur.

Kitabın professor Tahirə Məmməd tərəfindən yazılmış "Edebi Eserlerin İncelenmesinde Mitolojik Kavramların Rolü" başlıqlı giriş hissəsində, mifin ədəbiyyat və mədəniyyətə təsiri təhlil edilir.

Kitab Türkiyə Türkçəsinə professor Vüsalə Musalı tərəfindən çevrilib. Cildin rəssamı Ofelya Hüseynzadədir. Bu əsər, mifin ədəbiyyat və mədəniyyət arasındakı əlaqələrini araşdıran fəlsəfi bir qaynaqdır. Kitabın daxilində mifologiyanın ədəbi formalarla necə əlaqələndirildiyi və müasir ədəbiyyata olan təsiri dərindən təhlil edilir. Pərvanə Bəkirqızının bu əsəri, mifologiyanın ədəbiyyat və mədəniyyətə olan təsirini dərindən anlamağa çalışan hər kəs üçün vacib bir qaynaqdır. Kitab, mifin yalnız keçmişin əks-sədası deyil, həm də gələcəyin işığını yandıran bir güc olduğunu göstərir. Bu nəşr müasir ədəbiyyatda mifologiyanın dərin izləri və gücünü araşdırmaq istəyənlər üçün nəzərdə tutulmuş qiymətli bir əsərdir.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi*



# ARAŞDIRMA UNİVERSİTETİ VƏ ƏTRAF DÜNYA

**Hamlet İsaxanlı**

## Giriş

Ali məktəblər cürbəcürdür, biri o birinə bənzəyə bilir, çox bənzəyə bilir, az bənzəyə bilir və ya biri o birindən fərqli, çox fərqli və ya kəskin dərəcədə fərqli ola bilir. Ali məktəblər yerləşdikləri coğrafi məkana (ölkə, bölgə...) və ya yarandıqları tarixə, yəni fəaliyyət yaşına görə (orta əsrlər, 19, 20, 21-ci əsr...) bir-birindən fərqlənirlər. Ali məktəblər fənlərə, ixtisaslaşma sahələrinə görə çox fərqli ola bilər, məsələn, Tibb universiteti, İqtisadiyyat universiteti, Pedaqoji universitet, və ya Mühəndislik, Musiqi, İncəsənət, İlahiyyat, İdman, Hərbi iş kimi sahələrdən əsasən birini fokus götürən ali məktəblər. Çoxprofilli, hərtərəfli, çox müxtəlif sahələri özündə cəmləşdirən universitetlər (Comprehensive university) də geniş yayılmışlar. Yalnız qızlar və ya oğlanların təhsil ala biləcəyi ali məktəblər ola bilir. Ölkə əhalisinin müəyyən səbəblərə görə az inkişaf etmiş, ümumi yarışa-rəqabətə davam gətirə bilməyən hissəsi üçün bəzən xüsusi ali məktəblər qurmaq lazım gəlir (məsələn, ABŞ-da Tarixi Qara Kolleclər / Historically Black colleges, Qəbilə Kollec və universitetləri / Tribal colleges and universities, ispandillilərə xidmət edən İnstitutlar / Hispanic-Serving Institutions...). İki illik təhsil verən kolleclər (texnikumlar, sənət məktəbləri / vocational schools, məslək yüksək okulları, ABŞ-da Community colleges) dünyaya səpələnmişlər. Əsasən bakalavr təhsili verən və ya əsasən bakalavr və magistr təhsili verən yaxud magistratura və doktoranturaya ciddi fikir verən ali məktəblər olur. Dövlət (State), İctimai (Public), Özəl (şəxsi gəlir güdməyən / non-profit və ya gəlir güdən / for-provit) və Vəqf (Foundation) əsaslı ali məktəblər məlumdur. Və nəhayət, bir tərəfdə elmi araşdırmalara mütləq üstünlük verən Araşdırma universitetləri və digər yanda tədrisi əsas götürən ali məktəblər mövcuddur.

Universitetlər yerləşdikləri ölkənin, dövlətin mühüm institutlarıdır. Çağdaş dünyada ölkələrin yarışı daha çox iqtisadiyyatla deyil, elm və texnologiyanın inkişafı ilə müəyyən olunur; iqtisadiyyat elm və texnologiyanın törəməsidir. Universitetlər, belə görünür ki, elm və texnologiyanı inkişaf etdirən institutlardır. Bu belədirmi? Hər ali məktəb elmi və texnoloji kəşfləri ilə öyünə bilirmi? Yox, belə uğur yalnız güclü universitetlərə qismət olur. Nədir güclü universitet?!

Tez-tez "Dünya Səviyyəli Ali Məktəb"lərdən (World-Class Higher Education Institutions) söz açırlar [1]. "Dünya səviyyəli" dəqiq anlayış deyil, Dünya səviyyəli ali məktəb deyəndə insanların düşüncəsində olan, adı məşhur olan ali məktəblər yada düşür: Harvard, MIT (Massac-

husetts Institute of Technology), California Institute of Technology, Yale, Stanford, Princeton, Oxford, Cambridge, Tsinghua, Peking universitetləri kimi...

"Güclü universitet" ifadəsində də qeyri-müəyyənlik var. Universitet gücünün ölçüsü nədir? Bir ali məktəbin digərindən güclü olması nə deməkdir? Araşdırma (Research) universiteti anlayışı daha aydındır. Belə universitet elmi araşdırmalara üstünlük verir, yeni bilik yaradır, texnologiyanın inkişafına kömək edir, yüksək səviyyəli mütəxəssis yetişdirir...

Ali məktəblər nə vaxt və harada yarandılar? Onlar yarandıqları tarixdən bu günə necə yol keçdilər? Ali məktəblər dünyanın müxtəlif bölgələrində necə inkişaf etdilər, ali məktəblərin güclənməsində bölgələrarası təsirlər necə rol oynadı? Araşdırma universiteti və onu əhatə edən dünya bir-birinə necə təsir göstərdi? Bü gün universitet aləmində hansı meyllər cərəyan edir? Bu və buna bənzər suallara aydın və tam cavab vermək ağır işdir. Ali təhsil problemləri və təhsil tarixi ilə məşğul olan mütəxəssislər oxşar suallar qoymuş və cavab verməyə çalışmışlar. Bu sətirlərin müəllifi 2025-ci ilin başlanğıc aylarında elm, sənət və iş adamları qarşısında "Biz necə bir universitet istəyirik?" və "Araşdırma universiteti və sənaye: tarix və bu gün" adlı iki mühazirə oxumuş, öz düşüncələri ilə dinləyicilərin marağını qovuşdurmağa cəhd etmişdir. Bu yazı o mühazirələrin əsasında qələmə alınmışdır.

## Araşdırma universiteti anlayışı

Araşdırma universiteti yaradıcı biliyi paylayan, yaradan (istehsal edən) və tətbiq edən ali məktəbdir. Araşdırma universiteti yüksək keyfiyyətli elmi araşdırma aparan və elit (kütləvi deyil), ən yaxşı, lider zəka sahiblərini yetişdirən mərkəzdir. Araşdırma universiteti orada çalışan yüksək səviyyəli elm adamları ilə tanınır. Belə elm adamları olan universitet ən istedadlı gəncləri – bakalavr, magistr və doktor tələbələri cəlb edir. Universitetlərin nüfuzu (reputation) əsasən onların araşdırma gücü ilə müəyyən edilir. Araşdırma universiteti yüksək səviyyəli araşdırmaların aparılması üçün şərait yaradır – böyük maliyyə, güclü araşdırma mərkəzləri, çağdaş laboratoriyalar... Araşdırma universiteti akademik sərbəstliyin, obyektiv yarış ruhunun, yaradıcı mühitin hökm sürdüyü yerdir. Araşdırma universiteti elm və texnologiyanın sənaye və iqtisadiyyatla qovuşduğu, ixtiraların baş verdiyi, patentlərin alındığı innovasiya mərkəzi olmalıdır.

"Dünya səviyyəli universitet" olmaq yolu Araşdırma universiteti olmaqdan keçir. İnkişaf etməkdə olan universitetin əsas məqsədi, adətən, araşdırma universitetinə çevrilməkdir, çox zaman "elə-belə araşdırma" deyil, "güclü araşdırma" universitetinə çevrilməkdir. Güclü ölkənin güclü universitetləri olmalıdır. Güclü universitet ölkəni gücləndirir. Ölkələrarası yarış əsasən elm və texnologiya üzərində qurulur. Araşdırma universiteti ölkənin beyin mərkəzidir.

## Universitet tarixinə qısa nəzər - 1

Bir az tarixə nəzər salaq. Bu günə necə, hansı yolla gəlib çıxdı dünyadakı yaxşı ali məktəblər? Və ya, bu günkü güclü ali məktəblər necə gücləndilər?

İslam dövrünə qədər, həmçinin İslamın başlanğıc dövründə ali məktəb olmayıb. Platon`un Akademiyası, Aristotelin Litseyi, Epikurosun Bağı, İsgəndəriyə kitabxanası, əl-Məmun`un Beyt-əl Hikmə (Hikmət evi) adı almış tərcümə mərkəzi, iri rəsədxanalar və mütəfəkkir insanların digər toplantı yerlərinə kiminsə mühazirələrinə qulaq asmaq, kitab oxumaq, tərcümə etmək, hansısa elmi-fəlsəfi məsələləri müzakirə etmək üçün gəlirdilər. O yerlərdə sistemli təhsil yoxdu, heç kimə nəyi və necə öyrəndiyini təsdiq edən sənəd – sertifikat ya diplom verilmirdi.


Nizamülmülk

İslam dövründə geniş təhsil şəbəkəsi quruldu, islamın ayağı dəyən hər yerdə məscid tikilir, Quran və hədis öyrədilirdi; yaxşı oxumaq və yazmağı öyrənmədən bu mümkün deyildi. Həmçinin hesab, coğrafiya, qrammatika, hüsnxətt, tarix və bir qədər də təbiətşünaslıq tədris oluna bilirdi. Dərs müəllimin evində və saraylarda keçilirdi, bu tədris fəaliyyətinə ibtidai məktəb demək doğrudur. Məscid və camelərdə (böyük məscidlərdə) "Halqa" deyilən tədris üsulu geniş yayılmışdı. Savadlı müəllim, şeyx danışır, dərs keçir, dinləyicilər, tələbələr onun qarşısında yarımdairə şəklində oturub qulaq asır və yazırdılar. Bu, orta təhsil, bəzi hallarda isə, böyük şəhərlərdə, görkəmli alimlərin yanında ali təhsil sayıla bilərdi. Hər tanınmış alimin öz halqası vardı. Tələbə müxtəlif halqalara (müəllimlərin dərslərinə) gedə bilir, hər müəllimdən onun mütəxəssis olduğu sahə üzrə dərs alırdı.

Lakin İslam aləmində güclü, sistemli ali təhsil ocaqları əsasən 11-ci əsrin ikinci yarısında yarandı. Daha əvvəl Qahirədəki əl-Əzhər kimi (970-972-ci illərdən başlayaraq fəaliyyət göstərən) yüksək dini təhsil verə bilən bəzi institutlar vardı. Ayrı-ayrı mərkəzlərdə mədrəsə adlı orta və ya ali təhsilə bənzər dərslər verən tədris ocaqları mövcud olsa da, məhz Səlcuq dövlətinin, Sultan Alp Arslan və Sultan Məlikşah`ın məşhur vəziri Nizamülmülk`ün (1018-1092) qurduğu *Nizamiyyə mədrəsələri* ilə güclü, sistemli təhsil ocaqları şəbəkəsi yarandı. Mədrəsələrin mühüm məqsədlərindən biri, əslində birincisi onu quranların mənsub olduqları dini məzhəbləri öyrətmək və təbliğ etməkdi. Bağdadda 1065-1067-ci illərdə qurulan və təntənəli açılış mərasimi keçirilən Nizamiyyə mədrəsəsini bu istiqamətdə ilk saymaq olar. Əl-Qəzali bir müddət Bağdad Nizamiyyə mədrəsəsinin başçısı (əsas alimi) təyin olunmuşdu; böyük şair Sədi və böyük filosof İbn Ərəbi`nin bu mədrəsədə oxuduqları deyilir.

Mədrəsələr xeyriyyə fondu - *vəqf* vasitəsilə qurulan ali məktəblər idi, burada təsisçilik və sahiblik təsisçinin – Vaqif`in vərəsələrinə keçirdi; məscid və ordakı təhsil ocaqları isə belə deyildi – qurucu insan heç nəyi heç kimə verə bilməzdi.

Mədrəsənin uğurla fəaliyyət göstərməsi üçün hər şərait yaradılırdı: müəllim və işçilər maaş, tələbələr təqaüd alırdılar, tələbələr ödənişsiz yataqxana və çox zaman yeməklə, bəzən paltarla təmin olunurdular. Mədrəsədə zəngin kitabxana qurulurdu. İki əsas sahə (fakültə) vardı: ilahiyyat (İslam dininin əsasları, Quran, hədis, kəlam) və İslam hüququ – fiqh. Həkimlər xəstəxanalarla bağlı olan tibb mədrəsələrində yetişirdilər. Riyaziyyat, mühəndislik və təbiət elmləri əsasən rəsədxanalarda, məsələn, Marağa`da Nəsirəddin Tusi`nin, Səmərqənd`də Uluqbəy`in başçılıq etdiyi böyük rəsədxanalarda, həmçinin alimlərin evdə təşkil etdikləri dərslərdə öyrədilirdi. Hüquq və ilahiyyat oxuyan tələbə dörd ildən sonra müəllimin köməkçisi olurdu. O, müəllimin mühazirələri üzərində işləyir, onu şərh edir, istəsə etirazını bildirir, əlavələr edir, onu elmi iş – *təliqə* (*əllaqə* – hesabat yazmaq sözündəndir), dissertasiya şəklinə salır, kitab hazırlayırdı (özü və ya müəllimi ilə). Nəticədə tələbə müəllimin imzası ilə icazə sertifikatı alırdı (işə girmək, dərs demək üçün). İcazə alan tələbə öyrəndiklərini başqalarına öyrətmək, ötürmək hüququ qazanırdı. Bu haqqı qazanan *bi-haqq əl-rivayə* (söyləmək haqqı olan) adlanırdı: bakalavr sözünün mənşəyi burdan gəlir! [2]. Sonralar mədrəsələrdə tarix, təbiətşünaslıq və riyaziyyat, hətta musiqi dərsləri də müəyyən dərəcədə öyrədilirdi [3]. Mədrəsələr davamlı inkişaf edib zamanımıza gəlmədilər (səbəblərdən biri aşağıda, sonrakı Avropa universitetlərindən söhbət açanda göstəriləcək).

# Universitet tarixinə qısa nəzər - 2

İslam Əndəlisi (İberiya və ya Pireney yarımadası) və Siciliya, həmçinin ticarət və mədəniyyət mərkəzləri olan İtaliya şəhərləri İslam dünyası ilə sıx əlaqədə idi. İslam və xristian savaşı sayılan Xaç yürüşləri də əslində Avropanın İslam dünyasını anlaması və öyrənməsində rol oynadı. İslam dünyasında geniş yayılmış yunan elmi və fəlsəfi əsərlərinin əksəriyyəti ərəbcədən latıncaya çevrildi, eləcə də İslam dövrü alimlərinin riyazi, astronomik, kimyəvi, fəlsəfi, tibbi və texnoloji bilikləri əks etdirən əsərləri tərcümə edildi, elm, tibb və fəlsəfənin inkişafında, ali məktəb proqramlarında öz əksini tapdı. Adətən Avropanın ilk universitetləri olaraq Bologna və Paris universitetləri yada salınır. Hər ikisi 12-ci əsrin ikinci yarısında, 1170-80-ci illərdə gerçəkdən fəaliyyətdə olmuşlar, hərçənd ki, Bologna universitetinin daha əvvəl (1088-ci ildə) meydana çıxdığı iddia edilir. O dövr Avropa alimləri əsasən dərs deyir (o cümlədən zənginlərin övladlarına), araşdırma ilə boş vaxtlarında könül işi, hobbi kimi məşğul olurdular.




Universitetlərdə hüquq və ilahiyyat fakültələri, bəzilərində həm də tibb fakültəsi olurdu. Avropa universitetləri İslam dövrü mədrəsələrindən fərqli və mühüm bir iş gördülər – tələbəyə dərs aldığı hər müəllimdən imzalı bir sənəd deyil, universiteti bitirmə barədə tək, vahid məzunluq diplomu verməyə başladılar. Bu, yəqin ki, Avropa universitetlərini monolit bir instituta çevirdi və onların davamlı olması, çoxunun günümüzə gəlib çatması üçün yol açdı. Universitetlər tibb məzunlarına Tibb doktoru (Medical Doctor, M.D.), hüquq məzunlarına Hüquq doktoru (Juris Doctor, J.D.), İlahiyyat məzunlarına Teologiya Doktoru (Doctor of Theology, ThD) adlı dərəcə-diplom verirdilər. Get-gedə universitetə daxil olmaq istəyənlər üçün hazırlıq fakültəsi formalaşdı, dillər (latın, yunan), ədəbiyyat, tarix, fəlsəfə, riyaziyyat və təbiətşünaslıq kimi sahələri öyrənmək zəruri oldu. Bu sahələri birləşdirən ad olaraq gah Sənət və ya İncəsənət (Art), gah da Fəlsəfə sözü işlənilirdi. Fəlsəfə termini daha əhatəli görünürdü, qədim zamanlardan başlayaraq filosof mövcud bütün bilik sahələri ilə maraqlanır, fikir söyləməyə çalışırdı. Get-gedə təbiət elmləri *natural fəlsəfə* adı aldı; məsələn, I. Newton məşhur əsərinə "Natural Fəlsəfənin Riyazi Əsasları" (Philosophiæ Naturalis Principia Mathematica) adı qoymuşdu. Zaman keçdikcə bu fakültə müstəqilləşməyə üz tutdu, uyğun sahələr üzrə mütəxəssis hazırlamaq vacib sayıldı. 19-cu əsrdə bu fakültəni bitirənlərə Fəlsəfə Doktoru (Philosophie Doctor, PhD) dərəcəsi-diplomu verməyə başladılar. İki pilləli ali təhsilə keçildi – bakalavr və ondan sonra doktorluq (PhD). 19-cu əsrin ortaları və ikinci yarısında Fəlsəfə (yəni hüquq, ilahiyyat və tibb xaricindəki elmlər) fakültəsi nüfuzuna görə digər üç fakültə ilə müqayisə oluna bilən səviyyəyə gəldi.

# Araşdırma universitetinə doğru

Avropada orta əsrlərdə araşdırma yoluna girməyə çalışan, teologiyanı deyil, təbiət elmlərini, həmçinin tibbi irəli çəkən, intellektual mərkəzlərə çevrilən Leiden (1575+) universiteti, University of Edinburgh (1583 +, 1707+) kimi nüfuzlu ali məktəblər vardı. Alman universitetləri get-gedə daha çox fərqləndilər, University of Halle (1694+), Gettingen University (1737+) kimi cəzbedici alman ali məktəbləri irəli çıxmağa başladılar. Ali məktəb sistemində araşdırmanın və akademik sərbəstliyin zəruriliyini vurğulayarkən bu iki alman universitetinin, ümumiyyətlə,



*Humboldt Universitetinin Berlində yerləşən əsas binası*

18-ci əsrin sonu və 19-cu əsrin əvvəllərindəki alman (Prussiya) ali təhsil məkanının rolu yüksək qiymətləndirilir. 1809-10-cu illərdə Wilhelm von Humboldt və digər alman zəka sahiblərinin təşəbbüsü ilə yaradılmış Berlin universitetinin rolu xüsusi vurğulanır. Bir sıra hallarda Berlin universitetinin yaranmasını ali məktəb dünyasının inkişafında fövqəladə hadisə, möhtəşəm bir başlanğıc kimi xüsusi qeyd edirlər. 19-cu əsr Alman universiteti modeli bütün dünyada yüksək qiymətləndirilmiş, ABŞ və digər yerlərdə yeni güclü ali məktəb yaradarkən onu nümunə kimi görmüşlər. Son zamanlar Humboldt`ın təhsil fəlsəfəsini və islahat ideyalarını qiymətləndirməklə yanaşı, Berlin universitetinin fövqəladə rolunu şişirtmə kimi görənlər çoxalır [4]. Kant, Schleimacher və digər alman filosoflarının akademik sərbəstlik və Berlində universitet təsis etmək ideyalarını Humboldt`dan daha əvvəl söylədikləri deyilir. Digər tərəfdən, çağdaş araşdırma universitetlərinin o zaman ideya kimi var olduğu, amma gerçəkləşmədiyi, ancaq 1870-80-ci illərdə yarandığı fikri də irəli sürülür.

Bunlarla yanaşı, ali təhsildə Humboldt ideyaları barədə danışılır, onların həlledici gücü qeyd



*Wilhelm von Humboldt*
*1767-1835*



*Immanuel Kant*
*1724-1804*



*Friedrich Schleiermacher*
*1768-1834*

edilir. Humboldt`un üç fikri vurğulanır: 1) araşdırma və təhsilin birliyi, 2) akademik sərbəstlik (avtonomiya / muxtariyyət), 3) tələbənin seçim haqqı. Bu nə deməkdir? Dərs vermək üçün güclü elm və sənət adamları dəvət edilsin. Onlar köhnə, məlum bilikləri yaymaqla yanaşı, yeni biliklər yaradır, bilik istehsal edir və bu barədə dərsdə danışa bilir, tələbələri yeni biliklər yaradılması prosesinə daxil edirlər. Tələbə yeni bilik yaradılması prosesini görür, bir sıra hallarda onda iştirak edə bilir! Universitetdə çalışan elm və sənət adamları akademik baxımdan sərbəst olmalı, tədqiqat sahələrinə məhdudiyyət qoyulmamalı, öz araşdırma mövzularını seçə bilməli, qadağalar və basqılar olmamalıdır. Universiteti dövlət maliyyələşdirsə də, hökumət onun elm-tədris işlərinə qarışmamalıdır. Əlbəttə, hökumət universitetə müraciət edib, hökuməti maraqlandıran müəyyən məsələlərin araşdırılmasını istəyə bilər. Amma universitet ətrafdakı dəyişmələrə vaxtında və uyğun cavab vermək sərbəstliyinə, düzgün hərəkət etmək imkanına malik olmalıdır. Tələbələrin ixtisasseçmə, eləcə də müəyyən dərs və müəllimləri seçmə haqqı

olmalıdır: tələbəyə öz təhsil trayektoriyasında öz arzularını müəyyən dərəcədə nəzərə almaq imkanı verilməlidir.

## ABŞ universitetlərinin araşdırma yolu – yüksək dərəcələr fakültəsi

İlk gerçək araşdırma universiteti nisbətən yaxın tarixdə yaranmış (1876) özəl Johns Hopkins universitetidir (JHU). Bu, ABŞ-ın birinci çağdaş universiteti sayılır. 1636-cı ildə təsis olunan Harvard universiteti və sonrakı College of William and Mary (1693), Yale College (1701) və digərləri ABŞ-da hökm sürən İngiltərə və Şotlandiya universitet modellərini tətbiq edir, tədrisi latın və yunan klassikləri və ilahiyyat üzərində qururdular. Mövcud universitetlə nədəsə barışmayan güclü insanlar başqa universitetlə əlaqə qurmaq və ya öz universitetlərini qurmaq fikrinə düşürdülər. Məsələn, Harvard universitetindəki liberal teologiyanı bəyənməyən mühafizəkar puritan xadimlər (ministrlər) öz ortodoks təlimlərini həyata keçirmək üçün Yale College`i Connecticut`a gətirdilər (1716). ABŞ-da ilk PhD dərəcəsini1861-ci ildə Yale College`i verdi, bu yüksək dərəcəni 1871-ci ildə University of Pennsylvania, 1873-cü ildə Harvard universiteti verdi. Ən yaxşı PhD məzunları alman araşdırma universiteti modeli kimi çalışan Johns Hopkins universitetini bitirənlər idi. ABŞ-ın əksər yaxşı universitetlərində Johns Hopkins`i bitirib doktor dərəcəsi alanlar müəllimlik edirdilər. JHU alman araşdırma modelini ABŞ-a gətirdi, tədris və araşdırmada təbiət elmləri, mühəndislik, aqrar iş kimi sahələrə üstünlük verdi. JHU-nun ilk prezidenti Daniel Coit Gilman ali məktəblərin ən vacib işinin (vəzifəsinin, missiyasının) yüksək ixtisaslar üzrə təhsil (graduate education) və yüksək-səviyyəli istedadların yetişdirilməsi olduğunu irəli sürmüşdü. ABŞ-ın Harvard, Columbia kimi universitetləri JHU-nun yoluna, yəni alman araşdırma universiteti modelinə keçdilər, yeni yaranan ali məktəblər də bu yolu təqib etdilər.



*Johns Hopkins Universitetinin Homewood kampusu*

Magistratura və doktorantura ilə məşğul olan müstəqil fakültə (graduate school) və ümumiyyətlə araşdırma universiteti modeli ABŞ-a JHU-dan yayıldı. Bu yeni yol, yeni forma və yeni məzmun idi, bu bir Sıçrayış idi. O zamandan başlayaraq ABŞ dünyanın ən güclü araşdırma universitetləri ölkəsinə çevrildi. Lakin, hələ bir müddət ABŞ-da keyfiyyəti daha yüksək olan ənənəvi Avropa universitetlərində oxumaq istəyi böyük idi. Bu dövrdə ABŞ-da asan diplom verən – "diplom üyüdən" universitetlər də az deyildi.

1900-cü ildə ABŞ-ın beş güclü ali məktəbinin – Harvard, Chicago, California, Columbia və Johns Hopkins universitetlərinin prezidentləri doqquz digər ABŞ universitetinin (Yale, Stanford, Princeton, Cornell,...) prezidentlərini dəvət etdilər ki, gəlin ortaq marağımızı ifadə edən bir təşkilat düzəldək və yuxarı dərəcələr üzrə təlimi (graduate study) inkişaf etdirək. Beləliklə, 14 universitet prezidentləri American Association of Universities (AAU) təsis etdilər və təhsil dərəcələrinin standartlarını yüksəltməklə məşğul oldular (Bu Assosiasiya bu gün ikisi Kanada`dan olmaqla 71 üzv-araşdırma universitetindən ibarətdir; üzvlük dəvətlədir). Daha az sayda ali məktəbdən təşkil olunmuş seçilmişlər qrupu da mövcuddur; 1954-ci ildə təsis olunan və ABŞ-ın şimal-şərqində yerləşən 8 özəl ali məktəbin – Brown U, Columbia U, Cornell U, Dartmouth College, Harvard U, U Pennsylvania, Princeton U, Yale U üzv olduğu Ivy League qrupu yaxşı məlumdur (Ivy – sarmaşıq deməkdir). Yüksək dərəcələr – magistr (master) və doktor

(PhD) üzrə təhsil (Graduate study) Amerikada o dərəcədə inkişaf etdi ki, dünya ora axışdı – Almaniya da daxil olmaqla!

**Qeyd**. Kapitalist dünya ilə yarışa girən SSRİ elm və sənayeni yüksək səviyyəyə çatdırmadan işkişaf edə bilməyəcəyini anlamış, ali məktəblərlə yanaşı müxtəlif sahələrdə elmi-tədqiqat institutlarını özündə birləşdurən Elmlər Akademiyası yaratdı. Elmi dərəcə sistemində də SSRİ fərqli olmağa cəhd etdi – 1934-cü ildə iki pilləli elmi dərəcə sistemi daxil edildi – elmlər namizədi və elmlər doktoru. Əslində bu yenilik Qərb dünyasında mövcud olan vahid PhD dərəcəsinin quruluşunu təftiş etməklə meydana çıxmışdı; Avropa və Amerikada PhD proqramı iki hissəyə ayrılırdı – doktoranturada təhsil alan bütün zəruri imtahanlarını uğurla verdikdən sonra ona *doktorluğa namizəd* deyilirdi və o, bundan sonra ancaq dissertasiya yazmaqla məşğul olurdu. SSRİ doktorluğa namizədi elmlər namizədi adı altında ilkin elmi dərəcə kimi daxil etdi; elmlər namizədi olan şəxs istəsə (bacarsa) yeni dissertasiya yazıb elmlər doktoru adlı daha yüksək elmi dərəcə ala bilərdi. Keçmiş Sovet respublikalarının bir qismi inkişaf etmiş dünya ilə səsləşən vahid PhD elmi dərəcə sisteminə qayıtdı.

## Texnoloji tərəqqi və araşdırma universiteti

Sənayenin mürəkkəb texnoloji əsasları, texnologiyanın ağlagəlməz sürətlə inkişafı ali təhsilin vacibliyini bir daha vurğulayır, uğur qazanmaq yolunda yaxşı ali təhsil almağın zəruriliyini göstərir. Üstəlik, elmi-texnoloji tərəqqini anlamaq və tətbiq etmək üçün ilkin ali təhsil – bakalavr dərəcəsi kifayət etmir. Araşdırma universiteti bakalavr səviyyəsində deyil, magistr və doktor səviyyələrində tələbə qəbul etməyi və yetişdirməyi (graduate study) üstün tutur. Bir ildə doktor dərəcəsi alanların sayı araşdırma universitetinin ən mühüm göstəricilərindən biri sayılır (digəri elmi əsərlər olmaqla). Bununla yanaşı, araşdırma universitetində bakalavr təhsili araşdırma elementləri ilə zənginləşdirilir, araşdırma əsaslı tədrisə meyl güclənir, araşdırma ilə tədris mümkün dərəcədə bir-birinə qovuşdurulur. Araşdırma universitetindəki bakalavr təhsili araşdırma və yazı qabiliyyətini inkişaf etdirməklə, müəyyən elmi və praktik layihələr həyata keçirməklə magistratura və doktorantura üçün hazırlıq mərhələsi rolu da oynayır. Araşdırma universiteti yeni fənlər və ixtisaslaşmalar irəli sürməkdə də lider rolu oynayır; bu yenilikləri yalnız ali təhsilin, elmin və texnologiyanın ön sıralarında fəaliyyət göstərənlər görüb, daxil etmək iqtidarında olurlar. Araşdırma universiteti digərləri ilə müqayisədə daha beynəlmiləl yönlüdür, onun cazibəsi uzaqdan da görünür. Araşdırma universitetinin universitet-sənaye işbirliyində uğur qazanma və maliyyə qaynaqlarını cəlb etmə (fundraising) imkanı daha böyükdür.

Dünyanın dəyişməsini iqtisadi, elmi-texnoloji və mədəni terminlərlə öyrənmək, təsvir və şərh etmək mümkündür. Aqrar iqtisadiyyat (Agricultural economy), Sənaye iqtisadiyyatı (Industrial economy), Bilik iqtisadiyyatı (Knowledge economy) kimi bir-birini izləyən iqtisadi dövrlər dilində Dünya rifah tarixini yazmaq olar. Sənayenin inkişafı, güclü texnologiyaların icadı və tətbiqi dünyanın mənzərəsini kəskin şəkildə dəyişdirir – Buxar gücü dövrü (Steam era), Elektrik dövrü, Atom dövrü, təsvirəgəlməz Yeni Texnoloji Dövr (biotexnologiya, nanotexnologiya, genetik mühəndislik, mikroelektronika, internet, süni intellekt ...) kimi ardıcıl inqilabi dövrlərdən söhbət açmaq mümkündür. Çağdaş zamanımız üçün elm və texnologiya həlledicidir, əsasdır, iqtisadiyyat və məişət yenilikləri törəmədir. Universitet və texnoloji inkişaf əl-ələ tutub irəliləyirlər; biliyin kommersiyalaşdırılması və sənayeləşməsi çox mühüm gücdür, texnoloji transfer universitetlə iş dünyasını və texnologiyanı bir-birinə bağlayır. Elm və texnologiya mədəniyyətə də ciddi təsir edir. Fərdi, inzibati və akademik mədəniyyətlər birbirinə qovuşur. Araşdırma universiteti yeni bilik yaratdığı üçün daha yaradıcı və mədəni mühitə malik olur, tələbənin istedadının açılmasına və inkişafına təkan verir. Araşdırma universitetində akademik güc inzibati gücə güclü təsir edir.

# Araşdırma gücünü necə ölçməli?! Amerika təcrübəsi

Araşdırma universiteti hansı əlamətlərinə görə digərlərindən açıq-aşkar seçilir? Araşdırmanın birbaşa nəticəsi və təzahürü nüfuzlu jurnallarda dərc olunan məqalələrdir, belə məqalələrin miqdarı və keyfiyyətidir (bu məqalələrdən alıntı edən keyfiyyətli məqalələrin sayıdır – citations). Digər tərəfdən, araşdırma universiteti tədrislə, yüksək səviyyəli, elit kadr hazırlamaqla məşğuldur. Bu işdə doktorantura ön plana çıxır, həmçinin magistratura güc qazanır. Yüksək dərəcə təlimi (Graduate Study), xüsusilə doktorantura araşdırma üzərində qurulur, bitmiş elmi iş olan dissertasiyanın müdafiəsi ilə, elmi dərəcə almaqla tamamlanır.

ABŞ-da dünya səviyyəli universitetlər nəyə deyilir, onlar nə ilə fərqlənirlər? Ali məktəbləri bir-biri ilə necə müqayisə etmək, bənzər olanları necə müəyyən etmək, onları bir qrupa cəmləmək, yəni ali məktəblərin təsnifatını necə aparmaq olar? Ən güclü ali məktəbləri, ən yuxarı sinfə daxil olanları hansı ideyalar əsasında müəyyən etmək olar? Elmi-texnoloji tərəqqi Avropada başlasa da, 20-ci əsrdə ABŞ əksər sahələrdə birinci oldu, yeni ideyaların çoxu və onların həyata keçirilməsi əsasən ABŞ-da baş verdi. Elmi-texnoloji tərəqqinin aparıcı qüvvəsi olan ali təhsil ocaqları da ABŞ-da daha sürətlə inkişaf etdi (bir az geniş düşünəndə Anqlo-Sakson ölkələrində).

Polad kralı Andrew Carnegie`nin təsis etdiyi (1905) "Tədrisin inkişafı naminə Carnegie Fondu" ("Carnegie Foundation for the Advancement of Teaching") tərəfindən yaradılan "Ali Təhsilə aid Carnegie Komissiyası" ("Carnegie Commission on Higher Education") 1970-ci ildə ali məktəblərin təsnifatı ideyası üzərində çalışmalara başladı və 1973-cü ildə ilk təsnifatı – Ali məktəblərin Carnegie Təsnifatını (Carnegie Classification) elan etdi. Bu təsnifatın yuxarı pillələrində araşdırma universitetləri dayandı, onları yaxşı elmi jurnallarda dərc olunan məqalələrin sayı və keyfiyyəti kimi əlamətlərə görə deyil, bir il ərzində dissertasiya müdafiə etmiş doktorantların sayına görə sıraladılar. Ən yuxarı pilləyə "Research I universities" adı ilə bir ildə 50 və daha çox doktor (PhD) dərəcəsi almış ali məktəblər daxil edildi. O zaman ABŞ-da bu cür 59 ali məktəb vardı. Sonrakı 1976, 1987, 1994, 2000, 2005, 2010, 2015, 2018 və 2021-ci illərdə müəyyən dəyişmələrlə uyğun təsnifat elan edildi [5].

2015-2018-ci illərdə (və 2019-2021-ci illərdə davam etməklə) doktor dərəcəsi verən universitetləri (Doctoral Universities – DU) üç kateqoriyaya böldülər:

R1 – Doktoral universitetlər (Doctoral universities) – Çox yüksək araşdırma fəallığı olan (Very high research activity). 2021-ci ildə 146 ali təhsil institutu belə idi.

R2 – Doktoral universitetlər – Yüksək araşdırma fəallığı olan (High research activity). 2021-ci ildə 133 ali təhsil institutu belə idi.

D/PU – Doktoral /Peşəkar universitetlər (Doctoral/Professional universities). 2021-ci ildə 187 belə ali təhsil institutu vardı.

R1 və R2 – kateqoriyalarına daxil olan ali məktəblərin 2019/2020-ci tədris ilində ən azı 20 araşdırma təqaüdlü doktorluq təltif etmələri və araşdırma üçün ən azı 5 milyon $ (dollar) xərcləmiş olduqları barədə hesabat vermələri tələb olunur. Göründüyü kimi, ümumiyyətlə doktorluq dərəcəsi alanların bir hissəsinin hansısa qaynaqdan təqaüd almış (research-scholarship) olmaları vacib sayılır.

Bəs R1 və R2 bir-birindən nə ilə fərqləndirilirlər? Xüsusi "Research activity index"-ə görə; bax: [5].

D/PU – kateqoriyasına təqaüdlə oxuyan araşdırma doktor-məzunların sayı 20-dən az olmaqla ildə azı iki proqram üzrə azı 30 peşəkar praktika-doktor dərəcələri verilməlidir (below 20 research/scholarship doctoral degrees that awarded at least 30 professional practice doctoral degrees in at least 2 programs).

ABŞ-da 2022-23-cü tədris ilində 3722 ali məktəb fəaliyyətdə olub, onlardan 2488 - i dörd il və daha artıq təhsil verən (716 – public, 1772 – private), 1234 - ü iki illik kolleclərdir (854 - public, 380 - private) [6].

2025-ci ildə R1 belə təyin ediləcək: a) 50 milyon $ araşdırma xərcləri (have $ 50 million in research expenditures), b) 70 araşdırma doktoruna qrant verilir (grant 70 research doctorate).

Bu qədər təriflənən ABŞ universitetlərinin vəziyyətinin yaxşı olmadığını irəli sürənlər də az deyil. ABŞ araşdırma universitetlərinin müəyyən böhran yaşadığı barədə müzakirələr gedir, narahatlıq hökm sürür, federal hökumətin və xüsusilə ştatların ali təhsilə ayırdıqları maliyyənin azaldığı, təhsil haqlarının göylərə qalxdığı vurğulanır, sanki problemlərin həlli yolu görünmür [7].

Araşdırma doktorantların (çoxsaylı professional doktor dərəcələri – J.D., M.D., D. Mgt, D.B.A., Ed.D., Psy.D, D.M., D.M.E., D.S.W. və s. bura daxil edilmir) sayı ABŞ-da necə dəyişir? 2022-ci ildə ABŞ-da bütövlükdə 57596 araşdırma doktor dərəcəsi qazanılıb (2002-də bu rəqəm 40031 idi). 2002-ci illə müqayisədə Təbiət elmləri (Science) və Mühəndislik (Engineering) üzrə doktor dərəcəsi alanların (doctorate recipients) sayı 74% artıb, qeyri sahələrdə isə uyğun say həmin dövrdə 13% azalıb. Beləliklə, 2002-ci ildə Təbiət elmləri və Mühəndislik üzrə doktor dərəcəsi alanlar bütün sahələr üzrə doktor dərəcəsi alanların 65%-ni təşkil edirdilər, 2022-ci ildə isə bu nisbət 79%-ə yüksəlib. 2022-ci ildə araşdırma doktor dərəcəsi alanların sayı və bu saylara görə ilk üç yerdə duran və bir neçə sonrakı ABŞ universitetləri aşağıdakılardır: 1. University of Michigan – 861; 2. Stanford University – 836; 3. University of California at Berkeley – 830; 11. Harvard  - 753; 14. MIT – 735; 28. Cornell – 509; 29. Johns Hopkins – 507. Doktor dərəcəsi verən 457 ali məktəb olduğu nəzərə alınsa,  belə ali məktəb ortalama 126 araşdırma doktor dərəcəsi verir. Ümumiyyətlə, 2022-ci ildə R1 kateqoriyasına daxil olanlar 45592, R2– 7466, DPU kateqoriyasında olanlar 2101 doktor dərəcəsi vermişlər. 2022-ci ildə ABŞ-da müxtəlif ölkə vətəndaşları neçə araşdırma doktor dərəcəsi almışlar? İlk 4 yer: Çin – 6664 (ümumiyyətlə, ABŞ-dakı bütün xarici tələbələrin 1/3-ü), Hindistan – 2671, C. Koreya – 1071, İran – 859. Daha bir neçə ölkə üzrə rəqəmlər: 5. Bangladeş – 551, 6. S. Ərəbistanı – 493, 9. Türkiyə - 354 və sonra Nigeriya – 295, Pakistan – 166, Misir – 143 [8].

## İrəlidə gedənlərə necə çatmaq?! Çin Xalq Respublikasında Araşdırma Universiteti

Universitet kimi güclənmək, güclü araşdırma universitetləri sırasına daxil olmaq üçün nə etmək lazımdır? Geridə qalan irəlilədikcə, ondan xeyli irəlidə olanlar daha sürətlə irəli getmirlərmi? Bu halda geridə qalan nisbətən qısa zamanda necə uğur əldə edə bilər? Asta-asta, arxayın-arxayın xırda addımlar atmaqla ciddi bir şey əldə edilməz. Sıçrayışla inkişaf etmək!? (Leapfrog Development!?) Sıçrayış ideyası üzərində strategiya qurmaq?! Mümkün olanı və gerçəkliyi düşünmək və bu istiqamətdə hərəkət etməklə yanaşı ideal və gələcək barədə düşünmək və ona doğru getmək – bunsuz inkişaf olmaz. Araşdırma sahələri arasında seçim etmək, onları çox vacib, vacib, orta kimi qiymətləndirmək lazımdır. Çox geniş spektrdə, çox sahədə çox güclü olmaq mümkün deyil. Yüksək səviyyəli araşdırma universitetinə çevrilmək üçün universitetin hər üzvü, hər bölümü məqsədə gedən yolun yolçusu olmalıdır.

Çin təcrübəsi ibrətamizdir. 1970-ci illərin sonunda Çin hökuməti islahat və açılma siyasətinə başladı. 1980-ci illərdə Çində Qərbsayağı təhsil-elm (akademik) dərəcələri qəbul edildi. Doktorluq proqramına daxil olan şəxsə kim elmi rəhbər ola bilər? Bu haqq nüfuz göstəricisinə çevrildi, doktorantın elmi rəhbəri (superviser of doctoral students) mərkəzi hökumət tərəfindən verilən və elm adamının öz biznes kartında qeyd etdiyi bir titul oldu.

"Dünyanın ən yaxşı universitetlərinin əksəriyyəti ABŞ-dadır" – bu fikir Çində hakim olduğundan Çində ali təhsili yüksək səviyyəyə qaldırmaq üçün Amerika təcrübəsini təhlil etmək, ondan bəhrələnərək bənzər yolu keçmək qərara alındı və müəyyən  dövlət proqramları hazırlandı. Bu yolun araşdırma universitetləri qurmaqdan keçdiyi və onların bəzilərini sonra dünya səviyyəli (world-class) etməyin mümkünlüyü vurğulandı. Uzun vədəli məqsəd olaraq dünya səviyyəli universitetlərə malik olmaq, bunun üçün önşərt (prerequisite) olaraq yüksək səviyyəli (high-level) araşdırma universitetləri qurmaq fikri ilə hərəkətə keçildi.

1995-ci ildə Çin hökuməti ali təhsilin inkişafına yönəlmiş "Layihə 211"-i elan etdi. Bu layihə

21-ci əsrdə 100 Çin universitetinin dünyanın güclü universitetləri sırasına daxil olması üçün islahat və sərmayə planı idi. "211" sayı "**21**" (əsr) və "100"-ün birinci rəqəmi olan "1"-in yan-yana düzülüşüdür. Son nəticədə "Layihə 211" Çinin 116 universitetini əhatə etdi. Bu layihə 2016-cı ilə qədər davam etdi.

1998-ci il may ayının 4-də Peking universitetinin 100 illik yubiley mərasimində "Layihə 985" ideyası yarandı (və 1999-cu ildə işə başlanıldı). Çində "Dünya səviyyəli universitetlər"in inkişafı məqsədilə 39 yaxşı ali məktəb seçildi. Layihədəki "985" sayı "**98**"-ci ilin "**5**"-ci ayını göstərən rəqəmlərin yan-yana düzülüşüdür. Seçilmiş universitetlərə laboratoriya və elmə-tədrisə vacib olan digər qaynaqları təmin etmək, araşdırma mərkəzləri yaratmaq, beynəlxalq konfranslar təşkil etmək, güclü xarici alimləri dəvət etmək, çinli alimlərin konfranslara gedişinə kömək etmək üçün sərmayə ayrıldı. Bu layihə də 2016-cı ilə qədər davam etdi.

Elə həmin gün (4 may 1998) Çinin 9 güclü universiteti (Peking, Tsinghua, Fudan və b.) "C9 Liqası" ("C9 League") adlı formal bir qrup yaratdı. Elə bu "Seçilmişlər və ya "Kübarlar" qrupu da çox inkişaf etmiş ölkələrdə mövcud olan yüksək liqa ali məktəb qruplarına oxşadılaraq yaradıldı. Ən tanınmış qruplar: ABŞ-da American Association of Universities (AAU) və 8 ali məktəbi birləşdirən Ivy League, UK-də Russell Group (1994: 17, 2012: 24 üzv), Almaniyada U15 (2012), Avstraliyada Group of Eight (1999), Avropada League of European Research Universities (2002: 12 üzv, 2024: 24 üzv), Yaponiyada RU 11 (2009: 9- public, 2- private), Kanada`da U15 (1991: 10, 2011:15), Çin, Hong Kong, Macau, Taiwan, Japan, S Korea-da fəaliyyət göstərən 19 ali məktəbdən ibarət Association of East Asian Research Universities (1996).

2003-cü ildə ali təhsil islahatları üzrə mütəxəssislər Çin ali məktəblərinin inkişaf etmiş ölkələrdəki araşdırma universitetlərindən geridə qaldığını bir daha qeyd etdilər: "Çin araşdırma universitetləri ilə onların xarici tərəf-müqabilləri arasında böyük ara var" ("There is a big gap between China`s research universities and foreign counterparts") [9].

Çin hökuməti universitetləri gücləndirmək siyasətini durmadan davam etdirdi. 2015-ci ildə Çinin 140 universitetini 2050-ci ildə dünyanın 1-ci sinif, yəni ən güclü ali məktəbləri sırasına daxil etmək proqramı irəli sürüldü – "Double-First-Class Construction" (İkiqat-Birinci-Sinif Quruluşu/Yaradılması) və bu, 2016-cı ildən həyata keçirilməyə başlandı. Birinci sinif universitetlərlə yanaşı bu layihəyə "Birinci sinif Akademik Fənlər" yaratmaq işi də daxil edildi; ikiqat (double) sözü buradan gəlir. 2022-ci ildə bu siyahıya daha 7 universitet əlavə olundu (bu zaman Çində 3012 ali məktəb vardı). Eyni zamanda 140-lar arasında olan 15 ali məktəbə işlərinin yaxşı olmadığı barədə xəbərdarlıq edildi.

## Çin`in sıçrayışı

2000-ci ildə ABŞ-da təbiət elmləri, texnologiya, mühəndislik və riyaziyyat (STEM) üzrə doktorant tələbələrin sayı 18289, Çində isə 9038, yəni təqribən onun yarısı qədər idi. Bu sahələr üzrə araşdırma doktorant sayı, əgər keyfiyyətə şübhə yoxsa, adətən ölkədə, eləcə də aid olduğu universitetdə elmin səviyyəsini göstərən çox mühüm amil kimi qiymətləndirilir (yuxarıda gördüyümüz kimi, xüsusilə ABŞ-da). 2007ci ildə isə Çində həmin STEM üzrə doktor (PhD) dərəcəsi alan şəxslərin sayı ABŞ-dakı uyğun sayı keçəndə (həmişəlik! [10]), bu, elm və təhsillə bağlı ABŞ cəmiyyətində "Amerika Faciəsi" kimi qiymətləndirildu. 2019-cu ildə bu saylardakı fərq artdı: ABŞ-da 33759, Çində - 49498. Son illər ərzində fərq Çinin xeyrinə sürətlə böyüməkdədir; 2025-c il üçün rəqəmlər belə görünür : 39959 və 77179.

2009 - cu il "Times Higher Education" ali məktəb sıralamasında ilk 100 universitet arasında iki Çin ali məktəbi – Peking və Tsinghua universitetləri vardı – uyğun olaraq 49 və 52-ci yerdə. 2015-cu ildə 5-7 addım irəli gedildi – 42 və 47. Son 2025-ci il sıralamasında Çin`in "C9 Liqası"nın 9 üzvündən 7-si ilk yüzlüyə (ilk 65-liyə!) daxil oldu, üstəlik Tsinghua 12-ci, Peking 13-cü olmaqla dünya məşhurları sırasında oturdular! (Johns Hopkins, Columbia, Cornell kimi məşhurları arxada qoydular). Daha 6 Çin universiteti ikinci yüzlükdə yer aldı. Əlavə olaraq,

Hong-Kong`dan 4 universitet ilk yüzlüyə, Taiwan və Macao – hərəsindən bir universitet 2-ci yüzlüyə daxil ola bildi. Müqayisə üçün bir misal: bir zamanlar dünyanın ən məşhurları sırasında yer tutan Lomonosov Moskva Dövlət Universiteti 107-ci yerlə kifayətlənməli oldu. Çin ali təhsil sistemi barədə geniş məlumat üçün xüsusi ədəbiyyata müraciət edilməlidir [11-21].

Çin elmi, təhsili və texnologiyasını gücləndirib dünya liderlərindən biri halına gətirən ən mühüm amillərdən biri Çin hökumətinin universitetləri inkişaf etdirən proqramları isə, digəri çinlilərin nizamlı və çooox çalışqan olmaları ilə bağlıdır. Amerika və Avropada oxuyan çinli tələbələr, adətən, ən yaxşı tələbə sayılırlar, çox çalışqan olmaqla onlar qabiliyyətlərini maksimum aça bilirlər. Sual yaranır (çinli olmayan, məsələn, azərbaycanlı tələbələr və əlbəttə, universitetlər üçün): tələbələri çalışqanlığa necə öyrətməli? Zənnimcə, bu iş universitetin ciddiliyi, gücü ilə bağlıdır, güclü ali məktəbdə çalışan, dərs deyən və araşdırma aparan elm adamı ciddi biliklər verməli, tələbədən o bilikləri yaradıcı surətdə mənimsəməsini tələb etməlidir! Təəssüf ki, tələbəyə yüngül dərs materialı verməklə, ona yaxşılıq etdiyini düşünən müəllim-alimlər mövcuddur...

## Araşdırma Universiteti və Sənaye. Amerika təcrübəsi

Ali məktəb ətraf dünya ilə daimi əlaqədədir. Elm sərhəd tanımır, elm adamı araşdırma apardığı sahə üzrə dünyaya səpələnmiş mütəxəssislərin əsərlərini öyrənir, onların bir qismi ilə tanış, bəziləri ilə həmmüəllif ola bilir. Universitetlərarası əlaqələr elm və təhsil dünyasında ən geniş yayılmış hadisədir. Təbiət elmləri, həyat elmləri, mühəndislik, iqtisadiyyat və tətbiqi tərəfi olan digər elm sahələri üzrə araşdırma aparan və mütəxəssis hazırlayan ali məktəblər sənaye və texnologiya ilə bağlı işlər görməyə, nəzəriyyə ilə praktika arasında körpü salmağa çalışırlar.

"Texnopark" (və ya "Elm və texnologiya parkı") universitet və sənayeni bir-birinə yaxınlaşdıran, araşdırma və inkişaf yönlü biznes işi ilə məşğul olan qurumdur, yenilikçi fikirlərə ehtiyac duyan "şirkətlər evi"dir. Texnopark tətbiqi sahələrlə məşğul olan elm adamı, mühəndis, iş adamları və sərmayəçilərin (yatırımçıların) işbirliyi məkanıdır və yeni ideyaları həyata keçirmək üçün şirkət qurma fəaliyyəti ilə seçilir. Texnopark tətbiqi bilik mərkəzidir, çoxu kağız üzərində olan ideyaların həyata keçdiyi yerdir. Texnopark, adətən özəl təşəbbüsün məhsuludur, bununla yanaşı hökumətin doğru siyasəti və dəstəyi ilə güc qazanır. Texnopark həm bazar iqtisadiyyatının, həm də elm və texnologiyanın zəfəri sayılır.




*Sahə:~ 4800 km ²*
*Əhali:~ 3 milyon*

Silicon Valley (Silikon / Silisium vadisi) dünyada ilk və ən məşhur universitet texnologiya parkıdır. 1951-ci ildə Stanford universiteti öz maliyyə problemlərini həll etmək və həmçinin məzunlarını perspektivli işlə təmin etmək üçün öz geniş torpaq sahələrini (267 ha) texnologiya sahəsində fəaliyyət göstərən şirkətlərə kirayə verməklə Silikon vadisinin əsasını qoydu. Stanford universiteti mühəndislik fakültəsinin dekanı Frederick Terman müəllim və tələbələrə "şirkət qurun" dedi və bu yerə ancaq yüksək texnologiya şirkətlərini dəvət etdi. Startups başladı! Üstəlik, Stanford U ilə şirkətlər arasında belə bir müqavilə imzalandı: şirkətlərin tam ştatda olan (full-time) işçiləri iş yerlərini tərk etmədən (part-time) Stanford universitetində magistr və doktor proqramlarına daxil ola bilərlər; şirkət belə tələbələrə təhsil haqqının iki misli qədər pul versin ki, onlar yaşaya bilsinlər!

1953-cü ildən başlayaraq şirkətlər bura gəlməyə başladılar. "Texnopark tarixi bu yerdən, bu zamandan başlayır" demək mümkündür. Əslində isə 1939-cu ildə təsis edilmiş Hewlett-Packard Silikon vadisi adlanacaq bu məkanın ilk yüksək texnologiya şirkəti sayıla bilər. İki Stanford elektrik mühəndisliyi məzunu – William R. Hewlett və David Packard 1938-ci ildə Palo Alto`da (San Francisco Bay Area) Packard`ın qarajında ilk audio ossilyator (generator) – müəyyən xarakteristikalı elektrik, səs siqnaları yaradan, ötürən və ölçən cihaz hazırladılar. Onlar öz adları ilə HP adlanacaq gələcəyin nəhəng informasiya-kommunikasiya şirkətini də burada təsis etdilər (şirkətin adı HP ya PH olsun? – bunu püşk atmaqla müəyyən etdilər). İndi həmin qaraj tarixi yer – Silicon Valley`in doğum yeri elan olunub! Maraq üçün qeyd edim ki, Disney, Apple, Google, Amazon kimi nəhəng şirkətlər də qarajda işə başlamışlar...



*Hamlet İsaxanlı Silikon / Silisium vadisində*

Tranzistoru (elektrik cərəyanlarını tənzimləyən cihazı) ilk ixtira edən və 1956-cı ildə Nobel mükafatı alan üç şəxsdən biri – William Shockley elə həmin il Shockley Semiconductor Laboratory şirkətini Silikon Vadiyə gətirdi. Frederick Terman və William Shockley məşhur Silikon Vadi`nin iki atası sayılırlar. Lakin, deyilənə görə idarəetmədəki hökm üsulu və irqçiliyi, həmçinin silisium əsaslı yarımkeçiricilərlə məşğul olmaq istəməməsi şirkətin səkkiz qabiliyyətli üzvünün ayrılıb, Fairchild Semiconductor şirkəti qurmaları ilə nəticələndi. W. Shockley onları "Traitorous Eight" (xain səkkizlər) adlandırdı. Yarımkeçirici kimi istifadə olunan germanium (atom nömrəsi - 32) qısa zamanda yüksək təmiz silisiumla (atom nömrəsi -14) əvəz edildi. Silisium germaniumla müqayisədə daha ucuz əldə edilir – qum və geniş yayılmış kvars mineralı əsasında). Həmin səkkizlərdən ikisi sonralar bir sərmayəçi ilə birlikdə texnologiya nəhəngi –"İntel"i qurdu (1968-ci il).

Mikroelektronika inqilabı zamanın şəklini və ruhunu dəyişdirdi. Buxar maşını fiziki gücü, yarımkeçirici texnologiyası intellektual gücü inkişaf etdirdi. San Francisko`dan cənubda böyük ərazidə yerləşən Silikon vadidə təqribən yarım milyon insan çalışır. İntel, Yahoo!, Oracle burada yarandı. General Electric və Kodak bura gəldi. Xerox, Cisco sistemləri, Apple (Makintosh, iPod, iPhone, iPad, iTunes), Microsoft burada böyük vüsət aldılar. 1998-ci ildə iki Stanford PhD tələbəsi texnoloji cəhətdən əvvəlkilərdən daha effektiv internet axtarış sistemi nəhəngi olacaq Google şirkətini təsis etdi; hazırda 182,502 tam ştat işçiyə malikdir [22].Yarımkeçiricilər sahəsində böyük uğurlar qazanan Silikon vadi kompüter programları (software) və internet işində də dünya mərkəzinə çevrildi. ABŞ üzrə vençur (sturtuplar quran, maliyyələşdirən) sərmayənin təqribən 1/3 - i Silikon vadidədir (2021-ci ilin məlumatı). ABŞ-da bu sahədə vergi azdır, üstəlik, California hökuməti də əlavə güzəştlər daxil etdi. Təqribən 4800 km$^2$ sahəsi olan

Silikon vadidə 3 milyon ətrafında insan yaşayır. Silikon vadi adambaşına düşən milyarder və milyonerlərin sayına görə də dünya birincisidir: 85 milyarder, 163,000 milyoner! Stanfordla yanaşı University of California, Berkeley də Silikon Vadinin mühüm beyin mərkəzlərindən biridir.

Digər böyük universitet-sənaye birliyi 128-ci Boston yolunda (The Boston Route 128) yaradıldı. MIT biznes startups fəaliyyəti bu işdə həlledici rol oynadı. Bu yüksək texnoloji parkda bio-tibbi texnologiya, informasiya texnologiyası və digər sahələr inkişaf etdi. MIT-dən törəyən və dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən 4000 ətrafında şürkətin varidatı (revenue) $232 milyarddır! Harvard və Boston Universitetləri də 128-ci Boston yolunda güc sərf etdilər.

## Amerikadan uzaqda. "Rus sindromu"

ABŞ, Avropa, Yaponiya, Çin, Hindistan, İsrail, Taiwan, Singapore,Yaponiya, Cənubi Koreya, Hong Kong və digər yerlərdə qurulan texnoparklar böyük uğur qazandılar. Hindistan yüksək texnologiyalar, elektronika, xüsusilə informasiya texnologiyaları sahəsində dünyanın qabaqcıl məkanlarından birinə çevrildi. "Fil rəqs etməyi öyrəndi, üstəlik hamıdan yaxşı" – kiminsə söylədiyi bu ifadə həqiqəti əks etdirir. Bangalore Elektron Şəhəri Hindistanın silikon vadisi, "2-ci Silikon Vadi" adlandırıldı. Amma 2-cilik uğrunda böyük yarış var.

Texnoloji inkişaf üzrə Rusiyanın acı, neqativ təcrübəsindən, "Rus sindromu"ndan söhbət açmaq Keçmiş Sovet ölkələrini anlamaq baxımından da maraqlı görünür. Bu neqativ təcrübə haqqında MIT-nin professoru Loren Graham`ın müşahidələri maraqlıdır [23]. Müəllifin bəzi fikirlərini xülasə etməyə çalışacam. Rusiya və ya daha geniş baxışda SSRİ musiqi və ədəbiyyatda, incəsənət və fundamental (nəzəri, təməl) elmlərdə, kompüter proqramlaşdırma (software) kimi sahələrdə böyük uğur qazanıb, yəni zehnin, zəkanın məhsulu ilə güclüdürlər. Mühüm səbəb bu sahələrdə böyük sərmayə və ya böyük komanda işi olmadan, korrupsiyasız uğur qazanmağın mümkünlüyüdür. Amma, texnologiyada xüsusi seçilən "Made in Russia" markası varmı? Yox. Nə üçün Rusiya yüksək texnologiyalarla bağlı tətbiqi sahələrdən uzaq qalıb, nə üçün Rusiyanın yüksək elmi var, amma rus kompüteri, rus mobil telefonu,...yoxdur?! Elm var, amma ölkə tam xarici texnologiyadan asılıdır. Bu səbəbdən də Rusiyaya qarşı tətbiq edilən sanksiyalar ciddi təsir gücünə malikdir. Rusiya iqtisadiyyatı yüksək texnologiya üzərində qurulmayıb, neft və qazdan asılıdır. Silah, dəmir yolu, elektrik sənayesi, aviasiya sənayesi, yarımkeçiricilər sənayesi, genetika, biotexnologiya, kompüter və lazerin kəşfi üzrə Rusiya (və SSRİ) irəlidə olsa da, uyğun ideyaların praktikada həyata keçirilməsi Qərb dünyasında baş verib. Kalaşnikov avtomat silahı çox populyar olsa da, o yazıq bu ixtirasından şəxsən böyük qazanc əldə etməyib. "O, üçüncü mərtəbədə, liftsiz evdə... çox sadə, adi həyat sürür. Ölkə özü də lazım gələni almadı, çünki Kalaşnikov avtomatının hazırlanması üçün lisenziyanı heç nəyə, çox ucuz satırdı («Он живёт очень скромно, на третьем этаже без лифта, с женщиной, которая за ним ухаживает. Но сама страна тоже недополучила, потому что за бесценок продавала лицензии на изготовление автомата Калашникова») [24].

1950-60-cı illərdə əsasən rus alimləri Nikolay Basov və Aleksandr Proxorov`un və ABŞ-lı Charles Townes`un əməyi sayəsində Lazer texnologiyası inkişaf etdirildi, 1964-cü ildə hər üç alim bu kəşfə görə Nobel mükafatına layiq görüldülər. Ch. Townes tez patent aldı, satdı, nəticədə Amerika şirkətləri lazerin tətbiqləri üzrə böyük işlər gördülər. Ruslar nə etdilər? Onlar lazerin kommersiyalaşması üçün heç cəhd etmədilər. Daha bir misal olaraq indi "fracking" və ya hidravlik parçalama (qırma) adlandırılan dərin qazma sistemini göstərmək olar; bu iş su, qum və kimyəvi maddələrin yüksək təzyiqlə dərin qatlara vurulmasına əsaslanır. Ruslar bu barədə elmi jurnallarda hamıdan əvvəl yazdılar, lakin bunları həyata keçirən, tətbiq edənlər BP, Chevron, Exxon kimi şirkətlərdir; indi onlar ruslara (və dünyaya) dərs keçirlər.

Rus alim və ixtiraçılarına görə biznes korrupsiya, çirk deməkdir, alim ona yaxın getmək istəmir və ya gedə bilmir. Amerikada uğurlu iş adamı milli qəhrəmandır (Edison, Bill Gate, Steve

Jobs,...). Rusiyada isə cəmiyyət ixtiraçını qiymətləndirmir, dövlət böyük biznesə rəqib kimi baxır. İqtisadi sistem sərmayə qoyma imkanına kömək etmir, həvəsləndirmir. Hüquq sistemi intellektual mülkiyyəti qorumaq işində zəifdir. Korrupsiya işə mane olur, siyasi və sosial mühit işi dəstəkləmir. Ümumilikdə mentalitet özəl işə mane olur. Rusiyada qurulmaqda olan Skolkovo adlı mərkəzi dövlət texnoparkı dövlət təşəbbüsüdür, biznesin öz təşəbbüsü deyil, özəl sərmayə deyil və bu baxımdan böyük nəticə əldə ediləcəyi şübhə doğurur.

## Dünyanı dəyişdirən zəka və süni intellekt

İnsan öz fiziki imkanlarına görə canlılar arasında ən yaxşılardan biri deyil, insandan daha iri, daha güclü, daha sürətlə qaçan, daha uzağı görən, daha yaxşı eşidən heyvanlar mövcuddur. İnsandan fərqli olaraq suda yaşaya bilən və havada uça bilən çox canlılar var. Lakin zəka gücünə görə insan canlıların hər növündən müqayisə olunmayacaq qədər qüdrətlidir. İnsan zəkası ilə qorundu, yaşadı, inkişaf etdi, dünyanı öyrəndi və dünyanı dəyişməyə başladı. İnsan teleskop və mikroskopu kəşf etməklə kainatı və gözəgörünməz molekul və hüceyrələri müşahidə edə bildi. Buxar maşını, elektrik, daxili yanma mühərriki kimi icadlarla özündən qat-qat güclü maşınlar, yerdə, göydə və suda hərəkət edən sürətli nəqliyyat vasitələri düzəltdi, qaranlığı işıqlandırdı, yeni enerji qaynaqları əldə etdi. Elektronika və atom fizikasını kəşf etməklə insan uzaqdan ünsiyyət vasitələri icad etdi, teleqraf, radio, televiziya, telefon yarandı.

Texnoloji inkişaf get-gedə "ağıllı" maşınlar üzərində cəmləşdi. İnsan ağlının gücü çatmayan və ya çox uzun zaman tələb edən hesablamaları çox qısa zamanda həyata keçirə bilən kompüter 1940-cı illərdə meydana girdi. Kompüter "ağır-maddə"dən (hardware) və "yumşaq-maddə"dən, yəni ağıldan-proqramdan (software) ibarətdir. Ağıl-program deyilən şey binar kod (binary code), yəni iki işarə ilə yazılmış göstəriş-proqramdan (software) ibarətdir. Bu iki işarə olaraq 0 və 1 rəqəmlərini götürmək ənənəsi mövcuddur. Baxılan məsələni həll etmək üçün sonlu sayda göstərişlər ardıcıllığını, yəni alqoritmi kod vasitəsilə yazmaq, yəni proqram yazmaq, tərtib etmək lazım gəlir. 0 və 1, yəni binar kod (binary code) vasitəsilə yazılmış informasiyanın (göstərişin, proqramın, software) kompüterdə oxunması üçün elektrik cərəyanının "yox" (off) vəziyyətinə 0, "var" ("on") vəziyyətinə 1 rəqəmi qarşı qoyulur. Tranzistor bu işi görür – elektrik cərəyanını qoşur və ya söndürür, yəni 1 və 0 göstərişini yerinə yetirir. Mikroçipdə, kiçik silisium parçasında milyonlarla tranzistor ola bilir. Bu, qısa zamanda milyonlarla komandanın yerinə yetirilməsi deməkdir.

1969-cu ildə başlanan internet, məlumatların kompüterlər arası ötürülmə şəbəkəsi 20 il sonra ümumdünya www (world-wide-web, yəni dünyanı bürüyən hörümçək) şəbəkəsinin qurulması ilə nəticələndi. Kompüter və onun tətbiqləri bir-birilə qovuşan iki cərəyan əmələ gətirdi. Əvvəl "Ekspert sistemlər" (Expert Systems) deyilən istiqamət vüsət aldı: qoyulmuş qayda ilə, proqramla (software), insan tərəfindən yazılmış qayda-proqramla işləyən sistem. Sonra işlər öz-özünü tənzimləyə bilən, avtonom işləmək qabiliyyəti olan sistem, maşın, süni zəka tərəfə yönəldi.

Dünyanı dəyişmək fikrinə düşən zəka özünə yoldaş axtarırdı, o, süni zəka düzəltməyə girişdi! İnsan kimi düşünə bilən, qərar qəbul edə bilən, fəaliyyətə keçə bilən süni zəka, ağıllı maşın yaratmaq olmazmı?! Budur Süni zəka elmi və ya mühəndisliyi! Alan Turing, J. von Neumann, N. Wiener, C. Shannon kimi bir sıra riyaziyyatçı və mühəndis-texnoloqlar ağıllı maşın ideyasını gerçəkləşdirməyə çalışdılar. Norbert Wiener [25] maşını beyinlə müqayisə edir, minimaks axtarış-alqoritm əsasında kompüterin şahmat oynaya biləcəyini deyirdi. Amerikalı riyaziyyatçı və elektrik mühəndisi Claude Shannon [26] bu işdə xeyli irəli getdi. O, kompüterin şahmat oynamasını riyazi minimax məsələnin həlli kimi təqdim etdi. Şahmat partiyasını bir ağac kimi, lövhədəki mövcud vəziyyəti bədən, mümkün gedişləri budaqlar kimi təsəvvür etməli. Mümkün gedişlərin qiymətləndirmə uzunluğunu (dərinliyini) eyni bir rəqəmlə (10, 15 və s.) məhdudlaşdırmaq lazım gəlir. Hər gedişin gücü anlayışı olaraq

bir ədədi qiymət daxil edilir; bu zaman fiqurların durduğu yeri və nisbi gücü, mərkəzə və açıq xətlərə nəzarət, piyadaların vəziyyəti, şahın təhlükəsizliyi kimi amillər nəzərə alınır. Bütün mümkün gedişlər içindən ən yaxşı gediş olaraq maksimal qiymətə malik olan gediş seçilir. 1974-cü ildə şahmat kompüter proqramları arasında keçirilən dünya çempionatında 13 iştirakçı arasında Sovet "Kaissa" proqramı çempion oldu. 1997-ci ildə IBM-in Deep Blue super kompüteri dünya şahmat çempionu Kasparovu yendi: 3.5-2.5. [27].

Maşın zəkanın dəqiq təsvir edilən hər növ işini prinsipcə görə bilər, simulyasiya edə bilər, buna süni zəka deyilir (John McCarthy, Dartmouth Conference, 1956). 1966-cı ildən başlayaraq elektron adamlar – robotlar göründü. Sifət ifadəsi, bədən dili və danışıqdan istifadə etməklə insanla ünsiyyət qura bilən "Kismet" adlı robot süni intellektin təntənəsi sayıldı (1998, MIT). 2000-ci illər Skype, Facebook, Youtube, WhatsApp, IPhone kimi hər kəsi özünə bağlayan internet və telefon məşhurları yarandı.

Süni Zəka elminin mərkəzində Maşın Təlimi və ya Maşın Öyrətmə (Machine Learning) deyilən riyazi elm dayanır. Maşın Təliminin əsasında çox böyük məlumat bazasının araşdırılması durur. Ekspert sistemlərindən fərqli olaraq insan kompüterə proqram vermir, insan bu sistemə ancaq məlumat (təlim /training) bazası verir. Lazım olan hər şey bu məlumat bazasından alınır. Yəni, maşın özü özünü proqramlaşdırır, bu bazanı öyrənir, bazadan və bəlli nümunələrdən nəticə çıxarır. Güc məlumat bazasının kəmiyyəti və keyfiyyətindən (tam, aydın, uyğun,... olmasından) asılıdır. Maşın avtonomdur, insan müdaxiləsi olmadan bir dəfə hərəkətə gətiriləndən sonra özü öz işşini görür, insanın müdaxiləsi yoxdur və ya cüzidir. Maşın təlimi 1) əldə olan çox böyük məlumat əsasında gələcəyi görməyə, proqnoz etməyə çalışır; 2) bir-birinə bənzər məlumatları seçib ayırır, təsnif edir (klasterlərə ayırır); 3) yeni bilik, yeni məzmun (mətn, şəkil, video, sənət əsəri, problem həlletmə strategiyaları) yaradır. Çox geniş yayılmış Törədici və ya İstehsaledici süni zəka (Generative AI) adlanan sahələr, məsələn, örnək, nümunə əsasında plan quran, yeni məzmun yaradan ChatGPT ya AI Art təhsil və digər sahələrə dərindən nüfuz etmədədir.

Maşın Təliminin mərkəzində bioloji ideya – beyin necə işləyir fikri üzərində qurulan Dərin Təlim (Deep Learning) durur. Bunun əsasında işıq və səsin uyğun olaraq görüntü və eşitməyə çevrilməsi prosesinin modelləşdirilməsi dayanır. Sinir hüceyrələrinə – neyron şəbəkələrə bənzədərək süni neyron şəbəkələr (Artificial neural networks) qurulur. Neyronlar bir-biri ilə qeyri-xətti funksiysalarla birləşirlər, onları "yaxşı" funksiyalarla yaxınlaşdırmaq işə kömək edir. Təbii Dil Emalı (Natural Language Processing) deyilən süni zəka insan dilində (türkcə, ingiliscə,...) mətni oxumaq, anlamaq, yazmaq, ünsiyyət qurmaq imkanı verir. Kompüter-görmə (Computer Vision) adlanan sahə görüntü və video-məlumatı anlamaq, təhlil etmək üçündür. Maşın təliminin riyazi əsasını diferensial və inteqral hesabı, statistika və xətti cəbr təşkil edir.

ABŞ və Çin arasında süni zəka üzrə liderlik savaşı gedir [28]. Çin haqqında Napoleon`a aid edilən (ancaq dəqiq bilinməyən) çox geniş yayılmış bir ifadə mövcuddur: "Çin yatmış nəhəng kimidir, qoyun yatsın, qalxsa dünyanı silkələyəcək" ("China as a sleeping giant, let her sleep, for when wakes, she will shake the world" [21]). Süni zəkaya həsr olunmuş jurnal məqalələrinə görə Çin birincidir. Süni zəkanın tətbiq olunmadığı sahə düşünmək çətindir – təbiət elmləri, texnologiya, farmakologiya, tibb, dilçilik, savaş, media, təhsil, siyasət... 2024-cü ildə kimya və fizika üzrə iki Nobel mükafatçısı süni intellekt mütəxəssisidir. Belə düşünülür ki, süni zəka cəmiyyəti, dünyamızı dəyişib yaxşıya və ya pisə çevirə bilər, süni zəka inqilabı digər növ inqilablar kimi özü ilə problemlər də gətirir.

Süni zəka ilk əvvəl tapşırığa tez və yaxşı əməl edən tələbə təsiri bağışlayırdı, sonra elm adamının, mühəndisin, müəllimin həmkarına çevrildi, hazırda o, həm də müəllimlik edir, öyrədir

# Nəticə

Yüksək texnologiya mədəniyyətinin inkişafı üçün nə etmək lazımdır? Uşaq bağçalarından başlayaraq, ibtidai və orta məktəblərdə yüksək texnologiya ideyasını təbliğ və nümayiş etdirmək, təcrübi, praktik yönümlü dərslərə daha çox fikir vermək (ancaq nəzəriyyələri ön plana çəkən Rus sindromundan xilas olmaq) zəruridir. Çin hökuməti 2030-cu ildə Süni İntellekt elmi, texnologiyası və onların tətbiqi üzrə dünya lideri olmaq iddiasını bəyan etdi və Süni İntellekt fənninin ibtidai məktəblərdən başlayaraq ciddi tədrisi proqramını irəli sürdü.

Araşdırma universitetinin gücü nədədir, onu necə ölçməli? Hər hansı bir sahədə, təbiət elmləri, mühəndislik, iqtisadiyyat və menecment, humanitar və sosial elmlər olsun, uyğun akademik qurumun araşdırma indikatorları nələrdir? Dünya təcrübəsi deyir ki, iki indikatoru ölçmək, hesablamaq, qiymətləndirmək zəruridir: 1) sanballı jurnallarda dərc olunan keyfiyyətli məqalələr (say və istinadlar) və 2) bir ildə uğurla PhD dissertasiyası müdafiə edən məzunların sayı. Mümkündür ki, 2-ci maddə ilə yanaşı bir qədər fərqli maddə də daxil edilsin: 2a) bir ildə magistr tezisi və doktorluq dissertasiyasını uğurla müdafiə edənlərin (graduate degree conferred) sayı. "Magistr proqramlarının varlığı uyğun sahədə PhD proqramlarının güclənməsinə təkan verir" fikri 2a) maddəsinin doğruluğuna bir işarədir. Dissertasiyaların müdafiəsi və elmi adların verilməsi ilə bağlı çox mühüm bir məsələni xüsusi vurğulamaq lazımdır: yüksək təhsil, xüsusilə doktorantura üçün təqaüdlərin varlığı. Dünyanın müxtəlif bölgələrindən istedadlı doktorantlar cəlb etmək üçün onlara müsabiqə əsaslı təqaüd vermək həyati vacib məsələdir.

Araşdırmanın dövlət üçün vacibliyini hökumətin beyninə yeritmək asan iş deyil, xüsusilə araşdırmanın çox güclü olmadığı ölkələrdə. Bir tərəfdən bu işi unutmaq olmaz, universitetlər hökumətlə dialoqa girməyə çalışmalıdırlar. Digər yandan isə araşdırma universiteti kimi güclənmək iddiasında olan ali məktəblər özləri hökumətdən asılı olmadan və yorulmadan bu istiqamətdə işləməli, mümkün olanı etməlidirlər.

Mühəndislik fakultələrində "əllə yaratmaq", məşğələləri tətbiqi layihələr üzərində qurmaq vacibdir. Ortaya yaratmaq problemi qoymaq, robot, elektromobil, dron, günəş enerjisindən geniş istifadə (enerji qaynağı, maşın/avtomobil), nanotexnologiya, biotexnologiya, genetik mühəndislik, bio-tibbi mühəndislik, əşyaların interneti və kibertəhlükəsizlik, süni intellekt – araşdırma və tətbiq (machine learning, deep learning, natural language prosessing, computer vision...), ətraf mühit mühəndisliyi (tullantıların yeni üsullarla emalı,...) – budur mühəndislik təhsili, müəllim, mütəxəssis və tələbələrin iş-məşğələ birliyi! Biznes-iqtisadiyyat fakültələri təbiət elmləri və mühəndislik fakültələri ilə startup`ların biznes və idarəetmə tərəfləri istiqamətində qarşılıqlı faydalı əməkdaşlıq edə bilərlər.

# Ədəbiyyat


[1] Altbach, P.G. and Salmi, J. (2011). The Road to Academic Excellence: The Making of WorldClass Research Universities. Washington D.C.: The World Bank.

[2] Ebied R. Y., Young M.J.L. New light on the origin of the term "baccalaureate". The İslamic Quaterly. A review of İslamic Culture.Vol.18, № 1-2, January-July, 1974, p.3-7.

[3] Byron G. Massialas, Samir A. Jarrar. Conflicts in Education in the Arab World: The Present Challenge. Arab Studies Quarterly, Vol. 9, No. 1, pp. 35-52

[4] Johan Östling. Humboldt and the Modern German University. An intellectual history. Lund University Press, 2018

[5] https://carnegieclassifications.acenet.edu/

[6] https://nces.ed.gov/programs/digest/d23/tables/dt23_317.20.asp

[7] The Current Health and Future Well-Being of the American Research University. Report by the Research Universities Futures Consortium. June 2012

[8] The National Science Foundation. Survey of Earned Doctorates. https://www.nsf.gov/statistics/doctorates/

[9] Wang Zhanjun. The Construction and Development of Research Universities in China. Foreign Language Teaching and Research Press, Beijing, 2010; p. 129

[10] CSET Data Brief. China isFast Outpacing U.S. STEM PhD Growth. Remco Zwetsloot, Jack Corrigan, Emily S. Weinstein, Dahlia Peterson, Diana Gehlhaus, and Ryan Fedasiuk

August 2021. p. 4. https://cset.georgetown.edu/publication/china-is-fast-outpacing-u-s-stem-phd-growth/

[11] Rui Yang. Up and coming? Doctoral education in China. Australıan Unıversıtıes' Revıew. vol. 54, no. 1, 2012, pp. 64-71.

[12] China Education and Research Network (n.d.). Action Scheme for Invigorating Education

[13] Frezghi, T.G. and Tsegay, S.M. (2019). Internationalisation of Higher Education in China: A Critical Analysis. Journal of Social Change, 49(4), pp. 643–658.

[14] Li, J. (2018). Conceptualizing Soft Power of Higher Education. [online] Singapore: Springer. Available at: https://doi.org/10.1007/978-981-13-0641-9.

[15] Ministry of Education of the People's Republic of China (2018a). China's education: 40 years of epic achievements. [online] Available at: http://en.moe.gov.cn/news/press_releases/201812/t20181224_364525.html [Last Accessed 23 Apr. 2020].

[16] Rhoads, R.A., Wang, X., Shi, X. and Chang, Y. (2014). China's Rising Research Universities: A New Era of Global Ambition. Johns Hopkins University Press.

[17] World Education News and Reviews (2019). Education in China. [online] World Education Services. Available at: https://wenr.wes.org/2019/12/education-in-china-3 [Last Accessed 31 Mar. 2020].

[18] Xu, X. and Mei, W. (2018). The Outline and Planning of Educational Development in China.

[19] Guangli Zhou , Xiang Zhou (2019). Educational Policies and Legislation in China. Singapore: Springer Nature.

[20] Wei Hu & Hao Ni (2019): Educational policies and legislation in China, Journal of Education Policy, 34 (5), 1-2

[21] Welch, A. (2018). Global Ambitions: Internationalization and China's Rise as Knowledge Hub. Frontiers of Education in China, 13(4), pp. 513–531.

[22] https://explodingtopics.com/blog/how-many-people-work-at-google

[23] Loren Graham. Lonely Ideas: Can Russia Compete? MIT Press, 2013

[24] Никас Сафронов: Времена не выбирают. «Новый Взгляд». 8 апреля 2011

[25] Norbert Wiener. Cybernetics: Or Control and communication in the Animal and the Machine. 1948

[26] Claude Shannon. Programming a Computer for Playing Chess. Philosophical Magazine, Ser.7, Vol. 41, No. 314, March 1950

[27] Hamlet İsaxanlı. Şahmat ehtirası. Xəzər Xəbər / Khazar Review, № 439, May, 2024

[28] Gloria Shkurti Özdemir, Artificial Intelligence 'Arms Dynamics': The Case Of The US And China Rivalry, SETA, 2024

## *İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN ƏMƏKDAŞI SİTAT SAYINA GÖRƏ MÜHÜM NAİLİYYƏT ƏLDƏ EDİB*



Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı, ingilis dili və ədəbiyyatı üzrə professor Dr. Muhammad İmran elmi məqalələrinə 1000-dən çox isnad edilməsi ilə mühüm nailiyyət əldə edib. Bu, Dr. İmran`ın nüfuzlu beynəlxalq jurnallarda dərc olunmuş tətbiqi dilçilik, dil tədrisi, süni intellekt və dil təhsili, eləcə də diskurs araşdırmaları sahəsindəki elmi işlərinə aiddir.

Google Scholar Profili: *https://scholar.google.com/citations?user=d1dwKB8AAAAJ&hl=en*

## *ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT STAFF MEMBER REACHES CITATION MILESTONE*

Dr. Muhammad Imran, a professor of English Language and Literature at the Department of English Language and Literature of Khazar University, has achieved a significant milestone with over 1,000 citations to his scholarly publications. This accomplishment pertains to his academic contributions published in reputable international journals in the fields of applied linguistics, language teaching, artificial intelligence and language education, as well as discourse studies.

Google Scholar Profile: *https://scholar.google.com/citations?user=d1dwKB8AAAAJ&hl=en*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*COMMONSPACE.EU*"DA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Opinion: Azerbaijan Reiterated Support for Ukraine's Territorial Integrity" ("Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etdi") mövzusunda məqaləsi "*Commonspace.eu*"da dərc edilmişdir.

Qeyd edək ki, "*Commonspace.eu*" 1997-ci ilin iyulunda Londonda yaradılmış *LINKS* şəbəkəsinin bir hissəsi olan Hollandiyanın Haaqa şəhərində qeydiyyatdan keçmiş *LINKS* Europe fonduna aiddir.

Məqaləyə keçid: Opinion: Azerbaijan Reiterated Support for Ukraine's Territorial Integrity | commonspace.eu

## ARTICLE BY LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY PUBLISHED ON "*COMMONSPACE.EU*"

An article by Dr. Vasif Huseynov, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Opinion: Azerbaijan Reiterated Support for Ukraine's Territorial Integrity", has been published in "*Commonspace.eu*".

It is important to note that "*Commonspace.eu*" is an activity of LINKS Europe, a foundation registered and based in The Hague, the Netherlands, and which forms a part of the LINKS network, established in London in July 1997.

Link to the article: Opinion: Azerbaijan Reiterated Support for Ukraine's Territorial Integrity | *commonspace.eu*

KRiTER

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ "*KRİTER*" JURNALINDA

## ARTICLE BY HEAD OF DEPARTMENT IN "*KRITER*" JOURNAL

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Yapay Zeka Çağı'nda Ulusal Egemenliğin Geleceği" (Süni intellekt dövründə milli suverenliyin gələcəyi) adlı məqaləsi Türkiyənin aylıq "*Kriter*" jurnalında ("*Kriter*", aprel, 2025-ci il, cild 9, sayı 100) işıq üzü görüb. Jurnal Türkiyədə nüfuzlu dərgi hesab olunur.

Müəllif məqalədə informasiyanın sürətlə yenilənməsi, bu prosesin dövlət suverenliyinə təsiri, müasir texnologiyaların inkişafı ilə milli dövlətçilik ənənələrində baş verə biləcək dəyişikliklər və digər məsələlərə toxunmuşdur.

Assoc.Prof. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, has published an article "The Future of National Sovereignty in the Age of Artificial Intelligence" published in the Turkish monthly journal "*Kriter*" (April 2025, Volume 9, No 100). The journal is widely recognized as an influential publication in Türkiye.

In the article, the author touched upon the rapid renewal of information, the impact of this process on state sovereignty, the changes that may occur in the traditions of national statehood with the development of modern technologies, and other issues.

*Link: https://kriterdergi.com/ara/yapay-zek-caginda-ulusal-egemenligin-gelecegi*

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ "*EDUCATION SCIENCES*" JURNALINDA

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT STAFF MEMBER'S ARTICLE IN "*EDUCATION SCIENCES*" JOURNAL




Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Muhammad İmranın "Exploring the Relationship Between Critical Thinking and Creativity in University Students: Gender Differences and the Assessment of Skills" ("Universitet tələbələrində tənqidi düşüncə və yaradıcılıq arasındakı əlaqənin araşdırılması: gender fərqləri və bacarıqların qiymətləndirilməsi") adlı məqaləsi "*Education Sciences*" jurnalının 15(4)-cü cildində nəşr olunub. Jurnal Scopus Q2 və Web of Science Q1 kateqoriyalı olub, 2.5 təsir əmsalına malikdir.

Məqalədə universitet tələbələrinin tənqidi düşüncə və yaradıcılıq bacarıqları arasındakı əlaqə araşdırılır, gender fərqləri vurğulanır və bu bacarıqların qiymətləndirilmə metodları təhlil olunur.

Dr. Muhammad Imran, staff member of Khazar University's English Language and Literature Department has published an article titled "Exploring the Relationship Between Critical Thinking and Creativity in University Students: Gender Differences and the Assessment of Skills" in *Education Sciences*, Vol. 15(4), a Scopus Q2 and Web of Science- Q1 with 2.5 Impact Factor journal.

The article explores the relationship between critical thinking and creativity in university students, highlighting gender differences and examining methods of skill assessment.

This paper can be read at.

*https://www.mdpi.com/2227-7102/15/4/464*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ *"İRANİAN JOURNAL OF SCİENCE"* JURNALINDA

## JOINT ARTICLE BY PROFESSORS OF MATHEMATICS DEPARTMENT IN *"IRANIAN JOURNAL OF SCIENCE"* JOURNAL




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "Eigenfunction expansions for singular Impulsive dynamic Dirac systems" ("Sinqulyar Impulsiv dinamik Dirac sistemləri üçün məxsusi funksiyalar üzrə ayrılış") adlı birgə məqaləsi "Iranian Journal of Science" jurnalında dərc edilmişdur (2025, Cild 49, № 2). *"Iranian Journal of Science"* jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə sinqulyar impulsiv dinamik Dirac sistemi üçün spektral funksiya qurulmuşdur. Bu funksiyanın köməyi ilə Parseval bərabərliyinin doğru olduğu isbat olunmuş və məxsusi funksiyalar üzrə ayrılış düsturu əldə edilmişdir.

A joint article by the Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor of the Mathematics Department, Academician Hamlet Isakhanli, and Professor Biləndər Allahverdiyev of the same department, titled "Eigenfunction expansions for singular Impulsive dynamic Dirac systems," has been published in the Iranian Journal of Science (2025, Volume 49, No. 2).

It should be noted that the *Iranian Journal of Science* is indexed in the Web of Science and Scopus databases.

In this article, a spectral function for the singular impulsive dynamic Dirac system is obtained. In terms of this function, the Parseval equality and expansion formula in eigenfunctions is given.

*https://link.springer.com/article/10.1007/s40995-025-01783-4*
*https://link.springer.com/journal/40995*

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORUNUN MƏQALƏSİ BEYNƏLXALQ KONFRANSIN TOPLUSUNDA




Fevralın 11-də Komrat Dövlət Universitetinin (Moldova Respublikası) təşkil etdiyi "Elm. Təhsil. Mədəniyyət" (Bilim. Üüretim. Kultura)" Beynəlxalq Elmi Konfransının materialları işıq üzü görmüşdür. Konfrans materiallarında Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərlinin "Azərbaycan dili şivələri və özbək dilində ortaq sözlər" mövzusunda məqaləsi çap olunmuşdur.

## ARTICLE BY COORDINATOR OF LANGUAGES DIVISION IN INTERNATIONAL CONFERENCE PROCEEDINGS

The proceedings of the International Scientific Conference "Science. Education. Culture", organized by Comrat State University (Republic of Moldova), were published on February 11. The collection includes an article by Dr. Sevinc Gambarli, Coordinator of the Languages Division at the Department of Languages and Literatures, Khazar University. Her paper, titled "Dialectal Variations of the Azerbaijani Language and Shared Words in Uzbek," was featured in the publication.



Tarix Dostiyev

# GÖRKƏMLİ TƏDQİQATÇI

**Təvəkkül Əliyev**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru,dosent*

Bu günlərdə Azərbaycanın görkəmli alimi, tarixçi-arxeoloq, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının müdiri, AMEA Arxeologiya və Antropologiya institutunun aparıcı elmi işçisi, Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktor müavini Tarix Meyrut oğlu Dostiyevin 70 yaşı tamam olur.

Tarix Dostiyev 1955-ci il martın 23-də Bakı şəhərinin Zabrat qəsəbəsində anadan olmuşdur. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirdikdən sonra Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunda baş laborant, daha sonra kiçik elmi işçi vəzifəsində fəaliyyətə başlamışdır. 1982-1984-cü illərdə Moskva Dövlət Universitetinin Arxeologiya kafedrasında təcrübəçi-tədqiqatçı olmuş, orta əsrlər arxeologiyası üzrə ixtisaslaşmışdır. 1988-ci ildə Moskva Dövlət Universitetinin nəzdindəki İxtisaslaşdırılmış Müdafiə Şurasında "Şimal-Şərqi Azərbaycanın orta əsr arxeoloji abidələri (IX-XIII əsrlər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib alimlik dərəcəsi almışdır. 2004-cü ildə isə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki Müdafiə Şurasında "Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə (tarixi-arxeoloji tədqiqat)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Tarix Dostiyevin yaradıcılıq fəaliyyətində elm və təhsilin vəhdəti həmişə müşahidə olunub. O, 10-dan artıq monoqrafiya, kitab və dərs vəsaitinin, 200-ə yaxın elmi məqalənin müəllifidir. Çoxcildli "Azərbaycan arxeologiyası"nın VI cildinin əsas müəllifi və cildin məsul redaktorudur. 1990-2008-ci illərdə Bakı Dövlət Universitetində "Arxeologiyanın əsasları", "Azərbaycanın arxeoloji landşaftları", "Azərbaycan arxeologiyası" fənləri, "İslam arxeologiyası", "Azərbaycanın orta əsrlər arxeologiyası", "Azərbaycanın orta əsr maddi mədəniyyəti" seçmə fənləri üzrə mühazirələr oxuyub, "Arxeologiyanın əsasları", "Azərbaycan arxeologiyası" fənləri, "Köməkçi tarix fənləri" üzrə proqramlar tərtib edib. Azərbaycanşünaslar Müstəqil Birliyi sədrinin birinci müavinidir.

Tarix Dostiyevin əsas tədqiqatları Azərbaycanın orta əsr şəhər və kəndlərinin sosial-iqtisadi və siyasi tarixinə həsr olunmuş, maddi-mədəni irsimizin araşdırılmasına yönəlmişdir. O, 1981-ci ildən ardıcıl olaraq çöl tədqiqatlarında iştirak edir. Azərbaycanın şimal-şərq – Quba-Xaçmaz bölgəsinin arxeoloji abidələri, xüsusilə Şabran orta əsr şəhər yeri onun bir arxeoloq alim kimi formalaşmasında əhəmiyyətli rol oynamışdır. Təsadüfi deyildir ki, onun ilk monoqrafiyaları da (Şimal-Şərqi Azərbaycanın orta əsr arxeoloji abidələri. Bakı,1999; Şimal-Şərqi Azərbaycan IX-XV

əsrlərdə. Bakı, 2001) həmin bölgənin tarix və mədəniyyət abidələrinin öyrənilməsinə həsr olunub.

Tarix Dostiyev son 40 ildə Azərbaycan arxeologiyasına həsr olunmuş, demək olar ki, bütün konfrans və simpoziumlarda yaxından iştirak etməklə yanaşı, həm də bir çox belə tədbirlərin təşəbbüskarı və təşkilatçısı olmuşdur. O, Azərbaycan arxeologiya elmini xaricdə (Rusiya, Türkiyə, Gürcüstan, Qırğızıstan, Türkmənistan, İran və b. ölkələrdə) keçirilən beynəlxalq elmi məclislərdə də uğurla təmsil etmişdir. Şəmkir şəhər yerində ardıcıl tədqiqatlar Tarix Dostiyevə belə toplantılarda Azərbaycanın arxeoloji irsində İslam dövrü mülki monumental memarlığı, İslam sivilizasiyası sistemində Azərbaycan şəhərlərinin yeri, Orta əsrlərdə tolerantlıq, şəhərsalma və digər nəzəri problemlərə diqqəti yönəltməyə imkan vermişdir. Ölkəmizdə, demək olar ki, tarix və arxeologiya ilə bağlı bütün elmi nəşrlərdə - "Azərbaycan arxeologiyası", "Azərbaycan arxeologiyası və etnoqrafiyası", "Tarix və onun problemləri", "İrs", "Dövlət və din", Bakı Universitetinin xəbərləri və s. jurnallarda Tarix Dostiyevin qələmindən çıxan çoxsaylı məqalələrə rast gəlirik. Bu məqalələrdə Orta əsrlərdə Azərbaycanda şəhər və şəhər mədəniyyəti, Azərbaycan şəhərlərinin qon-



*Hamlet isaxanlı*

şu ölkələrlə, o cümlədən Qızıl Ordu şəhərləri ilə mədəni-ticarət əlaqələri, Səlcuqlu dövrünün şirli polixrom keramikası, basmanaxışlı bədii keramika, fayans qablar və digər mövzular yeni arxeoloji materiallar əsasında işıqlandırılır. Son dövrlərdə Azərbaycanda "İslam arxeologiyası" və "İslam dövrü arxeologiyası" anlayışlarının elmi müstəviyə gətirilməsində və xüsusi tədqiqat istiqamətinə yönəldilməsində də Tarix Dostiyevin xidməti nəzəri cəlb edir. Vətənpərvər alim işğal dövründə ermənilərin Azərbaycan mədəniyyəti tarixini saxtalaşdırmaq cəhdlərinə biganə qalmamış, öz məqalə və çıxışları ilə bu cəhdləri ifşa etmişdir.

Müstəqillik illərində Azərbaycanın Orta əsr abidələrinin tədqiqatlarından bəhs edərkən, ilk növbədə yada Tarix Dostiyev düşür. Belə ki, son 30 ildə ölkəmizdə arxeologiya elmi yeni inki-

şaf səviyyəsinə yüksəlib, bölgələrində arxeoloji ekspedisiyaların fəaliyyəti bərpa olunub, yeni ekspedisiyalar təşkil edilib. Bu dövrdə yeni tikinti sahələrində, xüsusilə Bakı-Ceyhan Neft Boru Kəməri boyunca aşkar olunan abidələrin tədqiqi geniş vüsət almışdı. Tarix Dostiyev bu araşdırmalarda yaxından iştirak etmiş, orta əsrlərə aid ondan artıq kənd tipli yaşayış yerinin elmi dövriyyəyə daxil edilməsində müstəsna rol oynamışdır.

Azərbaycanın orta əsrlər arxeologiyası üzrə ilk ümumiləşdirici, kollektiv tədqiqat əsəri altı cildlik "Azərbaycan arxeologiyası" kitabının sonuncu - VI cildi ("Şərq-Qərb", 2008, 632 s.) olmasına baxmayaraq, məhz məsul redaktor, mətnin nəzərə çarpacaq hissəsinin müəllifi Tarix Dostiyevin səyi, gərgin əməyi sayəsində həmin sırada birinci nəşr olunmuşdur. Kitabda təxminən bir əsr ərzində Azərbaycanın orta əsr abidələrində aparılmış arxeoloji qazıntıların nəticələri, o cümlədən əldə edilmiş çoxsaylı və müxtəlif kateqoriyalı materiallar əsasında IX-XVIII əsrlərə aid yaşayış məskənlərinin tipləri, urbanizasiya prosesi və ona təsir edən amillər şərh edilmişdir. Eyni zamanda, əsərdə istehkam tikililəri, ictimai, dini və yaşayış binaları, şəhər abadlığı, əhalinin təsərrüfat və məişət həyatı, iqtisadi və ticarət əlaqələri və nəhayət, mənəvi mədəniyyətlə bağlı məsələlər işıqlandırılmışdır.

Tarix Dostiyev 20 ilə yaxındır ki, Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılara rəhbərlik edir. Bu ardıcıl tədqiqatlar orta əsrlərdə urbanizasiya proseslərinin öyrənilməsində yeni mərhələ açmış, bu tarixi dönəmə aid Azərbaycan şəhərlərinin tədqiqində arxeologiyanın imkanlarını və gələcək perspektivlərini nümayiş etdirmişdir. Məqsədyönlü və sistemli araşdırmalar müasir Şəmkir şəhərinin beynəlxalq elmi konfranslara ev sahibliyi etmək üçün zəmin yaratmışdır. 2008, 2009 və 2010-cu illərdə ardıcıl olaraq Şəmkir qazıntılarından bəhs edən kitablar çap olunmuşdur. Tarix Dostiyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan "Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar" adlı kitab (Bakı: Çaşıoğlu, 2013, 516 s.) tarixçi-arxeoloqların diqqətini xüsusilə cəlb etmişdir. Bu əsər 2006-2011-ci illərdə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntıların nəticələrinə həsr olunub. İki bölmədən ibarət olan kitabın birinci bölməsində apxeoloji qazıntılar və tikinti sahələrinin konservasiyası üzrə işlərdən bəhs edilir. İkinci bölmədə isə arxeoloji tapıntıların kataloqu tərtib olunmuşdur. Aparılan tədqiqatlar göstərir ki, Böyük İpək Yolu üzərində yerləşən bu şəhər bölgənin hərbi-siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Onun çiçəklənmə dövrü isə 11-12-ci əsrlərə təsadüf edir. XIII əsrin 30-cu illərində isə Azərbaycanın bir çox digər şəhərləri kimi Şəmkir şəhəri də monqol qoşunları tərəfindən talan edilərək dağıdılmışdı. Qazıntılar zamanı əldə olunan zəngin – 4 mindən artıq artefaktın (əmək alətləri, silahlar, sadə və şirli keramika, metal və daş məmulatı, inşaat keramikası, şüşə qab nümunələri, bəzək əşyaları, numizmatik və epiqrafik tapıntılar) bir qismi bu kitabda əks olunmuşdur.

Tarix Dostiyevin "Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri)" adlı əsərində (Bakı: "Elm və Təhsil", 2016, 200 s.) orta əsr Azərbaycan şəhərinin topoqrafik quruluşu, istehkamlarının, ictimai-dini və yaşayış binalarının, mühəndis qurğularının səciyyəvi cəhətləri öz əksini tapmışdır. Burada ayrı-ayrı sənətkarlıq sahələrindən, ticarət əlaqələrindən, Orta əsr şəhərlərində hökm sürən mədəni həyatdan da bəhs olunur.

"Orta əsr Şəmkir şəhərinin keramikası" adlı monoqrafiya (Bakı: "Apostrof-A", 2020, 224 s.) Tarix Dostiyevin son illərdə nəşr olunan əsərlərindəndir. Arxeoloqlar, tarixçilər, həmçinin İslam dövrü ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulan bu monoqrafiyada 2006-2019-cu illərdə Şəmkirdə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunan şirsiz saxsı məmulatı tədqiqata cəlb olunub, şəhər sakinlərinin məişəti ilə sıx bağlı olan bu tapıntılar sistemləşdirilib, onların tipoloji təsnifatı aparılıb. Əsərdə Şəmkir dulusçuluğunun Arran memarlıq məktəbinin mühüm mərkəzlərindən biri olduğu sübuta yetirilib. Keramika məmulatlarının zənginliyinə əsaslanan müəllif tədqiqat nəticəsində belə bir qənaətə gəlmişdir ki, orta əsr Şəmkir şəhəri nəinki Azərbaycan və Cənubi Qafqazda, həmçinin bütövlükdə İslam dünyasında yüksək inkişaf

etmiş mədəni ocaqlardan biri olmuşdur.

Tarix Dostiyev akademik Ş.M. Mustafayevin ümumi redaktəsi ilə nəşr olunmuş "Azərbaycan İpək Yolu üzərində" adlı fundamental əsərin müəlliflərindən biridir (Bakı: Təhsil, 2020, 384 s., rus dilində). Kitabda xronoloji ardıcıllıqla təqdim olunan tədqiqat materialları İpək Yolunun uzaq keçmişdən son orta əsrlərə qədər Azərbaycanın ictimai və təsərrüfat həyatına təsirini izləməyə imkan yaradır. Əsərin T. Dostiyev tərəfindən işlənən Erkən orta əsrlər, Ərəb xilafəti, Səlcuq, monqol və postmonqol dövrlərinə aid bölmələrində sənətkarlıq və ticarət mərkəzləri olmuş tarixi şəhərlərimizdə aparılan arxeoloji qazıntılar nəticəsində Böyük İpək yolu şəbəkəsinin bir hissəsi olan və Azərbaycan ərazisindən keçən əsas ticarət yolları, onların lokalizasiya məsələləri ətraflı şərh edilir, ölkəmizin qonşu və uzaq bölgələrlə, xalqlarla sıx əlaqəsi arxeoloji dəlillərlə əsaslandırılır. Bəhs olunan əsərin tezliklə Azərbaycan dilində də nəşr olunacağı gözlənilir.

1938-1940-cı illərdə məşhur alim İ.M. Cəfərzadənin rəhbərliyi ilə tarixi Azərbaycan şəhəri olan Gəncədə aparılan arxeoloji tədqiqatlar zamanı külli miqdarda maddi-mədəniyyət nümunələri toplanmışdır. 80 ildən artıq bir müddətdə Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan bu materialların mühüm bir hissəsi bu yaxınlarda Tarix Dostiyevin və özbəkistanlı alim Aysulu İsgəndərovanın birgə müəllifliyi ilə elmi ictimaiyyətin istifadəsinə verilmişdir (Orta əsr Gəncəsinin şirli keramikası. Astana-Bakı-Səmərqənd, 2024, 496 s. Rus və ingilis dillərində). Milli Azərbaycan Tarixi Muzeyində beynəlxalq elmi əməkdaşlıq çərçvəsində birgə hazırlanan bu kitab muzeyin Arxeologiya fondunda qorunan şirli keramika kolleksiyasının illüstrasiyalı albomla müşayiət olunan ilk kompleks tədqiqatıdır. Milli Azərbaycan Tarixi Muzeyində monoqrafiyanın geniş təqdimatı keçirilmiş (29 dekabr 2024-cü il), tədbirdə çıxış edən iştirakçılar gərgin əmək sayəsində ərsəyə gələn bu kitabın Gəncə şəhərində keramika sənətinin incəliklərinin öyrənilməsində, tarixi və mədəni irsimizin araşdırılmasında əhəmiyyətini qeyd etmişlər.

Tarix Dostiyevin Roza Arazova ilə birlikdə hazırladığı "Köməkçi tarixi fənlər" adlı kitab (Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2001, 188 s.) bu yöndə Azərbaycan dilində yazılmış ilk dərs vəsaitidir. Burada vəsaitə daxil edilən köməkçi tarixi fənlər üzrə (xronologiya, paleoqrafiya, numizmatika və s.) tələbələrə zəruri biliklərin verilməsi başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

Tarix Dostiyevin hazırladığı "Arxeologiya" adlı dərslikdə (Bakı: "Elm və təhsil", 2021, 396 s.) bəşəriyyətin sübh çağından son orta əsrlərədək keçdiyi tarixi inkişaf yolunun qanunauyğunluqları, tarixi inkişaf prosesində hər bir arxeoloji dövrdə insanların kəşf və innovasiyaları, nailiyyət və töhfələri şərh olunmuşdur. Dərslikdə arxeoloji anlayışlar, tədqiqat metodları, mənbələr əsasında müxtəlif texnoloji, etnik və sosial rekonstruksiyalar haqqında da ətraflı məlumat verilmişdir.

Tarix Dostiyev Azərbaycan elmində arxeoloji lüğətin tərtibi üzrə ilk təşəbbüs göstərən tədqiqatçıdır. Onun gərgin səyi nəticəsində ərsəyə gələn "Arxeoloji lüğət" əsərində (Bakı: "Elm və Təhsil", 2018, 324 s.) arxeologiya elmində işlədilən başlıca anlayış və istilahlar şərh edilir, arxeoloji dövrlər səciyyələndirilir, arxeologiyada tətbiq olunan tədqiqat metodları, mühüm arxeoloji mədəniyyətlər, abidələr haqqında məlumat verilir. Təsadüfi deyildir ki, bu əsər arxeologiya və ona yaxın olan elm sahələrinin nümayəndələri, eləcə də tarixi keçmişə maraq göstərənlər tərəfindən daima tələb olunan bir kitaba çevrilmişdir.

Elmi-pedaqoji fəaliyyətini müvəffəqiyyətlə davam etdirən Tarix Dostiyev gənc arxeoloq kadrların yetişməsinə də həmişə diqqət yetirir, onlara qayğı göstərir, məsləhətlərini əsirgəmir. Təsadüfi deyildir ki, bu gün onun apardığı tədqiqatlarda ən yaxın köməkçiləri də məhz özünün yetirmələridir.

Həmkarları adından təvazökar insan, gözəl alim, səmimi dost Tarix Dostiyevi 70 illik yubleyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və elmi yaradıcılığında yeni uğurlar arzulayırıq.





*Mələk Abbaslı*

## "KPMG AZERBAIJAN" ŞİRKƏTİNİN "AUDİT - KARYERA GÜNÜ"

Aprelin 16-da Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin maliyyə, mühasibat və audit ixtisasları üzrə təhsil alan 3-cü və 4-cü kurs tələbələri üçün "KPMG Azerbaijan" şirkətinin "Audit – Karyera günü" keçirildi.

Tədbirin əsas məqsədi tələbələrin karyera inkişaflarına dəstək olmaq, onlara audit sahəsində mövcud olan təcrübə proqramları və karyera imkanları barədə məlumat vermək idi.

"Audit - Karyera günü" çərçivəsində KPMG nümayəndələri - Audit üzrə direktor, Xəzər Universitetinin məzunu Mələk Abbaslı, İnsan resursları üzrə mütəxəssis Səbinə Ağasoy, İkinci dərəcəli Baş Audit mütəxəssisi Amil Salmanlı tələbələrə KPMG şirkətinin fəaliyyət istiqamətləri, işə qəbul prosesi, təcrübə proqramları və şirkətdaxili öyrənmə imkanları haqqında ətraflı məlumat verdilər. Tədbirdə vurğulandı ki, KPMG əməkdaşlarının davamlı peşəkar inkişafını dəstəkləmək üçün geniş resurslara və beynəlxalq təcrübəyə malikdir.

Tədbir boyunca tələbələr audit sahəsində karyera qurmağın mərhələləri, bu sahədə tələb olunan əsas bacarıqlar, eləcə də KPMG-nin gənc mütəxəssislərə təqdim etdiyi inkişaf platformaları ilə yaxından tanış oldular.

Yekunda şirkətin nümayəndələri tələbələri maraqlandıran sualları cavablandırdılar.

## "AUDIT – CAREER DAY" BY KPMG AZERBAIJAN COMPANY

On April 16, the Career and Alumni Center of Khazar University organized the "Audit – Career Day" by KPMG Azerbaijan for third- and fourth-year students of the Faculty of Economics and Management, majoring in Finance, Accounting, and Auditing.

The main goal of the event was to support students in their career development by providing information on available internship programs and career opportunities in the field of auditing.

As part of the "Audit – Career Day," KPMG representatives — Audit Director and Khazar University alumna Malak Abbasli, HR Specialist Sabina Agasoy, and Senior Audit Specialist Amil Salmanli — gave students a detailed overview of KPMG's areas of activity, recruitment process, internship programs, and internal learning opportunities. It was emphasized that KPMG possesses extensive resources and international experience to support the continuous professional growth of its employees.

Throughout the event, students became familiar with the stages of building a career in auditing, the key skills required in the field, and the development platforms KPMG offers to young professionals.

At the end of the session, company representatives answered students' questions.

## "ŞUŞA İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI – 2024" İLİNİN BAĞLANIŞ MƏRASİMİ VƏ I İSLAM DÜNYASI MƏDƏNİYYƏT FORUMU



*Ülvi Babasoy*

## CLOSING CEREMONY OF "SHUSHA – CULTURAL CAPITAL OF ISLAMIC WORLD 2024" AND FIRST ISLAMIC WORLD CULTURAL FORUM

Aprelin 17-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada "Şuşa Hotel"in Üzeyir Hacıbəyli salonunda "Şuşa İslam Dünyasının Mədəniyyət Paytaxtı – 2024" ilinin bağlanış mərasimi və "Postmünaqişə dövründə mədəni irsin qorunması və dirçəldilməsi" mövzusunda I İslam Dünyası Mədəniyyət Forumu keçirilmişdir.

Beynəlxalq tədbirdə Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy da iştirak etmişdir. Forumda Azərbaycanın və dünyanın mədəniyyət xadimləri Qarabağ və Azərbaycanın mədəni irsi, ona dəyən zərərlər, postmünaqişə dövründə restavrasiya işləri və gələcək perspektivlər müzakirə edilib.

On April 17, the closing ceremony of the year "Shusha – Cultural Capital of the Islamic World 2024" and the First Islamic World Cultural Forum titled "Preservation and Revival of Cultural Heritage in the Post-Conflict Period" took place in Shusha at the Uzeyir Hajibeyli Hall of Shusha Hotel. The event was organized by the Ministry of Culture of the Republic of Azerbaijan.

Among the participants of this international event was Ulvi Babasoy, a lecturer at the Department of Languages and Literatures of Khazar University. The forum brought together cultural figures from Azerbaijan and around the world to discuss the cultural heritage of Karabakh and Azerbaijan, the damage it has suffered, restoration efforts in the post-conflict period, and future prospects.

## “MAARİFÇİ” TƏCRÜBƏ PROQRAMI HAQQINDA MƏLUMAT SESSİYASI

## INFORMATION SESSION ON “MAARIFCHI” INTERNSHIP PROGRAM



*Zərifə Əliyeva*



Aprelin 17-də Xəzər Universitetində Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə yaranan III “Maarifçi” tələbə-məzun təcrübə proqramına dair maarifləndirmə-məlumat sessiyası keçirildi. Tədbirdə universitetin IV kurs bakalavr və I, II kurs magistr tələbələri, həmçinin məzunlar iştirak edib.

“Maarifçi” tələbə-məzun təcrübə proqramının məqsədi elm və təhsil sahəsində insan resursla-

On April 17, an information and awareness session on the 3rd “Maarifchi” Student-Graduate Internship Program, initiated by the Ministry of Science and Education and the Education Development Fund, was held at Khazar University. The event was organized by the Career and Alumni Center of the university and brought together fourth-year bachelor’s and first- and second-year master’s students, as well as alumni.

The aim of the “Maarifchi” internship program is to contribute to the development of human re-



rının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək olmaqdır.

Proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyinin Aparatı, tabe qurumları və regional təhsil idarələrində təcrübə keçmək imkanı əldə edəcəklər. Təcrübə proqramı çərçivəsində tələbə



və məzunlar nazirliyin struktur bölmələrində həyata keçirilən layihə və proqramlarda, müxtəlif mövzular üzrə təlimlərdə, eləcə də təcrübəli rəhbər şəxslərlə mentorluq proseslərində iştirak imkanı qazanacaqlar.

Tədbiri Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva açaraq, proqramın tələbə və məzunların peşəkar inkişafında oynadığı roldan bəhs edib.

O, bu cür təşəbbüslərin gənclərin real iş mühiti ilə tanış olması və karyera planlamasında əhəmiyyətli rol oynadığını vurğulayıb.

Z. Əliyeva tələbə və məzunlara III "Maarifçi" proqramının əhatə dairəsi, müraciət qaydaları və iştirak tələbləri, eləcə də təcrübə müddətində təqdim olunan imkanlar barədə ətraflı məlumat verib.

Tədbir iştirakçılar tərəfindən maraqla qarşılanıb və III "Maarifçi" proqramına olan marağın daha da artmasına səbəb olub.



sources in the fields of science and education, enhance the sector-specific knowledge and skills of students and graduates through practical experience, introduce them to modern approaches in education, and support the implementation of educational reforms.

As part of the program, participants will have the opportunity to intern at the central office of the Ministry of Science and Education, its subordinate institutions, and regional education departments. The internship program will also allow students and graduates to take part in projects and programs implemented by the Ministry's structural units, participate in trainings on various topics, and benefit from mentorship under the guidance of experienced professionals.

The event was opened by Zarifa Aliyeva, Director of the Career and Alumni Center at Khazar University, who spoke about the role of the program in the professional development of students and graduates. She emphasized the importance of such initiatives in helping young people become familiar with real work environments and in guiding their career planning.

Z. Aliyeva provided detailed information to students and alumni about the scope of the 3rd "Maarifchi" program, application procedures, participation requirements, and the opportunities offered during the internship period.

The event was met with great interest by the participants and contributed to increased enthusiasm for the 3rd "Maarifchi" program.

## "STUDYFANS" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 9-da Xəzər Universiteti Türkiyədə yerləşən, lakin əsas fəaliyyəti ərəb ölkələrindən tələbə cəlb edilməsinə yönəlmiş "StudyFans" təhsil şirkətinin baş meneceri Ali Aydın, satış meneceri Ahmet Arslan, təhsil məsləhətçiləri Məryəm Əsgərli və Tahir Məmmədovu qəbul etdi.

Tədbirdə "StudyFans" nümayəndələri şirkətin fəaliyyəti, missiyası və tərəfdaş universitetlərlə əməkdaşlıq imkanları barədə çıxış etdilər. Onlar ərəb ölkələrindən beynəlxalq tələbə cəlb etmə sahəsindəki təcrübələrini bölüşdülər və Xəzər Universiteti ilə mümkün əməkdaşlıq yollarını müzakirə etdilər.

Universitet tərəfindən tədbirdə Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Jalə Məmmədova iştirak etdilər.

Tədbir zamanı Xəzər Universiteti haqqında da ətraflı məlumat verildi. Hər iki tərəf gələcək əməkdaşlıq imkanlarını, ortaq layihələrin perspektivlərini və birgə fəaliyyətlərin hər iki tərəf üçün necə faydalı ola biləcəyini müzakirə etdilər. Görüş qarşılıqlı hədiyyələrin təqdim olunması ilə yekunlaşdı.

## "STUDYFANS" COMPANY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

On April 9, Khazar University hosted representatives from "StudyFans," an education company based in Türkiye but primarily focused on attracting students from Arab countries. The delegation included General Manager Ali Aydin, Sales Manager Ahmet Arslan, and Education Consultants Maryam Asgarli and Tahir Mammadov.

During the event, "StudyFans" representatives addressed the company's activities, mission, and cooperation opportunities with partner universities. They shared their experience in recruiting international students from Arab countries and discussed potential collaboration paths with Khazar University.



*Tahir Məmmədov, Ali Aydın, Ahmet Arslan*

The university was represented at the event by Acting Rector Prof. Muhammad Nuriyev, Dean of the Graduate School of Science, Art and Technology Dr. Gunel Bahaddinova, Dean of the School of Science and Engineering Dr. Fakhranda Afandiyeva, Director of the Quality Assurance Center Lyudmila Sotova, Head of International Relations Department Fatima Valiyeva, and coordinator Jala Mammadova.

During the meeting, detailed information about Khazar University was also provided. Both parties discussed future cooperation opportunities, perspectives of joint projects, and how collaborative activities could benefit both sides. The meeting concluded with an exchange of gifts.

## XƏZƏR UNİVERSİTETİNDƏ VIGO CARE MMC ŞİRKƏTİ İLƏ GÖRÜŞ



*Xalid Əl-Baroudi, Tofik Həsənzadə*

Xəzər Universitetində beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi məqsədilə aprelin 29-da Vigo Care MMC şirkətinin nümayəndələri ilə görüş keçirildi. Sözügedən şirkət ərəb ölkələrindən olan tələbələrin Azərbaycanda yerləşən ali təhsil müəssisələrinə cəlb edilməsi ilə məşğul olur.

Görüşdə Vigo Care MMC-nin Baş meneceri Xalid Əl-Baroudi və İcraçı menecer Tofik Həsənzadə, Xəzər Universitetindən isə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, şöbənin koordinatoru Jalə Məmmədova və Beynəlxalq əlaqələr üzrə (ərəb dünyası) rektorun müşaviri Əhməd Elaydi iştirak ediblər.

Görüş zamanı, tərəfdaşlıq imkanları və əməkdaşlığın mümkün istiqamətləri müzakirə olunub. Ərəb ölkələrindən Xəzər Universitetinə tələbə cəlb edilməsi, onların yerləşdirilməsi və yaşayış məsələlərinin təşkili, eləcə də gələcəkdə birgə layihələrin icrası haqqında geniş müzakirələr aparılıb.



*Əhməd Elaydi, Fatimə Vəliyeva, Jalə Məmmədova*

## MEETING HELD BETWEEN KHAZAR UNIVERSITY AND VIGO CARE LLC

On April 29, a meeting was held at Khazar University with representatives of Vigo Care LLC in order to expand opportunities for international cooperation. The company specializes in recruiting students from Arab countries to higher education institutions in Azerbaijan.

The meeting was attended by Vigo Care LLC's General Manager Khaled Al-Baroudi and Executive Manager Tofiq Hasanzada, and from Khazar University, Head of the International Relations Office Fatima Valiyeva, Office Coordinator Jala Mammadova, and Rector's Advisor on International Affairs (Arab World) Ahmed Elaydi.

During the meeting, potential partnership opportunities and areas of cooperation were discussed in detail. Discussions focused on attracting students from Arab countries to Khazar University, arrangements for their accommodation and settlement, as well as the implementation of future joint projects.



*Aynur Rzayeva*

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ DİSSERTASİYA İŞİNİ MÜDAFİƏ EDİB

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi və Azərbaycan Dillər Universitetinin dissertantı Aynur Mirəli qızı Rzayeva filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "İngilis və Azərbaycan bədii mətnlərində koheziya və informativlik" (5714.01 – Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik) mövzusundakı dissertasiya işini müdafiə edib. Elmi rəhbəri fil.e.d, Prof Əfqan Abdullayevdir.

Dissertasiyanın müdafiəsi AMEA-nın Nəsimi adına Dilçilik institutunda keçirilmişdir.

## FACULTY MEMBER OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE DEFENDS DISSERTATION

Aynur Rzayeva, faculty member of the Department of English Language and Literature at Khazar University and doctoral candidate at Azerbaijan University of Languages, has successfully defended her PhD dissertation in Philology titled "Cohesion and Informativeness in English and Azerbaijani Literary Texts" (5714.01 – Comparative-Historical and Comparative-Typological Linguistics). Her academic advisor is Prof. Afgan Abdullayev, Doctor of Philology. The dissertation defense took place at the Nasimi Institute of Linguistics under the Azerbaijan National Academy of Sciences.

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ YENİ YARADILAN PLATFORMANIN FUNKSİYALARI HAQQINDA TƏLİM

Aprelin 17-də Xəzər Universitetində DIRNA layihəsi çərçivəsində yeni yaradılan RIMS-Research Information Management System platformasının funksiyaları haqqında təlim keçirildi.

Təlimdə RIMS platformasına giriş, sistem administratorunun vəzifələri, materialların sistemə daxil olunması, Repozitoriyanın idarə olunması, icazələrin konfiqurasiyası, müntəzəm olaraq texniki xidmət işlərinin görülməsi haqqında məlumat verildi. Hər bir istifadəçi üçün şəxsi hesab açıldı.

## TRAINING ON FUNCTIONALITIES OF NEW PLATFORM WITHIN DIRNA PROJECT

On April 17, a training session on the functionalities of the newly developed RIMS – Research Information Management System platform was held at Khazar University within the framework of the DIRNA project. The training covered key aspects such as accessing the RIMS platform, the responsibilities of the system administrator, uploading materials into the system, managing the repository, configuring user permissions, and carrying out regular technical maintenance. Individual user accounts were created for each participant.






*Hafiz Muhammad Azeem Akram*

Təlim Xəzər Universiteti Kompüter elmləri departamentinin müəllimi Hafiz Muhammad Azeem Akram tərəfindən nəzəri və praktiki olaraq keçirildi.

The session was conducted both theoretically and practically by Hafiz Muhammad Azeem Akram, lecturer at Khazar University's Department of Computer Sciences.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPATAMENTİNİN MÜDİRİ TÜRKMƏNİSTANDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova aprelin 17-18-də Məhtumqulu adına Türkmənistan Dövlət Universitetində YUNESKO-nun "Mədəni irs: keçmişdən gələcəyə" kafedrasının təşkilatçılığı ilə distant formatda keçirilən "Mədəni irsin öyrənilməsi və qorunmasında sülhün və etibarın rolu" mövzusunda beynəlxalq elmi konfransında çıxış etmişdir.

Türkmənistan ali təhsil, elmi-tədqiqat müəssisələrinin professor-müəllim heyətinin, alimlərin, tədqiqatçıların, doktorantların, YUNESKO-nun kafedra və nümayəndələrinin iştirakı ilə keçirilən konfransda Dos. Dilbər Zeynalova "Azərbaycanda müasir türkmən ədəbiyyatının öyrənilməsi məsələləri mədəniyyətlərin dialoqu kontekstində" ("Вопросы изучения в Азербайджане современной туркменской литературы в контексте диалога культур") məruzəsi maraqla qarşılanmışdır.

## HEAD OF DEPARTMENT OF LANGUAGES AND LITERATURES AT INTERNATIONAL CONFERENCE IN TURKMENISTAN

Associate Professor Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures at Khazar University, participated in the international scientific conference titled "The Role of Peace and Trust in the Study and Preservation of Cultural Heritage", held in a virtual format on April 17–18, at Makhtumkuli Turkmen State University. The conference was organized by the UNESCO Chair "Cultural Heritage: From the Past to the Future."

The event brought together professors, scholars, researchers, and doctoral students from Turkmenistan's higher education and research institutions, as well as representatives and chairs from UNESCO. Associate Professor Dilbar Zeynalova delivered a presentation on "Issues of Studying Contemporary Turkmen Literature in Azerbaijan in the Context of Intercultural Dialogue" ("Вопросы изучения в Азербайджане современной туркменской литературы в контексте диалога культур"), which was met with great interest by the participants.

# MEETING WITH REGIONAL ENGAGEMENT SPECIALIST FOR MIDDLE EAST AND ASIA OF DATACITE

# DATACITE TƏŞKİLATININ YAXIN ŞƏRQ VƏ ASİYA ÜZRƏ REGİONAL ƏLAQƏ MÜTƏXƏSSİSİ İLƏ GÖRÜŞ

Aprelin 18-də Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin əməkdaşları ilə DataCite təşkilatının Yaxın Şərq və Asiya üzrə regional əlaqə mütəxəssisi Mohammad Mustafa arasında onlayn görüş keçirildi.

Görüşdə DataCite təşkilatı haqqında məlumat verildi. DataCite tədqiqat nəticələrini və resursları birləşdirərək, tədqiqatın effektivliyini təmin edən beynəlxalq qeyri-kommersiya təşkilatıdır. DOI və metadata qeydlərinin yaradılmasını və idarə olunmasını dəstəkləyərək, tədqiqat nəticələrinin və resurslarının aşkar edilməsinə və təkrar istifadəsinə imkan verir. İnternetdə elmi məlumatlara daha asan çıxışı təmin edir, elmi məlumatların tanınmasını artırır. DataCite təşkilatına 57 ölkədən 1508 müəssisə üzvdür.

Görüşdə Xəzər Universitetinin Elektron Arxivi ilə əlaqədar məsələlər müzakirə edildi.

Görüş zamanı DataCite nümayəndəsi Xəzər Universitetinin Dspace (Elektron Arxiv) kolleksiyasının strukturu və zənginliyini, o cümlədən arxivə daxil olan bölmələrin düzgün sıralanmasını, materialların açıq və əlçatan olmasını yüksək qiymətləndirdi.

Sonda tərəflər arasında əməkdaşlığın qurulması barədə müzakirələr aparıldı.

On April 18, an online meeting was held between the staff of the Library and Information Center of Khazar University and Mohammad Mustafa, the Regional Engagement Specialist for the Middle East and Asia of DataCite.

During the meeting, an overview of the DataCite organization was presented. DataCite is an international non-profit organization dedicated to connecting research results and resources, thereby enhancing research effectiveness. By supporting the creation and management of DOIs and metadata records, the organization facilitates the discoverability and reuse of research outputs and resources. It contributes to easier access to scholarly content online and promotes greater visibility and recognition of research data. DataCite currently brings together 1,508 member institutions from 57 countries.

The meeting also addressed topics related to Khazar University's Electronic Archive. The DataCite representative praised the structure and richness of the University's DSpace (Electronic Archive) collection, highlighting the accurate categorization of the archive's sections as well as the accessibility and openness of the materials.

The meeting concluded with a discussion on establishing future cooperation between the parties.

## DEPARTAMENT MÜDİRİ DOS. TELMAN NÜSRƏTOĞLUNUN DAİMİ ŞƏRHÇİSİ OLDUĞU "*HƏDƏF*" VERİLİŞİNİN XÜSUSI BURAXILIŞI YAYIMLANIB

Aprelin 17-də Azərbaycan Dövlət Televizyasında (*AZTV*) Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlunun daimi şərhçi kimi iştirak etdiyi "*Hədəf*" verilişinin tarixdən günümüzə Türkiyə - Ermənistan münasibətlərinə həsr olunan növbəti xüsusi buraxılışı yayımlanıb.

Departament müdiri Osmanlı və Gürcüstan arxiv sənədləri əsasında erməni məsələsinin ortaya çıxması, Anadolu və Cənubi Qafqazda erməni terror və üsyanlarının sferasının genişlənməsində imperialist dövlətlərin rolu ilə bağlı maraqlı faktlar açıqlayıb. Proqramda, eyni zamanda, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq üçün Ermənistanın öz gerbindən, müstəqillik aktından və digər dövlət sənədlərdən qonşulara ərazi iddiaları ehtiva edən məqamları da çıxarmasının zərurəti qeyd edilib.

## SPECIAL EDITION OF "*HADAF*" PROGRAM FEATURING ASSOCIATE PROFESSOR TELMAN NUSRATOGHLU AS PERMANENT COMMENTATOR AIRED

On April 17, a new special edition of the "*Target*" program aired on Azerbaijan State Television (*AZTV*), featuring Associate Professor Telman Nusratoghlu, Head of the Department of History and Archaeology at Khazar University, as a regular commentator. The episode focused on Turkish-Armenian relations from a historical perspective to the present day.

During the program, the department head shared compelling facts based on archival documents from the Ottoman Empire and Georgia, shedding light on the emergence of the Armenian issue and the role of imperialist powers in the expansion of Armenian terror and uprisings across Anatolia and the South Caucasus. The discussion also emphasized the necessity for Armenia to remove territorial claims against its neighbors from its coat of arms, declaration of independence, and other state documents in order to normalize relations with Türkiye and Azerbaijan.

*https://www.youtube.com/live/aqfQA_fyfLQ?si=AKeqKuneySwQ0YIq*

## *SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİ ANEWZ KANALINDA*

## *LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON ANEWZ CHANNEL*

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Gloria Shkurti 2025-cü il 22 aprelin 22-də *ANEWZ* kanalında Anastasiya Lavrinanın "Süni intellekt siyasəti necə yenidən yazır: kampaniyalar, nəzarət və məhkəmə" mövzusundakı verilişinin qonağı olmuşdur.

Dr. Gloria izah edib ki, süni intellekt indi siyasətə dərindən təsir göstərir – qərarlar formalaşdırır, siyasət istiqamətlərini dəstəkləyir, hətta seçicilərə təsir edir. Bununla belə, süni intellektdən istifadə ciddi narahatlıqlar yarada bilər. Bəziləri bunun ədalətsizliyə və ya qeyri-şəffaflığa səbəb ola biləcəyindən narahatdırlar.

On April 22, the lecturer of the Department of Political Science and Philosophy, Dr. Gloria Shkurti, was a guest of Anastasia Lavrina on the *ANEWZ* channel on the topic " How AI is Rewriting Politics: Campaigns, Control & the Court".

Dr. Gloria explained, AI is now deeply involved in politics – shaping decisions, supporting policy directions, even influencing voters. However, the use of AI can also raise serious concerns. Some worry that it could lead to injustice or a lack of transparency.

*https://youtu.be/uqM16wne0ao?si=MU1pl_4YsWb6FjGa*

## ŞƏHİD ÖVLADLARI ÜÇÜN 1-Cİ İNTELLEKTUAL MARAFONDA İŞTİRAK EDƏN "XƏZƏR"İN TƏLƏBƏLƏRİ BİRİNCİ VƏ İKİNCİ YERƏ LAYİQ GÖRÜLÜBLƏR

## KHAZAR UNIVERSITY STUDENTS TAKE FIRST AND SECOND PLACE IN THE FIRST INTELLECTUAL MARATHON FOR CHILDREN OF MARTYRS



*Mətləb Samidli*

Aprelin 18-dən 20-dək "YAŞAT" Fondunun təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində şəhid övladları üçün 1-ci intellektual marafon təşkil olunub. Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsi məlumat verib.

Layihə 16-21 yaş aralığında olan 50-yə yaxın şəhid övladını əhatə edib. Marafon Şahdağ Turizm Mərkəzinin dəstəyi, "PAŞA Technology" MMC və Dünya Türk Biznes Şurasının (DTİK) sponsorluğu ilə həyata keçirilib.

Marafonun əsas məqsədi iştirakçıların asudə vaxtlarının səmərəli təşkili, onların intellektual inkişafına dəstək olmaq, yeni bilik və bacarıqlar qazanmalarına şərait yaratmaqdan ibarət olub. Tədbir çərçivəsində müxtəlif intellektual oyunlar, bilik yarışmaları və əyləncə saatları təşkil edilib. Yarışın sonunda bütün iştirakçılar və qaliblər qiymətli hədiyyə və mükafatlarla təltif olunublar.

Tədbirdə Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri – Politologiya ixtisasının 1-ci kurs tələbəsi Mətləb Samidli və Tərcümə (İngilis dili) ixtisasının 3-cü kurs tələbəsi Abbas İsgəndərli də fəal iştirak ediblər. Mətləb Samidlinin komandası I yerə, Abbas İsgəndərlinin komandası isə II yerə layiq görülüb. "YAŞAT" Fondu tərəfindən şəhid övladları üçün həm ölkə daxilində, həm də xaricdə müxtəlif təlim kursları, düşərgələr və inkişaf yönümlü tədbirlər mütəmadi olaraq təşkil olunur.

From April 18 to 20, the first intellectual marathon for children of martyrs was held within the "Year of the Constitution and Sovereignty" initiative, organized by the "YAŞAT" Foundation. The news was shared by the Public Relations Department of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan.

The project included nearly 50 children of martyrs aged between 16 and 21. The marathon was implemented with the support of Shahdag Tourism Center and sponsored by "PASHA Technology" LLC and the World Turkish Business Council (DTIK).

The main goal of the event was to ensure the productive use of participants' free time, support their intellectual development, and create opportunities for gaining new knowledge and skills. Within the marathon, a range of intellectual games, knowledge contests, and entertainment sessions were organized. At the end of the event, all participants and winners were awarded valuable gifts and prizes. Students of Khazar University's School of Humanities, Education and Social Sciences – first-year Political Science student Mətləb Samidli and third-year Translation (English) student Abbas Isgandarli – actively participated in the event. Mətləb Samidli's team won first place, while Abbas Isgandarli's team was awarded second place.

The "YAŞAT" Foundation regularly organizes various training courses, camps, and development-oriented events for children of martyrs both in the country and abroad.

## "DƏSTƏK DİZAYNI" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏDRİS EKSKURSİYASI

Aprelin 22-də Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimləri Leyla Hüseynova və İskəndər Məmmədovun rəhbərliyi ilə Dizayn ixtisasında tədris alan 3-cü kurs tələbələri üçün "Dəstək Dizaynı" layihəsi ilə əlaqədar olaraq "Greenwood" və "Turkesh Decor" şirkətlərinə tədris ekskursiyası təşkil edilib. Ekskursiyanın əsas məqsədi tələbələrin mebel dizaynının istehsal prosesini real istehsalat mühitində öyrənmələri və nəzəri biliklərini praktikada tətbiq etmələridir.



Ekskursiya zamanı tələbələr müxtəlif interyer materiallarının istehsal mərhələləri ilə yaxından tanış olublar. Onlar müasir texnologiyalar və istifadə olunan xammallar haqqında ətraflı məlumat alıblar. Şirkət rəhbərləri və nümayəndələri, istehsal proseslərinin necə təşkil olunduğunu nümayiş etdirərək, məhsul dizaynının sənaye tərəfi barədə tələbələrə dəyərli biliklər veriblər.

Bu ekskursiya tələbələr üçün həm maarifləndirici, həm də motivasiyaedici olmuşdur. Tələbələr dizayn sahəsindəki biliklərini genişləndirərək, gələcək karyeraları üçün vacib təcrübə qazanmaq imkanı əldə ediblər.

## EDUCATIONAL EXCURSION WITHIN THE FRAMEWORK OF "SUPPORT DESIGN" PROJECT

On April 22, an educational excursion was organized for third-year students majoring in Design at Khazar University's Department of Architecture and Design, under the guidance of instructors Leyla Huseynova and Iskandar Mammadov, within the framework of the "Support Design" project. The excursion took place at the "Greenwood" and "Turkesh Decor" companies. Its main goal was to enable students to study the furniture design production process in a real manufacturing environment and to apply their theoretical knowledge in practice.

During the excursion, students closely observed the production stages of various interior materials. They received detailed information about modern technologies and the raw materials used. Company executives and representatives demonstrated how production processes are organized and provided students with valuable insights into the industrial aspects of product design.

This excursion proved to be both educational and motivational for the students. They expanded their knowledge in the field of design and gained important experience that will serve them well in their future careers.




# "TÜRK DÖVLƏTLƏRİ VƏ MƏDƏNİYYƏTLƏRİ TARİXİ" KİTABININ TƏQDİMATI

# PRESENTATION OF BOOK "HISTORY OF TURKIC STATES AND CULTURES"

Aprelin 18-də Bakı Yunus Əmrə İnstitutunda "Türk Dövlətləri və Mədəniyyətləri Tarixi" adlı kitabın təqdimat mərasimi keçirilib. İslam öncəsi çağdan XX əsrə qədər Türk tarix və mədəniyyətini əhatə edən 1128 səhifəlik kitabı Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri, tanınmış tarixçi Dos. Telman Nüsrətoğlu və tarixçi-tədqiqatçı Əkbər N. Nəcəf birgə qələmə almışlar. Əsər Çapar Kitab Evi tərəfindən nəşr olunub.

Təqdimat mərasimində Azərbaycan millət vəkilləri Fazil Mustafa, Hikmət Babaoğlu və Naqif Həmzəyev, həmçinin Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin müşavirləri Prof.Dr. Muhittin Macit və Prof. Dr. M. Fatih Bilal Alodalı iştirak ediblər. Tədbirə Türkiyə Maarif Vəqfinin Azərbaycan təmsilçisi Serdar Gündoğan, Maarif və Anadolu liseylərinin müdirləri, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) idarə heyətinin üzvü olan alimlər, Xəzər Universiteti, digər təhsil və elm ocaqlarından gələn həmkarlar və tələbələr də qatılıblar.


*Telman Nüsrətoğlu*


*Əkbər N. Nəcəf*

Tədbirin təşkilatçıları arasında yer alan Yunus Əmrə İnstitutu Bakı müdiri Güvən Çolak, Çapar nəşriy-


*Güvən Çolak*

On April 18, the Yunus Emre Institute in Baku hosted the presentation ceremony of the book "History of Turkic States and Cultures." The 1,128-page work, which covers Turkic history and culture from the pre-Islamic era to the 20th century, was co-authored by Associate Professor Telman Nusratoghlu, Head of the Department of History and Archaeology at Khazar University, and historian-researcher Akber N. Najaf. The book was published by Chapar Publishing House.

The event was attended by Azerbaijani Members of Parliament Fazil Mustafa, Hikmat Babaoğlu, and Naqif Hamzayev, as well as advisors from the Embassy of the Republic of Türkiye in Azerbaijan, Prof. Dr. Muhittin Macit and Prof. Dr. M. Fatih Bilal Alodalı. Also present were Serdar Gündoğan, Türkiye Maarif Foundation's representative in Azerbai-



*Fazil Mustafa*

yatının rəhbəri Yusif İlhanoğlu və digər əməkdaşlara təşəkkürlər bildirilib.

Mərasimdə çıxış edənlər - Telman Nüsrətoğlu, Əkbər N. Nəcəf, Fazil Mustafa, Hikmət Babaoğlu



*Yusif Ilhamoglu*

Naqif Həmzəyev, Nazim Cəfərsoy (İqtisad universitetinin dosenti) və digərləri kitabın Türk tarixinin və mədəniyyətinin təbliğində əhəmiyyətini vurğulayaraq, onun oxucular arasında böyük maraq doğuracağına əmin olduqlarını qeyd etdilər.



*Naqif Həmzəyev*



*Hikmət Babaoğlu*

jan, principals of Maarif and Anadolu lyceums, scholars from the Board of the Center of Analysis of International Relations (CAIR), colleagues and students from Khazar University and other academic institutions.

Acknowledgments were extended to the organizers of the event, including Güven Çolak, Director of the Yunus Emre Institute in Baku, Yusif Ilhanoglu, Director of Chapar Publishing House, and other staff



*Nazim Cəfərsoy*

members. Speakers at the ceremony — Telman Nusratoghlu, Akber N. Najaf, Nazim Jafarsoy (Associate Professor, University of Economics) Fazil Mustafa, Hikmat Babaoğlu, Naqif Hamzayev, and others — emphasized the significance of the book in promoting Turkic history and culture and expressed confidence that it would attract great interest among readers.

At the conclusion of the event, it was noted that joint efforts would continue in the future to distribute the book and to further promote knowledge about Turkic culture. Both *AZTV* and *TRT* aired reports covering the presentation ceremony.

Təqdimatın sonunda, kitabın oxuculara çatdırılması və Türk mədəniyyəti ilə bağlı daha geniş məlumatın yayılması istiqamətində gələcəkdə də birgə işlər aparılacağı qeyd edilib. *AZTV* və *TRT* təqdimat mərasimindən reportaj yayımlayıb.

# DÜNYANIN ƏN GÖZƏL İNSANI ODUR...




Nüfuzlu "People" jurnalı dünyanın ən gözəl insanının adını açıqlayıb.

Nəşrin dərc etdiyi "Dünyanın ən gözəl insanı" reytinqində Hollivud aktrisası Demi Mur birinci olub.

Jurnal 62 yaşlı Demi Muru planetin ən gözəl insanı elan etməklə kifayətlənməyib, həm də onunla gözəllik və aktyorluq karyerası haqqında söhbət aparıb.

Ekran ulduzu bildirib ki, əldə etdiyi ən böyük azadlıq özünü tam şəkildə olduğu kimi qəbul etməsindədir.

"Bu, kim olduğumu hər gün qəbul etmək hissidir. Bu o demək deyil ki, mənə xoş gələn hissələri qəbul edirəm. Bu o deməkdir ki, mən bütün hissələrimi qəbul edirəm", - deyə, Mur vurğulayıb və yaşla birlikdə görünüşündə baş verən bütün dəyişiklikləri qəbul etdiyini söyləyib.

Qeyd edək ki, Demir Mur üç dəfə evli olub: 1980-1985-ci illərdə rok-musiqiçi Freddi Murla, 1987-2000-ci illərdə aktyor Brüs Uillislə, 2005-2013-cü illərdə isə aktyor Eşton Kutçerlə. Onun Brüslə nikahından Rumer, Skaut və Tallulu adlı üç qızı var.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq
- Biotexnologiya
- İnformasiya təhlükəsizliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi